# *İbtidai məktəb və məktəbəqədər tərbiyə*

1970-ci ildən çıxır.

2005, № 4 (173)
oktyabr - noyabr - dekabr

# JURNAL

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

2005

4

## Bu nömrədə

Beş yaşdan təlimin nəticələri nə göstərir?.........................................................

***Fənlərin tədrisi və qabaqcıl təcrübə***

*Ağayarova Ş.* –Hesab məsələlərinin müxtəlif üsullarla həlli metodikası.......................
*İskəndərov E.* – III sinifdə oxu dərslərində iqtisadi biliklərin verilməsi imkanları..................................................................................................
*Abbasova S.* – Təsviri sənət məşğələlərinin təşkili.................................................
*Əhmədova L.* – «Fiqurun sahəsinin hesablanması» mövzusunun tədrisində əyanilikdən istifadə.....................................................................

***Məktəbəqədər tərbiyə***

*Məmmədova X.* – Məktəbəqədər və ibtidai təhsil müəssisələri arasında varislik..........................................................................................................
*Məmmədova A.* – Uşaqların məktəb təliminə psixoloji hazırlığı..................................
*Novruzova N.* – Oyuncaqlara verilən gigiyenik tələblər............................................
*Baxışova Ş.* – Uşaqlarda düzlük, doğruçuluğun tərbiyə edilməsində islam dəyərlərindən ..........................................................................
*Ağayeva E.* – «Vergi və dövlət xəzinəsi» mövzusunda keçirilən tədbirin ssenarisi..........

***Psixologiya və defektologiya***

*Məmmədov İ.* – Altıyaşlıların psixoloji xüsusiyyətləri................................................
*Əfəndiyeva Ü.* – Ailədə məktəbəqədər yaşlı uşaqların temperament xüsusiyyətlərinin nəzərə alınması..................................................
**Əliyeva H.** – Kiçikyaşlı məktəblilərin məktəbə adaptasiyasının psixoloji xüsusiyyətləri..............................................................................
*Cavadova S.* – İntellektual çalışmazlığı olan uşaqlarda kommunikativ bacarıqların formalaşdırılması............................................................

***Uşaqların sağlamlığı***

*İsmayılova Z.*– Məktəblilərin sağlamlığının mühafizəsində qidalanmanın rolu.............

***Bizim iş yoldaşlarımız***

*Məmmədova A.* – İradəetmədə yeni yanaşmalar......................................................
*Əhmədova Ş.* – Məsuliyyət hissi olanda.............................................................

***Dərs ilinin II yarısı üçün proqram materiallarının planlaşdırılması***

I sinif – Oxu və yazı, hüsnxət, həyat bilgisi, fiziki tərbiyə, əmək təlimi, ...................
II sinif– Oxu, Azərbaycan dili, hüsnxət, həyat bilgisi, musiqi və nəğmə, təsviri incəsənət, fiziki tərbiyə, əmək təlimi.........................................................
III sinif– Oxu, Azərbaycan dili, təbiətşünaslıq, musiqi və nəğmə, təsviri incəsənət, fiziki tərbiyə, əmək təlimi.......................................................................
IV sinif – Oxu, Azərbaycan dili, təbiətşünaslıq, musiqi və nəğmə, təsviri incəsənət, fiziki tərbiyə, əmək təlimi.......................................................................

**Baş redaktor: Y.Ş.Kərimov**

Redaksiya heyəti: A.Muradov, N.Əliyeva, A.Həsənov, V.Xəlilov, N.Alnağıyeva, S.Hədov, Ə.Hüseynov, L.Məmmədova, R.Süleymanova

Yığılmağa verilmiş: 09.11.2005. Çapa imzalanmış 05.12.2005
Kağız formatı: 70x100 1/16. Şərti çap vərəqi 6
Sifariş № 119 Tirajı 500 . Qiyməti 10 000 manat.
Redaksiyanın ünvanı: 370010, Bakı, Azərbaycan prospekti, 40, Tel: 493-84-41.
«Nasir» nəşriyyatının mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı A.Tağızadə küçəsi. 17 Tel: 431-11-00

# BEŞ YAŞDAN TƏLİMİN NƏTİCƏLƏRİ NƏ GÖSTƏRİR?

Məktəbimizin ibtidai mərhələsi həmişə sınaq meydanı olub. 2002-2003-cü tədris ilində beşyaşlıların təlimə cəlb olunması imkanlarını eksperimental yolla müəyyənləşdirmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin icazəsilə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitununun baza müəssisələri olan İ.Əfəndiyev adına Elitar Gimnaziya və Nizami rayonundakı 59 nömrəli məktəbəqədər tərbiyə müəssisəsinin hər birində beşyaşlılardan ibarət bir sinif təşkil olundu.

Eksperimentin obyektivliyini, gələcəkdə kütləviliyinin mümkünlüyünü araşdırmaq məqsədilə siniflər xüsusi seçimlə deyil, təbii yolla komplektləşdirildi. Belə ki, dərs ili ərəfəsində Elitar Giyanaziyaya (41 nömrəli məktəbə) sənəd vermiş, lakin yaşları çatmadığından rədd cavabı almış uşaqlar yenidən dəvət olundular. 59 nömrəli körpələr evi - uşaq bağçasında isə eksperimentə məktəbə hazırlıq qrupu cəlb edildi. Beşyaşlıların növbəti dərs ilində yenidən I sinifdə oxuyacaqları haqqında şayələri eşidən valideynlərin bir qismi övladlarını oxutmaqdan imtina etdi.

Eksperimental siniflər üçün beşyaşlıların səviyyəsinə uyğun tədris planı, proqram və dərs vəsaitləri hazırlanmasına baxmayaraq, nazirliyin göstərişi ilə həmin siniflərdə tədris prosesi altıyaşlılardan ibarət adi I siniflərin sistemi üzrə təşkil olundu. Bundan məqsəd I siniflər üçün mövcud təlim yükünün beşyaşlıların necə mənimsəyəcəklərini yoxlamaq idi.

Beşyaşlıları xeyli yükləsək də, hər halda bu, onların məktəb təliminə nə səviyyədə hazır olmalarını müəyyənləşdirməyə imkan verdi.

Müxtəlif səbəblər üzündən eksperimentin ləngidilməsi və ona ay yarım gec başlanması beşyaşlıların yükünü xeyli ağırlaşdırdı. Uşaq bağçasında yaradılan süni maneələr müəllimin normal fəaliyyətinə mane oldu. Bununla belə eksperimentin nəticələri müəyyən elmi nəticələrə gəlməyə imkan verdi...

Azərbaycan Respublikası Təhsil Nazirliyinin göstərişi ilə eksperiment bir ildən sonra saxlandı, uşaqların II sinfə keçirilməsi həm də nəticələrin izlənməsi haqqında göstəriş verildi. Nazirin əmrinə əsasən 2003-2004-cü dərs ilinin axırında aparılmış yoxlamanın nəticələri «Azərbaycan müəllimi» qəzetində dərc olundu. Nəticələr çox yaxşı idi. Bu il də institutun əməkdaşları, məktəbin müəllimləri və rəhbərləri ilə birlikdə 2004-2005-ci dərs ilinin yekunlarını yoxladılar. Bütün siniflərdə eyni yoxlama imla, riyaziyyatdan eyni yoxlama işi aparıldı.

Doğma təhsil müəssisəsindən, ilk müəllimlərindən ayrılıb, 14 təhsil müəssisəsinə səpələnmiş uşaqların nə qədər sıxıntı keçirmələrinə baxmayaraq, ana dili və riyaziyyat üzrə yazılı işlərin nəticələri yenə də sevindirici olmuşdur. Alınan nəticələri nəzərdən keçirək:

*13 nömrəli məktəb*

| | | |
|---|---|---|
| Nəsirov Fəqan – | imla «5» | riyaziyyat «5» |
| Ağayev Qənbər | imla «4» | riyaziyyat «4» |

*20 nömrəli məktəb*

| | | |
|---|---|---|
| Mehrabov Oruc | imla «5» | riyaziyyat «5» |

| | | |
|---|---|---|
| | ***23 nömrəli məktəb*** | |
| Əliyev Aydın | imla «5» | riyaziyyat «5» |
| Əhmədova Aytac | imla «5» | riyaziyyat «5» |
| Xasiyeva Fidan | imla «4» | riyaziyyat «5» |
| | ***29 nömrəli məktəb*** | |
| Kərimova Sitarə | imla «5» | riyaziyyat «5» |
| | ***41 nömrəli məktəb*** | |
| Hacıyev Kənan | imla «5» | riyaziyyat «5» |
| Xələfov Allahverdi | imla «5» | riyaziyyat «5» |
| Məmmədov Əli | imla «5» | riyaziyyat «4» |
| | ***74 nömrəli məktəb*** | |
| Mahmudova Pəri | imla «5» | riyaziyyat «5» |
| | ***129 nömrəli məktəb*** | |
| Sofiyeva Firəngiz | imla «5» | riyaziyyat «5» |
| | ***173 nömrəli məktəb*** | |
| Mirzəyeva Günel | imla «5» | riyaziyyat «5» |
| | ***229 nömrəli məktəb*** | |
| Salahov Sahib | imla «5» | riyaziyyat «4» |
| İsrafilov Ayxan | imla «5» | riyaziyyat «5» |
| Süleymanov Əjdər | imla «5» | riyaziyyat «5» |
| Süleymanova Aysel | imla «5» | riyaziyyat «5» |
| Qədirzadə Məmmədşah | imla «5» | riyaziyyat «4» |
| Bayramova Nigar | imla «4» | riyaziyyat «4» |
| | ***238 nömrəli məktəb*** | |
| Məmmədov Növfəl | imla «4» | riyaziyyat «4» |
| Abdullayev Böyükkişi | imla «5» | riyaziyyat «5» |
| | ***224 nömrəli məktəb*** | |
| Yaqubbəyli Fərid | imla «5» | riyaziyyat «4» |

Validyenlər uşaqlardan üçünü təlim rus dilində olan I sinfə qoymuşlar:

| | | |
|---|---|---|
| | ***23 nömrəli məktəb*** | |
| Səlimov İsmayıl | imla «4» | riyaziyyat «4» |
| | ***160 nömrəli məktəb*** | |
| Quluzadə Ömər | imla «5» | riyaziyyat «4» |
| | ***238 nömrəli məktəb*** | |
| Abdulkərimova Nərgiz | imla «4» | riyaziyyat «5» |

Yuniszadə Nurcahan ailəsi ilə birlikdə xaricə köçmüşdür. Uşaqlardan biri təlimdə, biri isə fiziki cəhətdən geriləyir.

Uşaqlara verilən xasiyyətnamələrin əksəriyyəti onların təlim tapşırıqlarının öhdəsindən müvəffəqiyyətlə gəldiklərini, çevik, yaradıcı fəaliyyət göstərə bilən uşaqlar olduqlarını xəbər verir.

# HESAB MƏSƏLƏLƏRİNİN MÜXTƏLİF ÜSULLARLA HƏLLİ METODİKASI

**Şəbnəm Ağayarova,**
Sumqayıt Müəllimlər İnstitutunun müəllimi

İbtidai siniflərdə riyaziyyatın öyrənilməsində məsələ həlli mühüm yer tutur. Məsələ həllinə sərf olunan vaxt dərs saatının böyük hissəsini təşkil edir.

Proqramda məsələ həllinə lazımi diqqət verilmiş və bunun çox böyük əhəmiyyəti olduğu göstərilmişdir. Müəllim keçirilən materialların, şagirdlərin qabiliyyətinə və istedadına müvafiq müxtəlif məsələlər həll etdirməlidir. Bu məsələlər şagirdlərdə riyazi düşüncənin inkişaf etdirilməsinə, təsəvvür etmək, tez başa düşmək qabiliyyətlərinin inkişafına, riyaziyyat canlı və yaradıcı maraq oyadılması məqsədinə nail olmaq üçün kömək etməlidir.

Doğrudan da, hesab məsələlərini həll edərkən şagirdlər məsələnin şərtində gizli olan asılılıqları başa düşmək, məsələdə verilən və axtarılan kəmiyyətlər arasında qarşılıqlı asılılığı müəyyənləşdirmək və bununla əlaqədar müvafiq hesab əməlini seçmək vərdişlərini əldə edirlər. Bütün bu vərdişlər şagirdlərin zehni inkişafına və möhkəmlənməsinə kömək edir, aydın, sadə və ardıcıl mühakimə etmək qabiliyyətlərinin inkişaf etməsində böyük rol oynayır.

Hesab məsələsi həlli ancaq ədədlər üzərində əməlləri icra etməkdən ibarət deyildir. O, ilk növbədə məntiqi bir işdən: məsələnin tələb etdiyi mürəkkəb sualı daha sadə suallara ayırmaq, verilənlərlə axtarılanlar arasındakı əlaqəni tapmaqdan ibarətdir ki, bu da insanda mürəkkəb məsələlərdən baş çıxarmaq, onları daha sadə məsələlərə ayırmaq qabiliyyətini inkişaf etdirir. Məsələ həll etməyi bacarmadan riyazi bilikləri əməli məsələlərə tətbiq etmək qeyri – mümkündür.

Beləliklə, hesab məsələləri bir tərəfdən nəzəri bilikləri təcrübə ilə bağlayır, o biri tərəfdən də şagirdlərdə riyazi təfəkkürün, riyaziyyata olan marağın güclənməsinə, xüsusən idrak fəallığının artırılmasına xidmət edir.

Riyaziyyatın tədrisi metodikasına aid olan ədəbiyyatlarda hesab məsələlərini müxtəlif əsaslara görə növlərə bölürlər. Müəllimin bu növlərlə yaxşı tanış olması, məsələ həll etməyi öyrətmək işində onun müvəffəqiyyət əldə etməsi üçün çox lazımdır.

Hesab məsələləri onların həllindəki əməllərin sayından asılı olaraq iki növə bölünür: sadə və mürəkkəb məsələlər. Ancaq bir əməllə həll olunan məsələlərə sadə, birdən artıq əməllə həll olunan məsələlərə isə mürəkkəb məsələlər deyilir. Sadə məsələlər şagirdlərin məntiqi mühakimələrinin inkişafında ilk pillə olduğundan onlara böyük əhəmiyyət vermək lazımdır. Belə məsələlərin həllində şagirdlər bu və ya başqa bir əməlin mənasını dərk edirlər, əməllərin müxtəlif hallardakı tətbiqi ilə tanış olurlar.

Aydındır ki, çox asanlıqla həll olunan mürəkkəb məsələlər olduğu kimi, nisbətən çətinliklə həll olunan sadə məsələlər də ola bilər. Sadə hesab məsələlərinin müxtəlif üsullarla həllinə aid nümunələr:

8 almanı hərəsində 2 alma olmaqla boşqablara düzdülər. Neçə boşqab lazım oldu?

Şagirdlər bu məsələni, bölmə haqqında heç bir təsəvvürləri olmadan da həll edə bilərlər. Bunun üçün onlara 10 dairəsində saymağı bacarmaq kifayətdir. Şagirdlər əvvəlcə 2 almanı bir boşqaba, sonra 2 almanı ikinci boşqaba, daha sonra üçüncü boşqaba və nəhayət qalan 2 almanı dördüncü boşqaba qoyur, boşqabları sayıb məsələnin sualına cavab verirlər.

Məsələnin bu üsulla həllinə **təcrübi** üsul deyilir.

Şagirdlər 10 dairəsində bölməni öyrəndikdən sonra bu məsələni daha asan üsulla (**hesabi** üsulla) həll edirlər: 8 : 2 =4 (boşqab).

Məsələni həll etmək üçün **cəbri** üsuldan da istifadə etmək olar. Tutaq ki, boşqabların sayı x-dir. Onda hər boşqaba 2 alma qoyulduğundan bütün almaların sayı $2 \cdot x = 8$ tənliyini alırıq. Bu tənliyi həll etsək, $x = 8 : 2$, $x = 4$ alarıq.

Məsələnin başqa bir üsulla həlli qrafik üsuldur.



Məsələləri onların həlli üsuluna görə iki yerə bölürlər. Bunlardan biri, məxsusi həll üsulu olan məsələlərdir ki, bunlara çox vaxt tip (və ya qrup) məsələlər deyilir. Bu halda hər tipin özünəməxsus adı olur. Həlli üsullarına görə tip məsələlərin sayı çoxdur. Tip məsəllərdən başqa, bir də məntiqi xarakterli məsələlərə rast gəlirlik. Məntiqi xarakterli məsələlər riyazi təfəkkürün inkişafında və uşaqlarda riyaziyyata olan marağın artırılmasında mühüm rol oynayır. Təəssüf ki, belə məsələlərin həllinə dərslərdə çox az rast gəlinir. Elə buna görədir ki, riyaziyyat olimpiadalarında təklif olunan bu növ məsələlərin həllində şagirdlər böyük çətinlik çəkirlər.

Hesab məsələlərinin həllinin yazılış forması da müxtəlifdir. Bu formalar metodik ədəbiyyatda aşağıdakı kimi göstərilir:

1) məsələyə görə ifadə tərtib edib, onun ədədi qiymətlərinin tapılması;
2) məsələyə görə tənlik qurub onun həll edilməsi;
3) məsələ həllinin ayrı-ayrı əməllər üzrə verilməsi .

Digər qrup metodik ədəbiyyatda məsələ həllinin yazılış formaları aşağıdakı kimi göstərilir:

1) məsələ həllinin planla yazılması; plan sual cümlələri şəklində yazılır;
2) məsələ ayrı-ayrı əməllər üzrə həll edilir və onlara izahat verilir;
3) məsələnin həlli ədədi şəklində yazılır.

Mən aşağıdakı yazılış formalarının tətbiqini daha səmərəli hesab edirəm

1) məsələ həllinin planla yazılması; plan-sual cümlələri şəklində verilir;
2) məsələnin ayrı-ayrı əməllər üzrə yazılması və onlara izahat verilməsi;
3) məsələyə görə ifadə tərtib edilməsi və onun qiymətinin tapılması;
4) məsələyə görə tənlik qurulması və onun həll edilməsi.

Hesab məsələlərinin həllində planın sual cümləri şəklində verilməsi daha faydalıdır, cünki məsələdə tələb olunanlar, əsasən, sual cümləri şəklində ifadə edilir və bu da şagirdlərə daha çox tanışdır. Şagirdlər məsələnin yazılış formasını mənimsədikdən sonra onları əməllərin nəticələrinə izahatlar yazılmasının formaları ilə tanış etmək lazımdır.

Məsələ həll edildikdən sonra cavabın ifadə edilməsi və yazılması didaktik əhəmiyyətə malikdir, çünki şagirdlər məsələnin baş sualını bir daha xatırlayır, alınan ədədi onunla müqayisə edirlər. Bununla da məsələ haqqında şagirdlərdə tam təsəvvür yaranır.

İndi isə məsələ həllinin yuxarıda qeyd edilmiş yazılış formalarına aid bir nümunəyə baxaq:

«Pərvizin 90 markası var idi. O, bacısına 28 marka, dostuna isə 12 marka bağışladı. Pərvizin neçə markası qaldı?»

**1.Məsələ həllinin planla yazılması; plan-sual cümlələri şəklində verilir.**

1) Pərviz bacısına və dostuna cəmi neçə marka bağışladı?

28 + 12 =40 (marka).

2) Pərvizin neçə markası qaldı?

90 – 40 = 50 (marka).

*Cavab:* 50 marka.

**2.Məsələ həllinin ayrı-ayrı əməllər üzrə yazılması və onlara izahat verilməsi:**

1) 28 + 12 =40 (marka) – bacısına və dostuna verilən markaların sayı və ya verilən markaların sayı;

2) 90 – 40 = 50 (marka) - qalan markaların sayı.

*Cavab*: 50 marka.

**3.Məsələyə görə ifadə tərtib edilməsi və onun qiymətinin tapılması.**

90 – (28 + 12) =50 (marka)

*Cavab:* 50 marka.

Mürəkkəb hesab məsələlərinin həllinin müxtəlif yazılış forması olduğu kimi, belə məsələnin həllinin də müxtəlif üsulları var. Bu yolları əyani şəkildə təsvir etmək üçün aşağıdakı məsələni nəzərdən keçirək.

«Balıqçı 10 balıq tutdu. Onlardan 3-ü çapaq balığı, 4-ü xanı balıq, qalanları isə durna balıqları idi. Balıqçı neçə durna balığı tutmuşdur?»

Məsələni müxtəlif yollarla həll etmək olar. Bu yolların hər birinə ayrılıqda baxaq.

**Təcrübi üsul:**

Hər bir balığı dairəciklə təsvir edək. On dairəcik çəkək və onların içərisində üç çapaq balığı (ç) və dörd xanı balığı (x) işarə edək:




Bu halda məsələnin sualına cavab vermək üçün hesab əməlini yerinə yetirməyə ehtiyac yoxdur, çünki boş dairəciklər durna balıqlarının sayını göstərir (onların sayı 3- dür).

**Hesabi üsul:**

1) 3 + 4 =7 (b) – tutulan balıqlar;

2) 10 – 7 =3 (b) · durna balıqları.

Cəbri üsul:

Durna balıqlarının sayını $x$ ilə işarə edək. Onda tutulan bütün balıqların sayını ifadə şəklində aşağıdakı kimi yazmaq olar.

$3 + 4 + x$ – bütün balıqlar.

Məsələnin şərtinə görə balıqçı 10 balıq tutmuşdur. Deməli, $3 + 4 + x = 10$ tənliyini alarıq. Bu tənliyi həll etməklə məsələnin sualına cavab vermiş oluruq: $x = 3$.

qrafik üsul:

Çapaq balıqları. Xanı balıqları. Durna balıqları.



Bu üsulda da təcrübi üsulda olduğu kimi heç bir hesab əməlini yerinə yetirmədən məsələnin sualına cavab vermək olar.

Məsələni müxtəlif üsullarla həll etmək münkündürsə, onda bütün hallarda alınan nəticələr eyni olmalıdır. Bu da məsələnin düzgün həll edildiyini göstərir.

## III SİNİFDƏ OXU DƏRSLƏRİNDƏ İQTİSADİ BİLİKLƏRİN VERİLMƏSİ İMKANLARI

**Elnur İsgəndərov,**
Təhsil Problemləri İnstitutunun aspirantı

Müstəqil respublikamızın inkişaf etdirilməsi və idarə olunmasında fəal iştirak edəcək şəxsiyyətin formalaşdırılması müasir məktəbin bir nömrəli vəzifəsidir. Bu mühüm missiyanın ifaçıları hazırda ibtidai siniflərdə çalışan müəllimlərdir. Onların yetirmələri bu gün iqtisadiyyatımızın müxtəlif sahələrində çalışanları əvəz edəcəklər.

Təhsil islahatının həyata keçirildiyi şəxsiyyətyönümlü təhsil və şagirdlərin həyata hazırlanmaları daim diqqət mərkəzində durur. Təcadüfi deyildir ki, indi erkən yaşlardan uşaqlara insan hüquqları, ekologiya, iqtisadiyyat, məntiq və başqa elm sahələri üzrə biliklərin verilməsi məsləhət görülür. III sinifdə nağılların köməyi ilə vergilər üzrə sadə biliklərin şagirdlərə çatdırılması buna bariz misaldır.

İqtisadi biliklərin aşağı siniflərdən verilməsi əvvəllər də diqqəti cəlb etmiş, lakin bu sahədə iş sistemli təşkil olunmamışdır. Bu gün vəzifə belə bir sistemi yaratmaqdan ibarətdir.

Uşaqlar hələ məktəbəqədər dövrdən başlayaraq ailə şəraitində praktik yolla müəyyən iqtisadi biliklərə yiyələnirlər. Ata-ananın ailəni dolandırmaq üçün əməyi, onların övladlarına paltar, dərs ləvazimatı, oyuncaqlar almaları uşaqda maraq oyadır. Tədricən o, ailənin büdcəsi, onun necə xərclənməsi ilə maraqlanır. Sonralar ailənin iqtisadi durumunun möhkəmlənməsində iştirak edir. Beləliklə, ailə həyatında istər-istəməz valideynlər övladlarını iqtisadi məlumatlar sferasına daxil edirlər. Məktəbdə bu işə bir qədər sistemli yanaşılır, uşaqlar iqtisadi biliklərə elmi əsaslar üzrə yiyələnməyə başlayırlar.

Bu yazıda məqsədimiz III sinif üçün mövcud oxu dərsliyində şagirdlərə iqtisadı biliklərin verilməsi imkanları üzrə araşdırmalarımızın nəticələrini oxuculara çatdırmaq, onların diqqətini həmin sahəyə yönəltməkdir.

İbtidai sinif şagirdlərinə iqtisadi biliklər müxtəlif yerlərdə, müxtəlif məqamlarda verilir: dərsdə, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə, ailədə, ictimai yerlərdə. Dərsdə dedikdə, əsasən, oxu və təbiətşünaslıq dərsləri nəzərdə tutulur, lakin bu gün onun məzmunu hüquqi biliklər, iqtisadi biliklər (xüsusilə vergi haqqında dərs vəsaitindəki sadə məlumat) müvafiq materiallarla zənginləşdirilmişdir.

Bu məqalə yalnız oxu dərsliyindəki materiallara istinadən yazılmışdır. Oxu dərsliyində iqtisadi biliklərin verilmə imkanlarını belə qruplaşdırmaq olar: 1) iqtisadi biliklərin verilməsinə xidmət edən mətnlər; 2) iqtisadi biliklərin verilməsinə bilvasitə (dolayısı yolla) xidmət edən mətnlər; 3) iqtisadi biliklərin verilməsinə bilavasitə xidmət edən sual və tapşırıqlar; 4) iqtisadi biliklərin verilməsinə bilvasitə xidmət edən suallar və tapşırıqlar.

III sinifdə tədris olunan «Qənaətçillik» mətni birinci qrup mətnlərə bariz misaldır. Dərsdə yazarkən dəftərə qənaət üzərində söhbətin dairəsi genişlənir, əsl iqtisadi biliklərdən söz açılır. Tapşırığı yerinə yetirərkən hər dəfə kiçik bir səhvə yol verən şagird yeni səhifədən yazmağa başlamaqla neçə səhifəni məhv edir. Bunu görən müəllim şagirdləri başa salır ki, il ərzində hər bir şagird bircə dəftərə qənaət etsə, onun kağızı ilə kitab çap etmək olar. Bu isə meşədə nə qədər ağacın qırılmasının qarşısını alar.

Uşaqlara il boyu nə qədər kağıza şey bükdüklərini, kağızdan quş düzəldib uçurduqlarını, onu cırıb atdıqlarını, yandırdıqlarını xatırladılır.

Müəllim onları başa salır ki, evdə çörəyə, işığa, suya, qaza da qənaət etmirsiniz. Krandan gecə səhərədək kibrit çöpü yoğunluğunda su axarsa, böyük vedrə dolar. Evinizdə bütün lampalar yanarsa, nə qədər havayı enerji işlənər. Beləliklə, siz nə qədər məhsulu zay edirsiniz, nə qədər adamın əməyinə hörmət etmirsiniz.

Mətnlə əlaqədar verilmiş «Qənaətlə dolanan kasıb olmaz», «Dama-dama göl olar, dada-dada heç» atalar sözlərinin mahiyyəti açılır. Mətnə aid suallar və tapşırıqlarda *qənaətçillik* sözünə əks mənalı söz (*israfçı*) tapmaq tələb olunur, qənaətçilliyin xəsislikdən fərqi açılır.

Dərslikdəki «Qoşqar tapılmaz» şeri də iqtisadi biliklərin verilməsinə həsr olunub. Şeri oxuyarkən şagirdlər öyrənirlər ki, təbiətdə hər şey ölçülüb biçilib. Təbiət elə bil memar əli ilə qurulub. Ona görə də çox ehtiyatla davranmaq, bu memarlıq abidəsini qorumaq lazımdır. Şair geoloqlara müraciət edərək deyir ki, qızıldan, gümüşdən, dəmirdən, mərmərdən ötrü dağları fitillə uçurmaq olmaz. Uşaqlar öyrənirlər ki, mərməri tapmaq mümkündür, lakin Qoşqar itərsə, onu tapmaq olmaz.

Şerin altında «Kəlilə və Dimnə»dən verilmiş parça lap yerinə düşür: «Dağdan hey götürüb desən ki, çoxdur, bir də görərsən ki, dağ özü yoxdur». Bununla şagirdlərə başa salınır ki, təbiətdə qurtarmayan şey yoxdur. Həmişə hər yerdə qənaət etmək lazımdır ki, həyatın ritmi, təbiətin sərvətləri, gözəlliyi yox olmasın. Bu, eyni zamanda ekoloji tərbiyə, daha geniş mənada vətənpərvərlik tərbiyəsi baxımından çox faydalıdır.

III sinifdə şagirdlər «Firavan həyat yolunda» mətnini oxuyarkən onlara Ölkəmizdə keçirilən torpaq islahatı haqqında sadə, yığcam məlumat verilməlidir. Uşaqlar sahibkarlığın nə demək olduğunu, bunun əhəmiyyətini dərk etməlidirlər.

Uşaqları torpaq sahəsi alan adamların orada fəaliyyətə başlamaları üçün dövlətdən borc pulun (kreditin) alınma qaydası ilə tanış etmək lazımdır. Onlar bilməlidirlər ki, insanlar xüsusi özünəməxsus torpaq sahəsi əldə etdikdə daha həvəslə işləyirlər.

Bazar iqtisadiyyatı haqqında ilkin biliklərə yiyələnmiş uşaqlar başa düşürlər ki, əkin yerlərinin özəlləşdirilməsi nəticəsində daha çox kənd təsərrüfatı məhsulu yetişdirilir.

Ərzaq məhsulunun bir hissəsi sahibkarın ailəsi tərəfindən yeyilir, artıq qalan isə bazara çıxarılır. Bazarda malın çox olması ucuzlaşmanı təmin edir. Beləliklə, həm torpaq sahibləri, həm də əhali daha yaxşı yaşayır, firavan həyat sürür.

Hekayə oxunarkən uşaqlar fermer təsərrüfatının necə yaranması, ailənin hər bir üzvünün ümumi əməkdə iştirakı ilə tanış olurlar. Onlar öyrənirlər ki, torpaq sahəsi yalnız kənd təsərrüfatı bitkilərinin əkilib becərilməsi, mal-qaranın saxlanması üçün deyil. Orada ictimai binalar tikib xalqın xidmətinə vermək mümkündür.

Yuxarıda qeyd etdiyimiz kimi mətnlərin bir qismini oxuyarkən şagirdlər dolayı yolla iqtisadi biliklərə yiyələnirlər. Onlar ölkəmizin iri şəhərləri haqqında mətnləri oxuyarkən hər birinin sənayesi, iqtisadi durumu ilə tanış olurlar. Müəllim dərslikdəkilərdən əlavə biliklər də verməyə çalışmalıdır. Şagirdlər «Naxçıvan» mətnini oxuyarkən onun tarixi, gözəllikləri, tarixi abidələri ilə yanaşı, orada dağ-mədən, yüngül sənaye, konserv, yeyinti, ipəkçilik sənayesinin, qurğuşun, mərmərəbənzər travert məhsulları, mədən sularının əhəmiyyəti, Naxçıvanın İran və Tükiyə ilə iqtisadi əlaqələri haqqında məlumat almalıdırlar.

«Gəncə» mətninin oxunması prosesində müəllim qədim Gəncənin ticarət mərkəzlərindən biri olması, indi aliminium, çini qablar, qənnadı, yağ-pendir istehsalı ilə, cihazqayırma, maşınqayırma istehsalı ilə məşhurlaşması üzərində dayanmalıdır.

III sinif şagirdləri «Daşkəsən» mətnini oxuyarkən filizin vətəni ilə tanış olurlar. Müəllim dəmir filizinin haradan, nə şəkildə çıxarılması, onun harada əridilməsi, poladdan necə istifadə olunması ilə uşaqları tanış etməlidir.

«Qara qızıl» mətni şagirdlərə vətənimizi şöhrətləndirən neft haqqında ətraflı məlumat verir. Müəllimin vəzifəsi neftin iqtisadiyyatdakı rolu haqqında uşaqlarda tam təsəvvür yaratmaqdır. Bu məqsədlə yaxşı olar ki, müəllim uşaqlarda neftin krekinqi haqqında sadə təsəvvür yaratsın, neft kontraktları haqqında həqiqətləri onlara çatdırsın, neftdən haralarda, necə istifadə olunmasından söz açsın. Uşaqlar ölkəmizin maddi durumunun güclənməsində, iqtisadiyyatımızın inkişafında, xalqımızın rifah hâlının yaxşılaşmasında neftin əhəmiyyətini dərk etməlidirlər.

Dərslikdəki «Maye qızıl», «Meşə», «Açıq səma altında aptek» və başqa mətnlər oxunanda da şagirdlər müəyyən iqtisadi biliklərə yiyələnirlər. Mətnlərin bir çoxunda, xüsusilə əmək tərbiyəsinə həsr olunmuş mətnlərdə də iqtisadiyyatla bağlı biliklər vermək imkanı var. Müəllim onları nəzərdən qaçırmamalı, uşaqların diqqətini həmin epizodları dərk etməyə yönəltməlidir.

Şagirdlərin xalq təsərrüfatının müxtəlif sahələrində çalışan tanınmış mütəxəssislərlə görüşləri, sənaye və kənd təsərrüfatı obyektlərinə ekskursiyaları, müvafiq sərgilərdə iştirak etmələri onların iqtisadi biliklərinin artmasına güclü təsir göstərir.

İqtisadi biliklərin erkən yaşlardan verilməsi gənclərin ailə həyatına, dövlət quruculuğunda fəal iştirak etməyə hazırlanmasının mühüm vasitələrindəndir.

# TƏSVİRİ İNCƏSƏNƏT MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ

**Səadət Abbasova,**
Təhsil Problemləri İnstitutunun aspirantı

Tərbiyənin ayrılmaz hissəsi olan estetik tərbiyə yeni insanın formalaşmasında qüdrətli vasitələrdən biridir. Estetik tərbiyə elementləri bütün fənlərin tədrisi prosesində şagirdlərə aşılanır, lakin ədəbiyyat, təsviri incəsənət və musiqi fənləri bu baxımdan daha mühüm rol oynayır.

Təsviri incəsənət təliminin bir hissəsi olan dekorativ rəsm xüsusi təsir gücünə malikdir. İbtidai sinif proqramında hər sinfin qarşısında dəqiq vəzifələr qoyulur: məsələn, I sinifdə şagirlər bilikləri əsasında kvadrat, zolaq, çevrə, düz, maili və dalğalı xətlər daxilində sadə naxış kompozisiyaları qurmağı bacarmalı, canlıların siluetlərini daxil etməklə naxış qurma prosesi ilə tanış olmalıdırlar.

Göründüyü kimi, I sinifdən etibarən şagirdlərin qarşısında dekorativ rəsmdə kompozisiya probleminin həlli vəzifələrinin qoyulması tələb olunur. Əlbəttə, bu, onların yaş xüsusiyyətləri, psixoloji və fizioloji imkanları daxilində olmalıdır.

Bütün təsviri incəsənət əsərlərində, kompozisiyalarda dekorativlik olduğu kimi, eyni zamanda hər bir dekorativ sənət əsəri də, vahid kompozisiya təşkil edir. Doğrudur, bu bilavasitə professional təsviri incəsənətə aiddir, lakin məktəb rəsm kursunda da, dekorativ işlərdə kompozisiya probleminin həlli vacibdir.

Əvvələn, qeyd etmək lazımdır ki, dekorativ işi natura və mövzu üzrə rəsmlərlə düzgün əlaqələndirmək pedaqoji əhəmiyyətə malikdir. Dekorativ işlə başqa iş növləri arasındakı əlaqə qarşılıqlı başa düşülməli, bir-birindən təcrid edilməməlidir: məsələn, naturadan rəsm dərslərində verilən yarpaq, çiçək, kəpənək, böcək və s. dekorativ rəsmlərin də ünsürü olduqda naturadan rəsm dekorativ kompozisiyalar üçün zəmin yaradır, ikinci isə birincidən alınan bilik, bacarıq və vərdişləri möhkəmləndirir, onu tamamlayır.

Dekorativ işlərdə kompozisiya probleminin həlli məsələlərindən danışarkən bu anlayışın mahiyyətini də qısa şərh etmək məqsədəuyğundur. Kompozisiya istər professional təsviri incəsənətdə, istərsə də şagirdlərin təsviri yaradıcılığında iki mənada - məhdud və geniş mənalarda işlədilir. Məhdud mənada bu ifadə əsərin bədii quruluşu, strukturu, obrazların, detalların müəyyən qaydada düzülməsi deməkdir. Geniş mənada kompozisiya anlayışı isə rəssamın ifadə etmək istədiyi baxışı, ideyaları kimi başa düşülür. Dekorativ rəsm baxımından bu anlayışı şagirdlərə sadəcə olaraq şəklin və ya naxışların quruluşu kimi də aşılamaq mümkündür.

Qeyd etdik ki, kompozisiya şəklin strukturu, obrazların, detalların müəyyən qaydada yerləşməsindən ibarətdir. Bunu bir qədər geniş şərh etməyə çalışaq. Təcrübə göstərir ki, dərsləri düzgün təşkil etdikdə, şagirdlərə onların yaş səviyyələrinə münasib nəzəri məlumatlar verdikdə, hətta I sinif şagirdləri kompozisiya anlayışını onun qanunauyğunluqlarını, rəsmetmədəki əhəmiyyətini dərk edirlər. Bu dövrdən kompozisiyanın sadə qanunlarını, şagirdlərə rəsmi vərəqin mərkəzində düzgün yerləşdirmək, naxışın hissələrini və naxış elementlərini simmetrik çəkmək və s. şəklində aşılamaq lazımdır. Sonralar şagirdlərə nədən və necə başlamaq, naxış ünsürlərinin sayını çoxaltmaqla kompozisiyanı mürəkkəbləşdirmək, naxış ünsürlərinin forma və rəng

əlamətlərini düzgün təqdim etmək üçün həm nəzəri məlumatlar, həm də bacarıq və vərdişlər verilir.

Kompozisiya probleminin həlli baxımından dekorativ işlər digər rəsmetmə növləri ilə, həmçinin əmək təlimi məşğələləri ilə əlaqələndirilməlidir. Deyək ki, I sinifdə naturadan kvadrat şəkilli, yaxud, dairəvi cisim rəsm etdirilərkən naxışlar da kvadrat və ya çevrə daxilində verilməlidir. Bundan əlavə, dekorativ işi naturadan çəkilmiş rəsmin üzərində də yerinə yetirmək mümkündür.

Tutuq ki, I sinifdə naturadan pəncərə şəkli təsvir etdirilir. Burada şagirdlər şəklin düzgün çəkilməsi vərdişini qazanırlar. Bu iş aşağıdakı qaydada yerinə yetirilir (şəkil 1)



Şəkil 1.

Bundan sonra həmin mövzu üzərində dekorativ işləmələr aparmaq olar (şəkil 2). Dekorativ işləmələrdən sonra şagirdlər qazandıqları bilik, bacarıq və vərdişləri mövzu üzrə kompozisiyalarda birləşdirirlər.

Dekorativ kompozisiyaları əmək təlimi məşğələləri ilə əlaqələndirərkən əmək təlimi məşğələlərində qazanılmış bilik, bacarıq və vərdişlərdən, hazırlanmış materiallardan istifadə edilir.



Şəkil 2.

Bu həm şagirdlərin işini yüngülləşdirir, həm də maraqlı edir: məsələn, əgər I sinifdə şagirdlər əmək təlimi məşğələlərində rəngli kağızlardan müxtəlif ölçülü kvadrat və üçbucaqlar kəsirlərsə, onlardan çox gözəl naxış düzəltmək olar.

Dekorativ tərtibat işində naxış ünsürlərinin sayını artırmaq üçün hər ölçüdə kvadratlardan və ya üçbucaqlardan bir neçə dənə hazırlamaq lazımdır.



Şəkil 3 a



Şəkil 3 b

Bu məqsədlə apardığımız bir dərsə nəzər salaq. Bakıdakı 7 nömrəli məktəbin I a sinfində əmək təlimi məşğələlərində bir saat müddətində göy, qırmızı və sarı kağızlardan 4 ölçüdə 3 dəst kvadrat kəsdirdik. Növbəti təsviri incəsənət dərsində «Düzbucaqlı daxilində kvadratlardan ibarət naxış» mövzusu keçildi. Müəllim şagirdlərin kəsdikləri kvadratları paylayıb, mövzu haqqında məlumat verdi. Kvadratları necə yapışdırmaq lazım olduğunu göstərdi. Hazırladığımız əyani vəsaiti nümayiş etdirdi.

Əyani vəsaiti nümayiş etdirdikdən sonra müəllim şagirdlərə rəsm dəftərində hazırladıqları böyük kvadratların ölçüsünə uyğun düzbucaqlı çəkməyi tapşırdı (Üç kvadrat üçün). Kvadratları yapışdırma texnikası ilə şagirdləri bir daha tanış etdi, sonra onlar sərbəst işə başladılar.

Dərs şagirdlər üçün çox maraqlı və əyləncəli oldu. Rəsmlərin təhlili göstərdi ki, dərsdə iştirak etmiş 32 nəfər şagirdin hamısı mövzunu işləmiş yalnız 1 nəfər düzgün yerinə yetirə bilməmişdir.

Belə mövzunun asan yerinə yetirilməsinin əsas səbəblərindən biri hazır rəngli kağızlardan istifadə edilməsidir, lakin bunun bir mənfi cəhəti var ki, şagirdlər rəng işləri üzərində düşünmürlər. Onların diqqəti, əsasən, başqa texniki işlərə yönəlir.

Dekorativ kompozisiyaları naturadan təsvir edilmiş cisimlər üzərində qurmaq da maraqlıdır. Belə kompozisiyalarda əsas diqqət verilən detalın şagirdlərin yaş səviyyəsinə uyğun olmasına, həmçinin dekorativ işin daha qabarıq verilməsinə yönəldilməlidir: məsələn II sinifdə «Güldanda gül» mövzusunda dekorativ rəsm verərkən şəkli aşağıdakı kimi təsvir etmək olar. Belə dekorativ kompozisiyalar III sinifdə verilərkən cisimlər həcmli şəkildə təsvir edilməlidir. Bu dövrdə artıq şagirdlər cisimləri perespektiv qanunlara əsasən həcmli şəkildə təsvir edirlər. Bu, öz əksini dekorativ işlərdə də tapmalıdır. III sinifdə dekorativ rəsmə verilən vaxt azaldılır, lakin bu, dekorativ işlərin mövzusuna mənfi təsir etmir, əksinə III sinifdə dekorativ rəsm daha geniş məzmuna və əhəmiyyətə malik olur.

III sinfin naturadan rəsm məşğələlərində natürmortun təsviri geniş yer tutur ki, bu iş növünü də dekorativlikdən ayrı düşünmək olmaz. İstər məişət-ev əşyalarından, istərsə də bitki nümunələrindən ibarət natürmortu təsvir edərkən onun üzərində eyni zamanda dekorativ işləmələr aparmaq mümkündür. Bu halda dekorativ işləmələr natürmort təsvir edildikdən sonra verilməlidir. Dərsin məqsədi həm natürmortun rəng işini tamamlamaq, həm də dekorativ tərtibat vermək olur ki, bu da məşğələləri bir-biri ilə əlaqələndirir.

İbtidai siniflərin mövzu üzrə təsviri incəsənət məşğələlərində kompozisiya probleminin həlli məsələləri daha geniş qoyulduğu üçün dekorativ işlər belə kompozisiyalarla sıx əlaqələndirilməlidir. Həm dekorativ işlərdə mövzu üzrə rəsmin ünsürləri verilməli, həm də qazanılmış bacarıq və vərdişlər mövzu üzrə kompozisiyalarda tətbiq edilməlidir.

İbtidai siniflərin proqramı dekorativ rəsm məşğələlərində, əsasən, bitki və heyvanat aləminin nümunələrindən ibarət naxışlar tərtib etməyi qarşıya qoyur. Mövzu üzrə kompozisiyaların tərkibində də əsasən belə ünsürlər iştirak etdiyindən bunların əlaqələndirilməsi hər ikisinin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün baza yaradır. Bitki, həşərat və heyvan təsvirlərindən ibarət naxışlar ibtidai təlimin bütün dövrlərində verilir, lakin şagirdlərin inkişaf xüsusiyyətlərindən asılı olaraq naxışlar öz mürəkkəbliyi və diqiqliyi ilə fərqlənir.

Təsviri incəsənət məşğələlərinin digər növləri kimi, dekorativ kompozisiyaların qurulmasında da əyaniliyin böyük rolu var. Rəsmetmədə əyanilik iki mənada başa düşülməlidir. Birincisi hazır əyani vəsaitdir ki, buraya rəssamlıq əsərləri, reproduksiyalar, dekorativ tətbiqi sənət nümunələri, həmçinin texniki vasitələrin köməyi ilə nümayiş etdirilən dinamik və statik metodik işlər daxildir. İkinci əyanilik isə müəllimin yazı taxtasında göstərdiyi pedaqoji-metodik rəsmdir. Şagirdlərin dərsdə müvəffəqiyyət

qazanmalarında belə rəsmlərin rolu böyükdür. Belə rəsmlərin üstün cəhəti ondan ibarətdir ki, o bir növ müəllimin izahını tamamlayır.

Dekorativ rəsmlərin işlənilməsində kağızdan naxış kəsib istifadə etmək də maraqlıdır. Bunun üçün əmək təlimi dərslərində kağızdan naxış kəsilir. Dekorativ rəsm dərslərində isə həmin naxış rəsm dəftərinə köçürülür və rənglənir. Belə naxışlar öz rəngarəngliyi və gözəlliyi ilə cəlbedici olur. Naxışı kəsmək üçün kağız bir mərkəzdən 2,3,4,5 və s. dəfə bərabər ölçüdə qatlanır və onun üzərində qayçı ilə naxış kəsilir. Naxışların gözəlliyi və sadəliyi onun kəsilməsindən asılıdır. Naxış kəsildikdən sonra kağız açılır və qatın sayı qədər ünsürləri olan naxış alınır.

Dekorativ işlərdə şagirdlərin əmək və rəsmetmədə qazandıqları bilik,bacarıq və vərdişləri əlaqələndirib, ümumiləşdirmək hər iki fənnin müvəffəqiyyətlə tədrisi üçün böyük əhəmiyyətə malikdir.

## *«FİQURUN SAHƏSİNİN HESABLANMASI» MÖVZUSUNUN* TƏDRİSİNDƏ ƏYANİLİKDƏN İSTİFADƏ

**Leyla Əhmədova,**
Təhsil Problemləri İnstitutunun dissertantı

Bizi üçölçülü fəza əhatə edir. Çox zaman insana gündəlik fəaliyyətində onu əhatə edən obyektlərin quruluşunu, xarici görünüşünü təsəvvür etmək zəruridir. Bir çox ixtisaslar insandan fəza çevrilmələrini fikrən dərk etmək üçün müəyyən bilik tələb edir. Elə buna görə də, təhsilin qarşısında duran vəzifələrdən biri fəzanın dərk edilməsində nisbətən mürəkkəb olan təfəkkürün formalaşdırılması məsələsidir. «Obyektin fəza xaraktersitikası forma, kəmiyyət, onu təşkil edən elementlərin qarşılıqlı vəziyyəti- fəzanın təfəkkür vahidinin əsas aparıcı obrazıdır». Obrazlarla təhliletmə həndəsi fəzanın dərk olunmasındakı işin əsasını təşkil edir. Fəza təsəvvürlərinin yaradılması sisteminin inkişafında əsas vasitələrdən biri – əyani materialdır. Bu yaş psixologiyasının xüsusiyyətləri ilə əlaqədardır. Kiçikyaşlı məktəblilərdə əyani-obrazlı təfəkkür yaranır, bu, tam mənasında qavrayışa xidmət edir. Əşyanın qavranılması toxunma ilə, görmə, genetik (hərəkət, əl ilə toxunma vasitəsilə yoxlama, çevirmə və s.) toxunma əsasında baş verir. Həndəsi dərketmə, açıq toxunma, görmə və genetik qavrama ilə məhdudlaşan fəaliyyət əsasında inkişaf edir. Beləliklə, şagirdlərin təsəvvüretmə və qavrama fəaliyyətinə əsaslanan əyanilik prinsipinin həyata keçirilməsi ön plana keçir.

Şagirdlərin əvvəlki təsəvvürləri, keçmiş təcrübələrinə əsaslanaraq fəallaşır. Şagirdlər onları əhatə edən aləmlə tanışlıq prosesində müəyyən biliklər mənimsəyirlər. Bu prosesdə–fəza təsəvvürlərindən istifadə etməklə, onun təhlilini aparmaqla biliklər qazanılır. Bu zaman şagirdlər fəzanı dərk edir, onu qavrayır, bu sahədəki biliklərini zənginləşdirirlər.

Şagirdlərin təcrübəsi biliklərlə birləşdirilərək anlayış formalaşır. Təhlil apararkən müxtəlif həndəsi fiqurlar, məsafə, uzaqda yerləşən, üçölçülü və s. haqqında biliklər əldə edirlər.

Şagirdlərin qavrayışına istinad edən əyaniliyin həyata keçirilməsində əyani vasitələrin rolu böyükdür. İ.S.Yakimanskaya əyaniliyin ən çox istifadə olunan aşağıdakı növlərini göstərir:

1. Natural əyanilik, əşyaların modeli (real əşyalar, daşlar, həndəsi cisimlər, müxtəlif obyektlərin maketi, perspektiv təsvirlər, fotoqrafiyalar);
2. Şərti qrafik təsvirlər (çertyojlar və s.)
3. İşarə modelləri ( =, <, > və s)

Natural (əşyavi) modellər və perspektiv təsvirlər real aləmin sadə əvəzləyicisidir, həm də cisimlərin oxşarlığı saxlanılır. Bu modellərin natural xarakteri – real obyektlərin əsasında yaradılır, bu da müşahidə üçün tam kifayətdir. Bu obrazlar detalla zəngindir, onlarda məzmun əhatə olunmuşdur.

Natural modellər şagirdlərdə öyrənilən obyektlərin konkret obrazları haqqında elmi anlayışların formalaşdırılmasında dayaq rolu oynayır. Bu həmçinin şagirdlərin fikri fəaliyyətinin fəallaşması vasitəsidir ki, (inteqrativ dərsin motivləşdirilməsində də istifadə oluna bilər) onun köməyi ilə öyrənilən obyektlərin elə xassələrini ayırmaq olar ki, onu sözlə ifadə etmək olmur. Bunlar qavramanın elə emosional formasını yaradır ki, onsuz bilik aydın olmur, tam mənimsənilmir.

Şərti qrafik təsvirlərdən istifadə, ancaq əyani təsvir etmək deyil, əşyanın quruluş xüsusiyyətlərini, təsvirlərin verilməsini qısaldır. Çertyojlar, hadisə və obyektlərin əlamət və xassələrini açmağa kömək edir.

N.R.Linkovoy, İ.O.Qalkinoy, N.R.Sakulinanın psixoloji tədqiqatlarında qeyd olunur ki, məktəbəqədər və kiçikyaşlı məktəblilər çertyojun təsvirinin üç üsulla verilməsini asan mənimsəyirlər. Bu zaman obyektin araşdırılan üç müxtəlif nöqtədən görmə (qabaqdaq, yuxarıdan, yan tərəfdən) uşaqların təcrübədə, oyun zamanı, təsviretmə, konstruksiyaetmə fəaliyyətinin yaradılmasana xidmət edir.

Müxtəlif ifadə tərzləri mümkün olan izahdan, anlayışın şərh edilməsindən, öyrənilən hadisə və proseslərin qrafik modellərindən (diaqramlar, qrafiklər, nomoqramlar) həmçinin riyazi ifadələrin (tənliyin düsturu), simvolik işarələrdən də geniş istifadə olunur.

Sahə anlayışının mənimsənilməsinə həsr olunmuş dərsə hazırlıq məqsədilə, IV sinifdə şagirdlərin fiqurların sahəsində və düzbucaqlı fiqurların sahələrini müqayisə etməyi, onları bölündüyü çərçivələrə (dama) görə saymağa aid hazırlıq işi apardım. Dərsdə şagirdlərin praktik fəaliyyəti ilə sıx bağlı olan əyani materialdan istifadə etdim.



Bunun üçün, eyniölçülü kiçik kvadratlar götürdüm. Bölünmüş kvadratın təsvirini göstərərək şagirdlər qarşısında belə bir sual qoydum:

– Ən kiçik sahəsi olan kvadrat hansıdır?
– Ən böyük kvadrat hansıdır?

Əvvəlcə uşaqların cavabları müxtəlif oldu, lakin iş prosesində müxtəlif fərziyələr irəli sürməklə fikrin düzgün olmasına gəlib çıxmaq olar: kvadratı təşkil edən bir kiçik çərçivə ən kiçik kvadrat, kiçik çərçivələrdən təşkil ölünmüş böyük kvadrat ən böyük sahəyə malikdir.

Belə əyaniliyə istinad edərək yaradılan problemli situasiya şagirdlərə axtarıcılıq fəaliyyəti aşılayır. Bu motivə əsaslanaraq uşaqlarda sahə haqqında təsəvvürlərin formalaşdırılmasına kömək məqsədilə yazı taxtasında axtarıcılıq fəaliyyəti aşılayan sual yazdım: bu fiqurlardan hansının (qapı və pəncərə) sahəsinin böyük, hansının kiçik olduğunu necə müəyyən etmək olar?

Bundan sonra verilmiş suala çavab tapmaq üçün qruplar üzrə tədqiqatçılıq işi təşkil etdim. Qruplara müxtəlif tapşırıqlar verdim. Bu tapşırıqlara şagirdləri düşündürən və müstəqil olaraq lazımi nəticəyə gəlməyə sövq edən yeni informasiyalar və faktlar daxil edildi.



pəncərə qapı

I qrupa fiqurların sahələrinin müqayisə etmək, onların sahəsinin bərabər olub-olmadığını müəyyən etmək tapşırıldı.



II qrup isə müşahidə əsasında həndəsi fiqurları təhlil etməklə «artıq» fiquru axtarmalı idi.



III qrupa biri digərindən sahəsinə görə fərqlənən fiquru tapmaq tapşırığı verildi.



IV qrupa tapşırıldı ki, fiqurları elə birləşdirsinlər ki, kvadrat alınsın və hansı fiqurun sahəsinin böyük və kiçik olduğunu müəyyən etsinlər.

Hər bir qrupun tədqiqatçılıq işi nəticəsində əldə etdikləri yeni fakt və informasiyalar dinlənildi. İnformasiyaların mübadiləsi əsasında müzakirə aparıldı və nəticə çıxarıldı, ümumiləşdirildi: Qapı və pəncərənin



sahəsini müqayisə etmək olarmı?
Hansı üsulla?

Dərsin bu üsulla qurulması şagirdlərin fəza təsəvvürlərinin inkişafına imkan yaradan əyani materialın tətbiqidir. Buradan şagirdlər belə bir nəticəyə gəlirlər ki, düzbucaqlının sahəsini müqayisə etmək üçün eyni ölçülü çərçivələri saymaq lazımdır.

«Fiqurların sahəsi» mövzusunu öyrənərək praktik fəaliyyət nəticəsində şagirdlər fiqurların sadə çevrilməsi ilə tanış olurlar. Bu mövzunun möhkəmləndirilməsinə həsr olunmuş dərslərin birində üçbucaq şəklində olan fiqurların sahəsini hesablamağı öyrətmək olar. Burada üçbucağı düzbucaqlıya çevirməklə (1) düzbucaqlı üçbucağın sahəsinin hesablanmasını göstərmək olar. Bunun üçün hündürlüyü yarıya bölüb, onun ortasından oturacağa paralel xətt çəkmək lazımdır. İnanmaq olar ki, 1-ci və 2-ci üçbucağın sahəsi bərabərdir. Beləliklə, uşaqlar «üçbucağın sahəsi düzbucaqlının sahəsinə bərabərdir (2) nəticəsinə gəlirlər.

Sonra tapşırığı bir qədər mürəkkəbləşdirmək olar. Şagirdlərə «Müəyyən üçbucağın sahəsini hesablayın» tarşırığı vermək olar. Şagirdlərin cavablarını dinlədikdən sonra aşağıdakı praktik işi təklif etmək mümkündür: C təpəsindən hündürlüyü çəkin onu yarıya bölün və həmin xəttin ortasından üçbucağın oturacağına paralel olan düz xətt çəkin 1-ci və 2-ci sahələri müqayisə edin.

Eləcə də 3-cü və 4-cü üçbucaqları müqayisə edin.




Uşaqlar $S_{1\Delta} = S_{2\Delta}$, $S_{3\Delta} = S_{4\Delta}$ olduğunu tapırlar.

Beləliklə, uşaqlar ABDE düzbucaqlısının sahəsini hesablamaqla, avtomatik olaraq ACE üçbucağının da sahəsini hesablayırlar.




Belə gözlənilməyən açıqlama uşaqları sevindirir və onlarda həndəsəyə həvəs və marağı artırır, həmçinin onlarda fəza təsəvvürlərini inkişaf etdirir.

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL, TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA VARİSLİK

**Xalidə Məmmədova,**
Təhsil Problemləri İnstitutunun elmi işçisi

Uşaq bağçasının qarşısında duran vəzifələrdən biri də uşaqların məktəbdə müvəffəqiyyətlə təlim almağa hazırlanmasıdır. Hər iki vəzifənin həllində uşaq bağçası ilə məktəbin apardığı əlbir iş mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan bağça ilə məktəbin arasında gedən əlaqəli iş vahid məqsəd daşımalıdır. Hər iki həlqədə (uşaq bağçası, məktəb) tərbiyə-təlim işində istifadə olunan forma və metodlardan biri digərini tamamlamalı, uşağın harmonik inkişafına xidmət etməlidir. Belə bir inkişaf dövründən, digər inkişaf dövrünə keçərkən təlim-tərbiyə prosesi elə qurulmalıdır ki, bu həlqələr arasında gedən inkişaf surətini azaltmadan davam etsin. Bu o deməkdir ki, uşaq bağçasında uşağın əldə etdiyi bilik, bacarıq və vərdişlərlə məktəbdə qazanılan bilik, bacarıq və vərdişlər arasında varislik pozulmadan ardcıllıqla davam etdirilib təkmilləşdirilsin.

Uşaq bağçası ilə məktəblər arasında varisliyin formaları:

- uşaq bağçasında məşğələlərə, məktəbdə dərslərə əlaqəli baxış keçirmək;
- bayram və səhərciklərdə birgə iştirak etmək;
- məktəbə hazırlıq qrupu tərbiyəçisinin məktəbə gedən uşaqları müşahidə etməsi (necə oxuyurlar, dərs vəsaitlərini necə saxlayırlar, özlərini necə aparırlar və s.);
- bağça və məktəbin birlikdə konfrans keçirmələri;
- uşaqların əl işlərindən ibarət sərginin təşkili;
- tərbiyəçinin I sinif şadirdlərinin yekun müvəffəqiyyətinin nəticələri haqqında pedaqoji müşavirədə iştirakı;
- şagirdlərin uşaq bağçası üçün oyuncaq hazırlamaları;
- valideynlər və müəllimlər arasında əlaqə yaratmaq məqsədilə valideynlər iclasının keçirilməsi və s.

Bu formalar bağçanın və məktəbin illik iş planında öz əksini tapmalı, dərs ili müddətində həyata keçirilməsi nəzərdə tutulmalıdır.

Əsası uşaq bağçasında qoyulan kollektivçilik, yaşlılara, ailəyə, yoldaşlarına hörmət və məhəbbət, vətənpərvərlik, təbiəti sevmək və onun gözəlliyindən zövq almaq, sevinmək, bədii hisslərin inkişafı tərbiyəsi üzrə iş məktəbdə davam etdirilməlidir. Yuxarıda sadalanan keyfiyyətlər məzmun etibarilə tədricən mürəkkəbləşdirilib bütövlükdə təlim-tərbiyə prosesində həyata keçirilməlidir. Belə sistemlə aparılan işin əhəmiyyəti böyükdür.

Uşağın məktəbə hazırlanması üzrə iş hərtərəfli aparılmalı, nitq inkişafı, müşahidəçilik, müqayisə etmək, nəticə çıxarmaq və s., ətraf aləmlə tanışlıq (təbiət hadisləri və ictimai hadisələr), fiziki, əqli əmək tərbiyəsi və iradi keyfiyyətlərin tərbiyəsi sahəsində ardıcıl iş aparılmalı, eyni zamanda uşaq psixoloji cəhətdən məktəbə tam hazır olmalıdır. Bunları nəzərə almadan uşağı məktəbə qəbul etmək, onu kortəbii axına buraxmaq deməkdir. Bu isə təlim prosesində uşağın zəiflər qrupuna keçməsilə nəticələnir. Belə bir

şəraitdə ən yüngül təlim tapşırığını fərdin inkişafına müvafiq uyğunlaşdırmadıqda onda öz qüvvəsinə inamsızlıq yaradır. Bəzi təcrübəsiz müəllimlərin və valideynlərin hər hansı təkidi, tələbkarlığı uşağı çıxılmaz vəziyyətdə qoyur, əsəbləşdirir, xəstələndirir. Belə ciddi tələbkarlıq uşaq valideyn – uşaq – müəllim arasındakı münasibətə mənfi təsir göstərir. Ona görə də valideynlər, tərbiyəçilər uşağın fiziki və psixoloji inkişafını öyrənməli, məktəb yetkinliyi dövründə inkişafın normal gedib-getmədiyini müəyyənləşdirməlidir. Habelə, uşağın məktəbə şəxsi hazırlığına xüsusi diqqət yetirilməlidir. Tərbiyəçi məktəbin qaydalarına, dərsin vəzifələrinə, davranış normalarına, dərs ləvazimatının saxlanılmasına, müəllim və yoldaşlarına münasibətə dair söhbətlər aparmalı, məktəbdə oxumaq həvəsi oyatmalıdır. Bəzən tərbiyəçi uşağın məktəbə olan münasibətini öyrənmək üçün suallar verir. «Sən niyə məktəbə getmək istəyirsən?» - «Məktəbdə oxumaq, hər şeyi öyrənmək, biliklərə yiyələnmək istəyirəm». Digər uşaq təsviri fəaliyyətə olan marağını açıqlayır, başqa bir uşaq deyir ki, məktəbdə heyvanlar haqqında hər şeyi öyrədirlər (heyvanlar harada yaşayır, nə ilə qidalanır, faydası nədir və s.).

Uşaqların cavabları göstərir ki, məktəbi yeni biliklərin öyrədilməsi üçün əsas vasitə sayırlar.

Bu barədə valideynlərlə də müntəzəm iş aparılmalı bağça – məktəb – valideyn münasibətləri formalaşdırılmalıdır. Bu baxımdan D.B.Elkonin yazırdı ki, «Uşağın məktəb təliminə psixoloji hazırlığını texniki bacarıq (oxumaq, yazmaq) deyil, məhz sosial yetkinliyi müəyynləşdirir».

Psixoloq Z.A.Venger uşağın məktəbə hazırlığının dörd cəhətini əsas götürür: məktəbdə oxumağın motivləri, iradi hazırlıq, əqli hazırlıq və əxlaqi hazırlıq. Müəllifin fikrincə, bu keyfiyyətlər bütün hallarda eyni götürülə bilməz. Cəmiyyətin inkişafı, elmi-tərəqqinin təsiri altında və onların məktəb və uşaq bağçalarının qarşısına qoyduğu vəzifələrdən asılı olaraq həmin keyfiyyətlərin təşəkkülünə, məzmununa tələb də dəyişir.

Bağçada uşağın idrak fəaliyyətinin inkişaf səviyyəsi əsas rol oynayır: müqayisə, ümumiləşdirmə, tapşırığı yerinə yetirmək, özünənəzarət və s. ilkin bacarıqlar yaranır. Uşağın iradi hazırlığı onun məktəbə psixoloji hazırlığının əsas komponentlərindəndir.

Uşağın əqli hazırlığı dedikdə öyrəndiyi hadisələri sistematik müşahidə etməsi, bilik, bacarıq və vərdişlərə şüurlu yiyələnməsi; hafizə, qavrayış və təfəkkürün müvafiq səviyyəsinə yiyələnməsi başa düşülür.

Uşağın məktəbə hazırlanmasında aşağıdakı motivləri xarakterizə etmək yerinə düşərdi:

- sosial motiv təhsilin zəruriliyini, ictimai əhəmiyyətinin və onun sosial əsaslarını başa düşmək. (Mən məktəbə getmək istəyirəm, ona görə ki, hamı oxumalıdır);
- tədris-idrak prosesi yeni biliklərə maraq oyatmaq, yeni bir şey öyrənmək;
- qiymətləndirmə böyüklər tərəfindən yüksək qiymət almağa, təriflənməyə can atmaq. (Məktəbə getmək istəyirəm ona görə ki, məktəbdə «beş» qiymət alacağam);
- mövqe nöqteyi nəzərdən (Mən məktəbə getmək istəyirəm çünki bağçada uşaqlar kiçik, məktəbdə isə böyükdürlər, mənə dəftər, qələm, çanta alarlar).
- zahirən (Məktəbə getmək istəyirəm, ona görə ki, anam belə deyir).
- oyun motivi (Məktəbə getmək istəyirəm, orada dostlarımla oynaya bilərəm).

Uşaq bağçasının məktəblə birgə apardığı iş formalarının düzgün təşkili və onların həyata keçirilməsi nəticəsində hər iki müəssisə arasında varislik əlaqələri möhkəmlənir, səmərəli olur.

Şəxsiyyətin formalaşması üzrə uşaq bağçasının məktəblə apardığı əlbir iş bu gün vacib məsələdir. Onun daha da təkmilləşdirilməsi təxirəsalınmaz vəzifədir.

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, uşaq bağçası və məktəb məzmun və formasına görə ikitərəfli prosesdir. Bağça illərində qazanılmış bilik, bacarıq və vərdişlər məktəb illəri üçün təməl olur. Bunlar ibtidai siniflərdə təkmilləşir, yeni məzmun və mahiyyət kəsb edir.

## UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ PSİXOLOJİ HAZIRLIĞI

**Arzu Məmmədova,**
Gəncə Dövlət Universitetinin psixologiya
kafedrasının müəllimi

Məktəbə hazırlıq dedikdə, ilk növbədə uşağın məktəb təliminə psixoloji hazırlığının formalaşması nəzərdə tutulur. Bu sahədə uzun illər aparılmış axtarışlar nəticəsində səmərəli təkliflər irəli sürülmüşdür. Onlara istinadən məktəbə psixoloji hazırlığın məzmunu müasir məktəbin məktəbəqədər yaşlı uşaqlar qarşısında qoyduğu tələblər sistemi ilə müəyyənləşir. Bu tələblərə müvafiq olaraq, məktəb təliminə psixoloji hazırlıq anlayışına bir sıra əqli, iradi və əxlaqi keyfiyyətlərlə yanaşı, yeni fəaliyyət növünün müvafiq motivasiyasının təşəkkülü də aiddir.

Uşaqların məktəbə psixoloji hazırlığı ilə məşhur rus psixoloqu A.N.Leontyev daha ətraflı məşğul olmuşdur. O, belə hesab edirdi ki, uşağın öz hərəkətlərini götür-qoy edə bilməsi, müəyyən işi planlı şəkildə görməsi əsas məsələdir. Sonralar psixoloqların tədqiqatlarında uşaqların əqli inkişafı onların məktəbə hazırlıqlarının əsas tərəfi kimi diqqət mərkəzində durmuşdur. Bəzi psixoloqlar isə məlumatlılıq, yeniliklərlə tanışlıq və oxumaq bacarığının kompleks şəkildə yaradılmasını məktəbə hazırlığın əsas elementləri hesab etmişlər.

Tədqiqatların müxtəlifliyinə baxmayaraq, uşaqların məktəbə psixoloji hazırlığı məsələsində vahid fikir, konkret meyar mövcud deyil. Nəyin bu sahədə həlledici amil olduğu mübahisəlidir.

Məktəbəqədər yaş dövrü uşağın psixi inkişafının mühüm bir mərhələsi olmaqla onun şəxsiyyətinin formalaşmasında da vacib mərhələlərdən biri hesab edilir. Uşağın məktəb təliminə hazırlanması psixologiyanın problemləri içərisində çox mühüm yer tutur.

Uşaqların məktəb təliminə psixoloji hazırlığı anlayışını dəqiqləşdirmək üçün ilk növbədə hazırlıq işinə başlanma vaxtı müəyyənləşdirilməlidir. Bəzi psixoloqlar belə hesab edirlər ki, məktəbə hazırlıq işinə altı yaşdan deyil, daha erkən yaşdan başlamaq məsləhət görülür. Digər psixoloqlar isə qeyd edirlər ki, bu sahədə daha fəal və sistemli iş böyük yaş qrupunda başlanmalıdır. Altı yaşlı uşaq keçid dövrünə qədəm qoyur. Bu dövrdə uşağın həyat tərzi, fəaliyyət növü, münasibətlər sistemi dəyişir, onun şəxsiyyəti, sosial mövqeyi və psixi inkişafında da bir sıra keyfiyyət dəyişiklikləri təzahür edir. Bu vaxt uşağın məktəbə hazırlanmasında psixoloji amillər ön plana çəkilir. Uşağın məktəbə hazır olması üçün onun yeni sosial mövqeyi, məktəblinin vəzifə və hüquqlarını qəbul etməyə hazır olması da vacibdir. Uşağın məktəbə psixoloji hazırlığı ilk

növbədə onun özünü dərk etməsi, ətraf aləmə, həyata, özünün gələcəyinə yeni nəzərlə baxa bilməsindən asılıdır.

Uşaqların məktəbə psixoloji hazırlığında əsas rolu ailə və məktəbəqədər tərbiyə müəssisələri oynayır. I sinifdə şagirdlərin müvəffəqiyyəti onların bağçada məktəb təliminə necə hazırlanmalarından asılıdır. Valideynlər, xüsusilə bağça tərbiyəçiləri uşağı məktəbə hərtərəfli hazırlamalıdırlar. Hərtərəfli hazırlıq dedikdə fiziki, əxlaqi, əqli hazırlıqla yanaşı, həm də onun psixoloji hazırlığı, yəni diqqətli, iradəli olmaq, müstəqil düşünmə bacarığı nəzərdə tutulur.

I sinfə ailədən və bağçadan gələn uşaqların hazırlıq səviyyələrində də xeyli fərq olur. Bağçalarda proqram tələbləri eyni olsa da, tərbiyəçilər həmin tələbləri müxtəlif səviyyədə yerinə yetirirlər. Nəticədə uşaqların hazırlıq səviyyəsi müxtəlif olur. Bağça işçiləri I siniflə sıx əlaqə saxlamalı, I sinifdə ayrı-ayrı fənlər üzrə dərsləri diqqətlə müşahidə etməli, təlimin uşağa verdiyi tələbləri öyrənilməlidilər.

Uşaqların məktəbə psixoloji hazırlığı yalnız bağçada deyil, ailədə də aparılmalıdır. Valideyn uşağın məktəbə hazırlanmasına ciddi fikir verməlidir. Adətən, valideynlərin bir qismi uşağın məktəbə hazırlığını onun çox söz və şeir bilməsi, saya bilməsi, yazıb-oxumağı bacarması ilə müəyyən edirlər. Halbuki uşağın çoxlu şeir, nağıl bilməsi heç də onun yaxşı inkişaf etməsindən xəbər vermir. Valideynlərin əksəriyyəti uşağın məktəbə hazırlanmasına bir il qalmış başlayır, onun əqli inkişafını təkcə kitab oxumaqda, məktəb haqqında danışmaqda görür. Bir çox ailələr bu dövrdə uşağa bəzi hərfləri yazmağı, oxumağı öyrədirlər. Əlbəttə, bu müsbət haldır, lakin valideynlərin əksəriyyəti öz uşaqlarını məktəbə hazırlayarkən keçmiş yollardan istifadə edirlər. Belə valideynlər nəinki öz uşaqlarını məktəbə hazırlamır, üstəlik I sinif müəllimlərinin işini çətinləşdirmiş olurlar. Uşaqlarda imkanların çox olmasına baxmayaraq, onların inkişafını vaxtından əvvəl qabaqlamaq, oxumağı və yazmağı öyrətmək məsləhət görülmür.

Valideynlər, hər şeydən əvvəl, uşaqların sağlamlığının qayğısına qalmalıdırlar. Atalar yaxşı deyib: «Sağlam bədəndə sağlam ruh olar». Fiziki cəhətdən möhkəm uşaq inkişafdan qalmır. Uşağın sağlamlığının əsası gün rejiminin düzgün təşkil olunmasıdır. Gün rejiminə əməl olunması uşaqların psixi inkişafına, sağlam böyümələrinə imkan yaratmaqla, vaxta qənaət etmək, həyati davranışlarda dəqiq olmaq imkanı yaradır.

Valideynlər, əsasən, məktəb yaşına kimi uşağın fiziki və əqli inkişafının, təfəkkürünün, təsəvvürünün qayğısına qalmalı, müşahidəçilik bacarığını inkişaf etdirməli, böyüklərə, qocalara, qadınlara, əlillərə, hörmət etmək hissi aşılamalı, onları oxumağa həvəsləndirməlidir. Bunun üçün ata-ana uşağa eyni dərəcədə tələbkarlıqla yanaşmalıdır.

Uşaq başqa cəhətdən də məktəbə kamil hazırlanmalıdır. Burada idrak maraqları nəzərdə tutulur. I sinifdə kifayət qədər bilik və vərdişlərə malik olmayan uşaqlar deyil, zehni cəhətcə qeyri-fəal, düşünmək, müstəqil mühakimə yürütmək bacarığına malik olmayan, intellektual səviyyəsi aşağı olan, ciddi məsələləri həll etmək arzusu və vərdişinə yiyələnməyən uşaqlar çətinlik çəkirlər.

İntellektual hazırlığın ölçüsü uşağın proqram materiallarını necə mənimsəməsi ilə müəyyən edilir. Beləliklə, intellektual hazırlıq bir tərəfdən uşağın ətraf aləm haqqında məlumata yiyələnməsi, digər tərəfdən onun psixikasının inkişafı ilə bağlıdır. Məktəbəqədər yaşlı uşaq, əsasən, oyun və əməli fəaliyyət prosesində yaşlılarla ünsiyyət prosesində ətraf aləmi dərk edir.

Məktəbəqədər yaş dövrünün son ilində uşağın həyat tərzi, fəaliyyət növü, münasibətlər sistemi, ona verilən tələb və tapşırıqlar dəyişir, qarşılıqlı ünsiyyət onun inkişafı üçün zəmin yaradır. Məktəbə hazırlıq kollektivdə işləməyə hazırlıq olduğundan hər bir uşağı kollektivdə yaxşı, mehriban və həssas yoldaş olmağa hazırlamaq lazımdır.

I sinifdə uşaqların müvəffəqiyyətlə oxumalarına verilən tələblərdən biri iradəli olmaqdır. Başlanan işi yarımçıq qoymaq, çətinlikdən hər vəchlə qaçmaq, yüngül məşğuliyyət axtarmaq kimi iradə qüsurları I sinif şagirdlərinin çoxunda müşahidə edilir. Bu cür qüsurlar uşağın təlimdə geriləməsinə zəmin yaradır. Uşaq şüurlu surətdə nəinki öz davranışını idarə edərək dərsdə intizamlı olmağı bacarmalı, eyni zamanda idrak fəaliyyətini, diqqətini, hafizəsini, təfəkkürünü idarə etməyi, dinləməyi, yadda saxlamağı, müəllim tərəfindən verilmiş məsələnin həllinə nail olmağı bacarmalıdır.

Deməli, uşaq fiziki cəhətdən sağlam böyümüşsə, təlimə psixoloji cəhətdən hazırlanmışsa, xarici aləm haqqında onun təsəvvürləri genişdirsə, onda müşahidə aparmaq bacarığı inkişaf etmişsə, müstəqil fikirləşməyə meyillidirsə, oxumağa həvəsi varsa, başqasını dinləməyi bacarırsa məktəbə psixoloji cəhətdən hazırdır.

## OYUNCAQLARA VERİLƏN GİGİYENİK TƏLƏBLƏR

**Nəzakət Novruzova,**
Təhsil Problemləri İnstitutunun böyük elmi işçisi

Ətraf aləmi dərk etməkdə mühüm vəsaitələrdən biri də oyuncaqlardır. Oyuncaq uşaq üçün cəlbedici və eyni zamanda öyrədici aləmdir. Fiziki və əqli inkişafda, mənəvi və estetik tərbiyədə oyuncaqların mühüm rolu var. Onlar uşaqları qəribə və gözəl fantaziyalara, sehirli bir aləmə aparır. Oyuncaq uşaqlarda hərəki fəallığı, texniki yaradıcılıq marağını inkişaf etdirir, bədii zövq tərbiyə edir.

Son illər pedaqoq, rəssam, konstruktor, istehsalçı və həkimlər tərəfindən oyuncaqlara böyük diqqət yetirilir. Belə ki, oyuncaqlar uşaqların fiziki və əqli imkanlarına cavab verməli, onların yaşına, cinsinə, temperamentinə uyğunlaşmalı, həm də təhlükəsizlik, gigiyenik şərtlər gözlənməlidir.

Oyuncaqların istehsalı və satışı üzərində dövlət - sanitar nəzarəti vardır. Bircə mənfi göstərici olduqda oyuncaq qənaətbəxş sayılmır və onun istehsalı dayandırılır.

Oyuncaqlara verilən sanitar-gigiyenik tələblərə oyuncaqların materialları, konstruksiyası, qablaşdırılması, saxlanması və s. daxildir. Bu zaman bütün tələblər uşaqların yaş qruplarına uyğun olaraq müəyyənləşdirilir. İstər valideynlərin, istərsə də tədris-tərbiyə müəssisələrinin işçilərinin oyuncaqları düzgün seçmələri üçün onların qabının üstündə uşağın yaşı, baş verə biləcək təhlükə haqqında yazı olur: məsələn, oyuncaq kağız ilanlarda göstəriş belədir: «Diqqət, elektrik cihazlarına yaxınlaşdırmayın».

Oyuncaqların istehsalında elə xammal və materiallardan istifadəyə icazə verilir ki, onlar mühiti çirkləndirməsin. Tullantılardan oyuncaq istehsalı qadağan edilir. Xəz, yun, dəri və s. kimi yuyulmayan təbii materiallardan yalnız nəm dezinfeksiyadan sonra istifadə olunur.

Bədbəxt hadisələrin qarşısını almaq məqsədilə bəzi oyuncaqların istehsalında sellüloiddən, üstü xəzli materiallardan istifadə etmək qadağan olunur, çünki onlar oda yaxın olduqda alışır və üzərində alov saniyədə 500 mm sürətlə yayılır.

Oyuncaq rahat, təhlükəsiz olmalıdır. Onların səthi hamar, düz, mıxlar, şruplar isə daxildə olmalıdır. Metal, ağac və ya digər bərk materiallardan hazırlanmış detallar oyuncaqlara elə bərkidilməlidir ki, uşaq onu aça bilməsin.

Kütləsinə görə isə oyuncaqlar uşaqların gücünə müvafiq olmalı və onların əzələlərinin inkişafına xidmət etməlidir. Oyuncaqların və detallarının maksimum kütləsi (böyükhəcmli və ya mexanikləşdirilmiş oyuncaqlar müstəsna olmaqla) 7 yaşa qədər olan uşaqlar üçün 400 q, 7 yaşdan 10 yaşa qədər olan uşaqlar üçün 800 q-dan artıq olmamalıdır.

Oyuncaqlar tərəfindən çıxarılan səsin dərəcəsinə tələblər qoyulur. Belə ki, bütün oyuncaqlar üçün səsin səviyyəsi oyuncaqdan 50 sm məsafədə 65 dba-dan artıq olmamalıdır. Açıq havada oynanılması nəzərdə tutulmuş oyuncaqlar üçün bu rəqəm oyuncaqdan 50 sm məsafədə 75 dba-dan olmalıdır.

7 yaşa qədər olan uşaqlar üçün oyuncaqlarda mikroelektrik hərəkətvericilərinin gərginliyi 12 v-dan, 7 yaşdan yuxarı uşaqlar üçün isə 18v-dan yuxarı olmamalıdır. Cərəyana qoşulmuş oyuncaqların qidalanma gərginliyi 12v həddində olmalı və oyuncaqdan kənarda qoyulmuş transformatordan verilməlidir.

Optik və stolüstü oyuncaqlar böyük diqqət tələb edir. Bunlara olan gigiyenik tələblər uşaqlarda uzağı görməyin profilaktikasına yönəldilmiş normativ sənədlərin hesabına müəyyənləşdirilir. Optik oyuncaqlarda gözlə baxılan əşya arasında minimum məsafə 250 mm olmalıdır. Filmoskopun okulyarı dördqat və daha böyük olmalıdır. Gözü işıqdan qorumaq üçün filmoskoplarda gözdən 15 mm – dən az və 30 mm-dən çox olmayan məsafədə yerləşən xüsusi tutqun lövhə nəzərdə tutulur.

Binokollar düz paralel şüşələrə, mərkəzləri arasındakı məsafə 50-dən 64 mm qədər olan stereoskopa malik olmalıdır.

Kalidoskopda istifadə olunan şüşələr və plastmas parçaları şəffaf olmalı, işıq yayan şüşənin işığı buraxma sabiti 0,5 olmalıdır.

Optik oyuncaqların obyektlərinin opravalarını düzəltmək üçün polisterol, yuxarı və aşağı təzyiqli polietilen və ya digər materiallardan istifadə edilməlidir. Bu cür məmulatların sanitar-epidemioloji xidmət orqanları və müəssisələri tərəfindən hazırlanmasına icazə verilib.

Zədələnmələrin qarşısını almaq məqsədilə «Tüfəng», «Pistolet», «Nizə» və s. oyuncaqlarda nişanlanan əşya kimi iti əşyalardan, partlayıcı maddələrdən və s. istifadə etmək qadağan olunur. Nişanlayıcı kimi istifadə olunanların ucları yumşaq rezin və ya diametri 20 mm-dən az olmayan xüsusi boru ilə qorunur. Oxların diametri 20 mm-dən az olmayan maqnit dairə ilə hazırlanmasına icazə verilir. Soyuq silahı (xəncər, bıçaq və s.) xatırladan oyuncaqların ucu iti və kəsici olmamalıdır.

Uşaqlar, xüsusilə kiçikyaşlılar əllərinə keçən hər bir şeyi ağızlarına apardıqları üçün oyuncaqların hazırlanmasında əsas şərtlərdən biri onların üst rənglərinin möhkəmliyidir. Oyuncaqları 3 dəqiqə müddətində isti suda sabunla ($60^0$ S temperaturda) yuduqda xarici görünüşü dəyişməməlidir.

Uşaqların dodaqları toxunan nəfəsli-musiqi oyuncaqlarının detalları rütubəti çəkməyən, asan dezinfeksiya olunan materiallardan hazırlanmalıdır. Tüklü oyuncaq-

lara qulluğun mürəkkəb olduğunu nəzərə alaraq onlardan ancaq şəxsi istifadə üçün və ya uşaq müəssisələrində didaktik vəsait kimi istifadə etmək olar.

Hər yaş qrupunun özünün oyuncaq, konstruktor dəsti olmalıdır. Oyuncaqları xüsusi ayrılmış yerlərdə saxlamaq lazımdır. Onları uşaqların istifadəsinə verməzdən 15 dəqiqə əvvəl 37⁰ S temperatur suda sabunla yumaq və qurutmaq olar. İstifadə olunan oyuncaqları kiçik qruplarda gündə 2 dəfə, böyük qruplarda günün axırında yumaq lazımdır. Kuklaların paltarlarını çirklənmə səviyyəsindən asılı olaraq yumaq və ütüləmək məsləhətdir.

Uşaq kollektivlərinin tərbiyəçiləri və tibb işçiləri oyuncaq alarkən onun hansı yaş üçün nəzərdə tutulduğuna diqqət yetirməlidirlər. Oyuncaq, uşağın yaşı və inkişafı, həmçinin onun şəxsi meyli nəzərə alınaraq seçilməlidir. Uşağa onun fiziki və əqli bacarığına uyğun oyuncaq verilməlidir.

Uşaqların oyun prosesindəki hərəkətləri çox vaxt onları yaşlılarda müşahidə etdikləri bu və ya digər əmək prosesinin, məsələn, yemək hazırlanmasının, qab-qacaq yuyulmasının, otağın yığışdırılmasının, paltar yuyulmasının təsvirinə yönəldir. Bunlar isə uşağın yaşlıları təqlid etmək arzusunu bildirir. Uşaqlar bu arzunu oyun prosesində həyata keçirirlər, güya qab yuyur, xörək hazırlayırlar və s.

Uşağın əşyalarla fəal hərəkəti uşaqlıq dövründən yaranır və oyun xarakteri daşıyır. Praktik cəhətdən bir çox zəruri hərəkətlər həm də əşyalarla oyun prosesində formalaşır (tutma, atma, diyirləmə), lakin bu, oyunla əməyi eyniləşdirmək üçün heç bir əsas vermir. Əmək və oyun öz xarakter, məzmun, yaranma səbəblərinə görə müxtəlifdir. Əmək prosesində həmişə qarşıya məqsəd qoyulur, ona nail olmaq üçün vasitələr axtarılır, hərəkətin ardıcıllığı düşünülür, nəhayət, nəticə əldə edilir. Oyunda isə uşaqlar yaşlıların fəaliyyətini və onlar arasındakı münasibəti təsvir edirlər. Bu zaman əsil əşyaları əvəz edən müxtəlif oyuncaq əşyalardan istifadə olunur.

SES-in işçiləri oyuncaqlar hazırlanan istehsalat yerlərini, həmçinin onların saxlanması və satışı üçün nəzərdə tutulan ticarət obyektləri və ambarları həmişə nəzarət altında saxlayırlar.

Məcburi tibbi profilaktik müayinələrin aparılması təlimatlarına uyğun olaraq oyuncaqların hazırlanması və satışı ilə əlaqədar olan işçilər işə daxil olarkən və sonradan da ildə bir dəfə vərəmə görə həkim müayinəsindən keçirlər.

## UŞAQLARDA DÜZLÜK VƏ DOĞRUÇULUĞUN TƏRBİYƏ EDİLMƏSİNDƏ İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ

**Şərafət Baxışova,**
Təhsil Problemləri İnstitutunun elmi işçisi

Azərbaycan Respublikası sivil ölkələrə məxsus demokratik yolla inkişafın yeni mərhələsinə qədəm qoyur. Xalqımız öz milli-əxlaqi dəyərlərinə, soy-kökünə qayıdır. Belə bir şəraitdə təmiz əxlaqlı, bilikli və yaxşı davranışlı şəxsiyyət yetişdirmək yalnız mənəvi dəyərlərlə islam dəyərlərini vəhdətdə mənimsətmək əsasında mümkündür.

Rəsuli – Əkrəm hədislərinin birində «Mən əxlaq gözəlliklərini tamamlamaq üçün göndərilmişəm» deyir. Göründüyü kimi, islam iman, etiqad, ibadət məsələləri ilə

yanaşı, əxlaqı da ön plana çəkir və hər bir müsəlmandan gözəl əxlaq sahibi olmasını tələb edir. Biz bu tükənməz əxlaq mənbəyindən həmişə bəhrələnməli, nümunə götürməli, uşaqlarımızı da daim bu ruhda tərbiyə etməliyik.

Düzlük və doğruçuluq yüksək mənəvi keyfiyyətlərdəndir. Cəmiyyətmizdə düzlük həmişə xalqın mənafeyindən çıxış etməklə müəyyənləşdirilir. Doğruçuluq dedikdə, adamların sözü ilə işinin bir-birinə uyğun gəlməsi nəzərdə tutulur, həqiqəti təhrif etməmək, yalana və ikiüzlülüyə yer verməmək, şəxsi xeyir üçün başqasını alçatmamaq kimi mühüm keyfiyyətlər də doğruçuluğun əsasını təşkil edir.

Müasir dövrdə bu keyfiyyətləri uşaqlarda kiçik yaşlardan tərbiyə etmək vacibdir. Elə buna görə də məktəbəqədər tərbiyə müəssisələrində işləyən tərbiyəçilər bu mühüm əlamətə xüsusi fikir verir, düzlüyü və doğruçuluğu adətə çevirmək üçün islam dəyərlərindən istifadə etməyə çalışırlar.

Bütün müsəlmanların müqəddəs kitabı «Qurani-Kərim»də düzlük, doğruçuluqla əlaqədar qiymətli fikirlər çoxdur. «Qurani-Kərim»in Əhzab surəsinin 70-ci ayəsində uca Allah: «Sözünüzdə doğru olun!» buyurur. Həzrəti Məhəmməd birlik və bərabərliyin nüvəsində əsas maya olaraq doğruluğu görür:

«Doğrusözlülük yaxşılığa aparır, yaxşılıq da Cənnətə. Yalan söyləmək fənalığa, fənalıq da Cəhənnəmə aparır. İnsanın yalan söyləməsi, nəhayət, Allah nəzərində yalan deyə qeyd olunur» deyə, bildirmişdir.

Təcrübə göstərir ki, kiçikyaşlı uşaqlar iki halda yalan danışırlar. Birinci halda uşaq öz arzusu, marağı, daxili tələbi ilə əlaqədar yalan danışır, ikinci halda isə o öz fantaziyasını başqalarına çatdırmaq üçün subyektiv fikir yürüdür.

Hər iki halda tərbiyəçidən bu mənfi keyfiyyəti islah etmək üçün böyük ustalıq tələb edilir.

Binəqədi rayonu 266 nömrəli körpələr evi – uşaq bağçasının tərbiyəçisi M.Bağırova məşğələdənkənar, asudə vaxtda uşaqlara aşağıdakı məzmunda söhbət edir:

- Doğruçuluq insanın bildiyi, inandığı kimi danışmaqdır. Yalnız sözdə deyil, əməldə də doğru olmaq lazımdır. Bizim müqəddəs kitabımız «Qurani-Kərim» buyurur: «İmanında, sözündə, işində doğru olanlarla olun». Həzrəti Peyğəmbərimizdən belə bir hədis söylənmişdir: «Qəlbi doğru olmadıqca insanın imanı doğru yolda olmaz. Dili doğru olmadıqca da qəlbi doğru yolda deyildir».

Tərbiyəçi uşaqlara başa salır ki, sözü ilə hərəkətləri bir olan adama doğruçul adam deyirik. Düşündyü kimi danışmayan və ya düşündüyü kimi yaşamayan insan ikiüzlüdür.

Uşaqların düzlük və doğruçuluq tərbiyəsində izahatdan çox, hərəkəti dönə-dönə təkrar etdirmək və nümunə güclü təsir qüvvəsinə malikdir. Nəsihət, danlaq uşaq aləminə uzaq, nümunə isə çox yaxındır.

Tərbiyəçi uşaqlarla Həzrəti Məhəmmədin şəxsi nümunəsindən istifadə edərək söhbətlər aparır:

- Peyğəmbərlər də bizim kimi insanlardır. Yemək yeyərlər, gəzib dolaşarlar. Onlar da xəstələnə bilərlər, qocalarlar və nəhayət bütün insanlar kimi, onlar da ölərlər. Ancaq onları digər insanlardan ayıran son dərəcə əhəmiyyətli və çox qiymətli keyfiyyətləri vardır. Peyğəmbərlər doğruçul olurlar. Onlar heç vaxt yalan danışmırlar. Siz də, uşaqlar, çalışın, heç vaxt yalan danışmayasınız, peyğəmbərlər kimi doğru və dürüst, zəkalı və ağıllı olasınız. Bizim müqəddəs kitabımız «Qurani-Kərim»də buyurulub ki,

Peyğəmbərlər Allahın buyuruqlarını təbliğ edirlər. Onlar Allahdan qorxurlar və ondan başqa heç kimsədən qorxmazlar.

Tərbiyəçi sözünə davam edərək uşaqlara Məhəmməd Peyğəmbərin hədislərindən birini danışır.

Peyğəmbərdən soruşurlar:

- Yaxşı əxlaq nədir?

Peyğəmbər cavab verir:

- Səndən inciyən, səninlə əlaqəni kəsən adamla barışmağındır, sənə əziyyət edəni əfv etməyindir, doğru danışmağındır.

Ailədə valideynlər arasında qarşılıqlı etibar, düzlük, doğruçuluq, verilən sözə əməl etmək uşaq tərbiyəsi üçün çox zəruridir. Uşaqlar yaşlıların yalanını, qeyri-adi hərəkətlərini daha tez hiss edirlər. Bunun üçün istər valideynlər, istərsə də bağça tərbiyəçisi yüksək əxlaqi keyfiyyətlərə malik olmalı, davranışı ilə nümunə göstərməli, öz yoldaşlarının davranışlarını ədalətli qiymətləndirməlidirlər.

Düzlük tərbiyəsində tərbiyəçinin rəftarında heç bir səhvə, xüsusilə kobudluğa yol verməməsi böyük əhəmiyyətə malikdir. Əks halda tərbiyəçinin işi çətinləşər və bu uşaqların tərbiyəsinə pis təsir göstərər.

Ailədə və uşaq bağçasında uşaqları kiçik yaşdan əliəyrilikdən uzaqlaşdırmaq, tapdıqlarını sahibinə qaytarmağa səy göstərmək, ondan öz xeyrinə istifadə etməmək, zəhmətlə qazanılan pulu qiymətləndlirmək, doğru danışmaq ruhunda tərbiyə etmək mühüm şərtlərdəndir.

Dinimiz yalan danışmağı günah sayır və qadağan edir, çünki yalan hər bir adam üçün təhlükə yaradır.

Dinimiz doğruçuluğa böyük əhəmiyyət vermişdir. Sevimli Peyğəmbərimiz bir çox kəlamlarında doğru olmağı müsəlmanlara tövsiyə etmişdir: «İnsanları aldadan müsəlmanlardan deyil. Doğru sözlülük yaxşılığa aparar. Düz danışan insan Allah nəzərində yüksək məqama çatar».

Günlərin birində bir nəfər Məhəmməd Peyğəmbərdən ona yaxşı bir nəsihət verməsini xahiş etdi. Bu zaman Peyğəmbərimiz ona buyurdu:

- Allaha inandım de, sonra doğru ol. Yalançı insan heç kimi sevməz. Hətta o düz danışanda da onun doğru sözünə inanmazlar.

Məktəbəqədər təhsil müəssisələrindən fərqli olaraq ibtidai sinif şagirdləri təbii olaraq islam dəyərləri ilə daha çox, daha ətraflı tanış olurlar. Dərsliklərdə, xüsusilə oxu dərsliklərində materialların tədrisi və şagirdlərin yaşları artdıqca ailələrdə, ictimaiyyət arasında həyata keçirilən dini ayinlər, bayram və kütləvi tədbirlər şagirdlərin tədricən bu sahədə təsəvvür və məlumatlarının formalaşmasına və maraq dairələrinin genişlənməsinə zəmin yaradır.

Nəsimi rayonu İlyas Əfəndiyev adına Elitar gimnaziyanın II sinif müəllimi Q.Nurullayeva Məhəmməd Peyğəmbərin yaxşılıq haqqında kəlamlarının şagirdlərə mənimsədilməsi ilə əlaqədar islam dini, müsəlmanlıq, «Qurani-Kərim» haqqında məlumat verir.

Müəllim «Oxu» dərsliyində verilmiş «Yalançı çoban» Azərbaycan xalq nağılını şagirdlərə oxuyur və deyir:

- Yalançı, böhtançı, hiyləgər insan özünü həmişə hörmətdən salar, öz insanlıq qiymətini itirər. Belə şəxslər insanların nifrətini, Allahın isə qəzəbini qazanarlar. Sə-

daqətli, etibarlı, insaflı və doğru olanlardan isə Allah razı qalar və onlara əbədi səadət bəxş edər.

Müəllim sonra dərslikdə verilmiş kəlamlara şagirdlərin münasibətini öyrənmək məqsədilə onlarla müsahibə aparır. Müsahibənin sonunda uşaqların cavablarını ümumiləşdirərək deyir:

- İslamın insanda görmək istədiyi ən gözəl keyfiyyətlər, həmçinin insanı çəkindərməyə çalışdığı ən pis qəbahətlər bizə məlum oldu. İslam kin-küdurəti, həsədi, qəzəbi, nifrəti, qorxaqlığı, adam aldatmağı, yalançılığı, xəyanəti, oğurluğu qətiyyətlə pisləyir.

Tərbiyə işində islam dəyərlərindən istifadənin başlıca məqsədi kiçikyaşlı uşaqları müsbət əxlaqi keyfiyyətlərə yiyələndirməkdir.

Hər bir valideyn, tərbiyəçi və müəllim uşaqları ədalətlilik, düzlük və doğruçuluq ruhunda kiçik yaşlardan tərbiyə olunması qayğısına qalmaqla, onların əsl vətəndaş kimi tərbiyə edilmələri üçün səy göstərməlidir.

## «VERGİ VƏ DÖVLƏT XƏZİNƏSİ» MÖVZUSUNDA KEÇİRİLƏN TƏDBİRİN SSENARİSİ

**Esmira Ağayeva,**
Yasamal rayonu 121 nömrəli körpələr evi – uşaq bağçasının metodisti

Bu ildən III sinifdən başlayaraq şagirdlərə vergilər haqqında biliklərin sistemlə verilməsi haqqında nazirliyin göstərişi həyata keçirilir. Bəzi məktəbəqədər müəssələrdə erkən yaşlardan uşaqların vergilərlə tanış olmaları üzrə iş aparırlar. Bir nümunəni nəzərdən keçirək.

*Tərbiyəçi:*

- Uşaqlar, bilirsiniz xəzinə nədir? (yox) Xəzinənin nə olduğunu bilmək üçün nağıllar aləminə səyahət edib Piri babanın qonağı olaq.

«Karvan» musiqisi səslənir. Pərdə aramla açılır. Piri baba əlində nağıl kitabı ilə səhnədə görünür.

*Tərbiyəçi:*

– Salam, Piri baba, biz sizin yanınıza xəzinənin nə olduğunu bilmək üçün gəlmişik.

*Piri baba:*

– Salam, mənim sevimli nəvələrim. Xoş gəlmisiniz. Buyurun, əyləşin. Yaxın oturun. Bu gün mən sizə, sizin tanış olmadığınız bir nağıl danışacağam.

«Biri var idi, biri yox idi. Lap qədim zamanlarda uca dağları, sıx meşələri, bərəkətli düzənləri, gur çayları, göz yaşı kimi dumduru bulaqları olan bir ölkə vardı. Bu ölkəni Anıq şah adlı ədalətli bir hökmdar idarə edirdi. O, elə vergilər təyin etmişdi ki,onu ödəmək olmurdu.

Adamlar gecə – gündüz çalışırdılar. Həm özləri yaşayırdılar, həm də xəzinə dolurdu.

– Hə, əzizlərim, torpağının təhlükəsizliyini qorumaq üçün şah igid əsgərlərdən ibarət böyük bir ordu yaratmışdı. Orduda bacarıqlı sərkərdələr, qüvvətli pəhləvanlar vardı. Möhkəm ordusu olan ölkənin şəhərləri də möhkəm olar. Bu ölkənin adamları öz ölkəsini çox sevir, onun varlanmasına və çiçəklənməsinə öz zəhmətləri ilə nail olurlar. Anıq şahın ölkəsi varlandıqca şöhrəti də ucalırdı.

Bu ölkədə Orxan adlı bir oğlan yaşayırdı. Orxan yaşıdlarından boyca balaca, həm də zəif bir uşaq idi. Ona görə də çox zaman onu Cırtdan deyə çağırırdılar. Cırtdan balaca olsa da, diribaş və qoçaq idi. Ona görə tay - tuşları ona hörmətlə yanaşır, oyunlarında çox zaman özlərinə başçı seçirdilər.

Anıq şahın ölkəsinin qonşuluğundakı ölkədə Zaval şah hökmdar idi. Zülmkar və ədalətsiz olan Zaval şah əhalinin əlindən nə varsa, zorla alıb, xəzinəyə doldururdu, amma yenə gözləri doymurdu. Camaat zara gəlmişdi. Heç kəs işləmək istəmirdi, çünki xeyri yox idi. Onsuz da şahın zalım vergiyığanları qazandıqlarını əllərindən alırdı.

Zaval şah fikirləşirdi ki, əhalinin qazandıqlarını ələ keçirsə, həm qüdrətlənər, həm də əlacsız qalan cammat ölməmək üçün daha çox işləməyə məcbur olar.

Vəziyyət getdikcə pisləşirdi, insanların əmək haqqının hamısını vergiyığanlar zorla alırdılar. İnsanlar dilənçi kökündə yaşayırdılar. Oğurluq, talançılıq artmışdı.

Zaval şahın xəzinəsi get – gedə boşalırdı. Zaval şah İfritə və Divlə dostluq edirdi. Bir gün İfritədən xəzinənin doldurmaq üçün bir əlac istədi. İfritə dostu Divlə qonşu ölkənin, yəni Anıq şahın hökmdarlıq etdiyi ölkənin xəzinəsini oğurladılar, lakin onu Zaval şahın xəzinəsinə gətirmədilər. Onlar Anıq şahın xəzinəsini meşədə gizlətdilər.

– Hə, əzəzlərim, sizə kimdən deyim Anıq şahın xəzinədarından. Xəzinədar xəzinəni açanda onun boşaldığını görüb, tez şaha xəbər verdi.

Anıq şah xəzinənin oğurlandığını bütün ölkəyə bildirdi. Camaat böyüklü – kiçikli xəzinənin axtarışına başladı.

İndi sizə kimdən xəbər verim Cırtdandan. Uşaqlar meşəyə odun yığmağa getmək istəyirdilər. Orxan nənəsinin yanına gəlib uşaqlarla getməyə icazə istədi. Nənəsi razı oldu. Uşaqları çağırıb, hərəsinə bir yağ yaxması verdi və bir – birindən muğayət olmağı tapşırdı.

Uşaqlar şələ üçün sicim götürdülər. Yaxmacalarını yeyə – yeyə meşəyə yollandılar. Günortaya az qalmış uşaqlar meşəyə çatdılar.

Hər bir uşağın dalında şələ, Əhmədin əlində isə 1-2 çırpı vardı.

*Birinci uşaq:*

– Gəlin yorğunluğumuzu alaq. Mən çox yorulmuşam.

*İkinci uşaq:*

– Elə mən də yorulmuşam.

*Əhməd:*

– Hamıdan çox mən yorulmuşam. Özü də acmışam. Mən nəyə görə sizinlə gəldim. Evdə nənəm mənə dolma, aş, bozbaş bişirmişdi.

*Cırtdan:*

– Yaxşı gəlin dincələk.

*Birinci uşaq:*

– Gəl səninlə beşdaş oynayaq.

*İkinci uşaq:*

– Oynayaq, amma daşları haradan götürək?

*Birinci uşaq:* – Məndə var (cibindən çıxarır).

(Uşaqlar beşdaş oyununun oynamaq üçün saymaca saydılar və oynadılar).

*Birinci uşaq:*

– Cırtdan haradadır?

*İkinci uşaq:*

– Bilmirəm, gedək axtaraq.

*Əhməd:*

– Axtarın, axtarın. Mən isə baxım nə tapıram yeməyə.

*Birinci uşaq:*

– Cırtdan haradasan?
*İkinci uşaq*:
– Bayaqdan səni axtarırıq.
*Əhməd*:
– Mən də səni axtarıram.
*Cırtdan*:
– Uşaqlar, bir diqqətlə baxın nə böyük ləpirdir.
*Birinci uşaq:*
– Bu ləpir deyil, bu boyda ləpir olar?
*Əhməd*:
– Hə, deyirəm axı, burada böyük bir qoz ağacı vardı. Mən də ondan yeyirdim, İndi isə ağac yoxdur. Mən qoz istəyirəm (ağlayır).
*Birinci uşaq*:
– Bəsdir.Sən də yeməkdən başqa heç nə fikirləşmirsən!
*Cırtdan:*
– Uşaqlar, sakit olun! (əyilir ləpirləri araşdırır). Baxın bu ləpirlər böyük bir divin ayaq izləridir. Yəqin o, buradan keçib.
*İkinci uşaq*:
– Düzdür, mənim babam deyirdi ki, Zaval şahın dostu bir Div var.
*Birinci uşaq*:
– Bəlkə elə o Divdir?
*Əhməd:*
– Yox, yox elə deməyin. Mən qorxuram. Mən evə qayıtmaq istəyirəm.
*Cırtdan:*
– Sakit olun. Evə getmək gecdir. Ləpirlər təzədir. Div hardasa buralardadır. Özümüzü qorxaq göstərməyək.
*Birinci və ikinci uşaq*:
– Düzdür ! Düzdür! Biz qorxaq deyilik, güclüyük!
*Əhməd:*
– (Uşaqların arxasında gizlənir) Mən də qorxmuram. Mən də qorxuram. Div! Div! Gözlərini bərəldib divin gəldiyi tərəfə baxır).
Yekə bir div uşaqlara sarı gəlir. Uşaqlar bir az arxaya çəkilirlər.
*Cırtdan*:
– Uşaqlar, artıq gecədir. O, bizə heç nə edə bilməz. (Özünü qabağa verdi). Qorxduğunuzu bildirməyin.
*Cırtdan:*
– Axşamınız xeyir! Uşaqlar titrək səslə divlə salamlaşırlar:
– Axşamınız xeyir!
*Div* xısın – xısın gülür:
– Xoş gəlib səfa gətirmisiniz. Bəyəndiyiniz yerdə əyləşin, indi ceyran ətindən kabab verəcəyəm.
*Əhməd*:
– Aycan! Aycan! İndi kabab yeyəcəyik.
Uşaqlar onu dümsükləyərək geri çəkirlər.
*Cırtdan*:
– Çox sağ ol. Biz «ac» deyilik. Gecəyə düşmüşük. Yuxumuz gəlir. Bizə gecələmək lazımdır.
*Əhməd:*
– Mən acam axı – deyə mızıldayır.

*Div:*
– Özünüz bilin. Onda yatın. Mən də sizi qoruyum.
Div xısın – xısın gülür, üzünü kənara tutub, mən də sizi bir – bir yeyərəm, – deyir.
Uşaqlar otluqda uzanıblar. Div uşaqların yanında oturub onların yuxulamalarını gözləyir.
*Div:*
– Kim yatıb, kim oyaq? Hə, deyəsən bunlar yatdılar. Mən də gedim xəzinədən xəbər bilim.
– Div meşəyə sarı gedir. Özünü yuxuluğa vurmuş Cırtdan divin arxasınca gedir və xəzinəni görür.
*Cırtdan:*
– Axmaq div, indi bildim sirrini.
Tez qayıdığ yerində uzanır, yenə özünü yuxuluğa vurur. Div uşaqların yanına qayıdıb, onların yatıb – yatmamalarını yoxlayır.
*Div:*
– Kim yatmış kim oyaq?
O, uşaqların bərk yatdıqlarını görüb sevinir: – Yatın, yatın mən də gedim sizi bişirmək üçün çırpı yığım.
Cırtdan tez ayağa qalxıb, uşaqları oyadır:
– Uşaqlar, durun, durun. Tez olun qaçaq. Div indi gəlib bizi yeyəcək.
– Uşaqlar tez ayılıb, özlərini itirmiş halda şələlərini götürüb qaçırlar.
Div əlində bir şələ çırpı gətirir, nərildəyərək:
– Hanı bunlar? Hara getdilər mənim yemlərim .
Cırtdan dörd cəngavərlə Divə sarı gəlir. Divi tutub ağaca sarıyırlar. İki cəngavər Divi qabaqlarına salıb aparır. İkisi isə xəzinəni tapıb aparır.
– Ağılsız Div bizim ölkənin xəzinəsini gör harada gizlədib? Götürün, biz bunu şaha çatdırmalıyıq.
Cəngavərlər və Cırtdan xəzinəni sürüyərək aparırlar.
*Piri baba:*
– Hə mənim əziz nəvələrim . O gündən sonra Cırtdanın boyu da artdı. Böyüyüb güclü bir pəhləvan oldu. Ölkəsini həmişə zalım qonşulardan qoruyurdu.
Zaval şah ifritə ilə vuruşub öldü. Zaval şahın adamları isə axışıb bu gözəl ölkəyə yaşamağa gəldilər Bütün insanlar xöşbəxt yaşadılar. Siz də xöşbəxt həyata qovuşasınız. Göydən üç alma düşdü: biri mənim, biri özümün, biri də nağıl danışanın
*Tərbiyəçi:*
– Piri baba çox sağ olun. İndi biz bildik ki, xəzinə nədir. Gəlin indi öz dövlətimizin xəzinəsindən danışaq.
Dövlətimizdə insanlar işləyir, qazanc əldə edirlər və bu qazancın bir hissəsini dövlətə verirlər. Bu verilən hissəyə vergi deyirlər. Vergilər toplanır və dövlətin xəzinəsi əmələ gəlir. Uşaqlar, indi bildiniz ki, xəzinə nədir?
– Bəli.
– Uşaqlar vergi necə yaranır?
– İnsanlar işləyirlər və əmək haqqına görə dövlətə vergi verirlər.
– Düzdür, bunların toplandığı yerə nə deyirlər?
– Xəzinə .
– Uşaqlar xəzinə dövlətin möhkmələnməsinə, sərhədlərin qorunmasına və başqa yerlərə sərf olunur.
İndi gəlin bir anlığa düşünək. Əgər dövlətin xəzinəsi əlimizdə olsaydı onu necə xərcləyərdiniz?

Müxtəlif cavablar alınır:

Əsgərlərimizə xərcləyərdim.

– Deməli, dövlətimizin, sərhədlərimizin müdafiəsinə xərcləyərdin.

– Mən isə bağçamıza verərdim, istərdim ki, bağçamız təmir olunsun. Çoxlu oyuncaqlarımız olsun.

– Deməli, sən bağçamızı çox sevirsən.

– Mən qocalara verərdim.

– Mən xəzinədən məktəblər tikərdim, müəllimlərin maaşını çoxaldardım.

– Afərin, deməli, sən məktəbi, müəllimləri çox istəyirsən, onların zəhmətlərini qiymətləndirirsən, təhsilin güclənməsinə çalışırsan.

– Mən xəstəxanalara verərdim, istəyirəm hamı sağlam olsun.

– Çox yaxşı. Uşaqlar, siz hamınız xəzinəni dövlətimizin möhkəmlənməsinə xərclədiniz. Bəli, belə gözəl, qayğıkeş, ağıllı övladları olan vətən ancaq Azərbaycan ola bilər! Xəzinəsi düzgün xərclənən,xalqın yaşayışı firavan olar!

*İkinci tərbiyəçi:*

– Mən görürüm ki, uşaqlarımız çox ağıllıdırlar. Sizə sirli bir söz gətirmişəm. Yazı taxtasında tablo asır.

– Uşaqlar, tablodakı bayraqların arxasındakı bu söz hamınınz üçün əziz və qürur duyduğumuz bir sözdür.

Gəlin bu sözdə əvvəlcə saitləri tapaq. Azərbaycan əlifbasında neçə sait var? (doqquz)

– Düzdür, birinci hansıdır? (A)

– Bu sözdə «a» saiti var, özü də 3 dənə. Sonra? (O)

– Düzdür, «o» saitdir, amma bu sözdə yoxdur. Sonra? (Ə)

– Düzdür, «ə» saiti var.

Bu yolla bütün saitlər deyilir.

– Hə, uşaqlar, bütün saitləri dediniz və bu sözdə saitləri açdıq. İndi isə samitləri tapmaq üçün sizə tapmacalar deyəcəyəm və hər açmanın baş hərfi bu sözün samitidir.

Nədəndir ay nədəndir,
Nərmə nazik bədəndir.
Plov üstə məskəni,
Görən rəngi nədəndir? (*Zəfəran*).

Balacayam sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam. (*Buğda*).

Bir il əkərlər, yeddi il biçərlər (*Yonca*).

Nə dili var, nə ağzı,
Nə tarı var, nə sazı.
Hər yerdən xəbər verir
Səslənir xoş avazı. (*Radio*).

Yumru, yumru sarıdı,
Yumru gözü darıdı.
Gəzir bizim bağçada
Üç həftənin barıdı. (*Cücə*

Aldım bir dənə
Açdım min dənə (*Nar*)

Tablodakı bütün hərflər açıldıqdan sonra ikinci tərbiyəçi uşaqlara müraciət edir.

– Söz açıldı. Bu *Azərbaycan* sözüdür. Mən sizə bir sual da vermək istəyirəm.

– Siz oxumağı bacarırsınız? (Bəli)

– Onda gəlin bu sözü hecalarla oxuyaq. *(A– zər– bay–can)*

– Hə, uşaqlar mən görürəm ki, siz doğrudan da məktəbə hazırlıqlı və Azərbaycana layiq uşaqlarsınız. Çox sağ olun! İndi gəlin hamımıza doğma, əziz olan bu sözü bir daha oxuyaq. *A–zər–bay–can.*

Bundan sonra uşaqlar «Qurban olum Azərbaycan» mahnısını ifa edirlər. Hamı rəqs edə-edə zaldan çıxır.

# ALTIYAŞLILARIN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**İsa Məmmədov,**
psixologiya elmləri namizədi

Dünyaya göz açan kimi ətraf mühitə uyğunlaşan heyvan balasından fərqli olaraq yeni doğulmuş insan köməksiz və müdafiəsiz olur. O, danışmağı öyrənməzdən əvvəl uzun həyat yolu keçir. Bu yol, hər şeydən əvvəl, ana ilə, ətrafdakı yaxınları ilə əlaqədar olur. Uşağın inkişaf prosesinin öz məntiqi və qanunauyğunluqları var. Bu, hər bir yaş qrupuna xas olan xüsusiyyətlərdə özünü büruzə verir. Tədricən uşağın hərəkətlərinin həcmi, koordinasiyası, daxili orqanların fəaliyyəti dəyişir, sinir sistemi inkişaf edir, psixi fəaliyyəti təkmilləşir.

İnkişaf müxtəlif faktorların təsiri ilə səciyyələnən tam bir prosesdir. Ona təsir göstərən faktorların meydana çıxarılması üçün «pasport yaşı» parametrlərinə diqqət yetirmək kifayət deyil. Bu məsələ «psixoloji yaş» xüsusiyyətlərinin öyrənilməsinə və məhz bu əsasda uşağın məktəbə hazırlıq səviyyəsinin aydınlaşdırılması üçün psixoloji meyarlar cəhətdən yanaşmağı tələb edir. Məktəbə hazırlıq meyarlarının aşkar edilməsində uşağın fiziki inkişaf göstəricilərinin müəyyən qədər köməyi var, çünki, məktəb təhsili və onunla əlaqədar yüklər uşaqdan davamlılıq və müəyyən fiziki normalar tələb edir. Uşağın məktəbə hazırlıq səviyyəsini müəyyən etmək məqsədilə psixoloqlar tərəfindən çoxlu metodlar hazırlanmışdır. Bu metodlar ayrı-ayrı funksiyaların, yaddaş, nitq, təfəkkür və s. inkişaf səviyyəsini aşkar etməyə imkan verir. Belə metodlardan istifadə edərkən, nəzərə almaq lazımdır ki, psixoloji yaş dövrü ayrı- ayrı psixi funksiyaların xüsusiyyətlərini deyil, psixi inkişafın ümumi səviyyəsini əks etdirir. Aşkar olunmuşdur ki, son keyfiyyət funksiyalararsı əlaqələrdə olan dəyişikliklərlə bağlıdır.

**Əsas (aparıcı) fəaliyyət haqqında.** Müasir psixologiyada «fəaliyyət» anlayışı əsas yer tutur. Uşaq fəaliyyət prosesində və ünsiyyətdə bir şəxsiyyət kimi formalaşır. Uşaq fəaliyyəti dinamik və genişdir. Fəaliyyətin hər bir növündə bir-birindən fərqlənən bacarıq və vərdişlər formalaşır. Əsas fəaliyyət inkişafın əvvəlki proseslərinə yekun vurur, digər tərəfdən isə onun gedişində uşağın yeni yaş mərhələsinə keçidi üçün əlverişli zəmin yaradır.

Psixi inkişafın hər bir yaş mərhələsi ona məxsus aparıcı qüvvə ilə xarakterizə olunur. D.B.Elkonin qeyd edirdi ki, yaş mərhələsi üçün xarakterik olan inkişaf tendensiyaları və onların vasitəsilə uşağın həqiqətə münasibəti aparıcı fəaliyyətdə tam əksini tapır.

İnsan, adətən, daim ünsiyyətdə olur, məhz ünsiyyət prosesində o, özünü büruzə verir və bir şəxsiyyət kimi təsdiqləyir. Həyat tez-tez ağır sınaqlar yaradaraq, uşaqları bu və ya digər dərəcədə böyüklərlə vacib olan ünsiyyətdən uzaqlaşdırır. Onlar üçün yaxın adamlarla vacib ünsiyyətin mümkünsüzlüyü kədərli olur, bəzən hətta faciələrlə nəticələnir. Təsadüfi deyildi ki, uşaq evlərində tərbiyə alan uşaqlar öz yaşıdlarından fiziki və psixi inkişafda xeyli geridə qalırlar. Bu uşaq kontingenti arasında daha çox ölüm halları müşahidə olunur. Körpəyə, bir qayda olaraq, böyüklərlə, hər şeydən əvvəl, anası ilə ünsiyyətdə, xüsusilə emosianal ünsiyyətdə olmaq vacibdir. Körpə ilə ünsiyyətdə olan adamlar nəinki onun hisslərinin təkamülündə, eləcə də qabiliyyətlərinin inkişafında vacib rol oynayır.

**İnkişaf mərhələləri.** Məlumdur ki, uşağın psixi inkişafı düz yolla getmir və bir qayda olaraq müxtəlif paradokslarla xarakterizə olunur. Onlar inkişafın böhran vaxtında aydın görünür. Həkimlər böhranı xəstəliyin ən kəskin mərhələsi hesab edirlər. Tibbi böhranla psixoloji böhran arasında oxşarlıq nədədir? Onlar necə dərk edilir? Psixoloji böhran da tibbi böhran kimi ağır simptomlarla müşayiət olunur. Böhrandan sonra, adətən, nisbi sakitlik dövrü gəlir.

Psixoloji böhran xəstəliyin deyil, daha çox sağlamlığın böhranıdır. Bu, qanunauyğun haldır. Onun əmələ gəlməsi psixi inkişafın patoloji deyil, tam normal gedişindən xəbər verir. Böhranlar bir yaş dövrünü digərindən ayırır, eyni zamanda onlar arasında əlaqə zənciri yaradır. Demək olar ki, böhran öz-özlüyündə inkişafın yeni fazasına keçid mexanizmilə əlaqədardır. Bu baxımdan uşağın məktəbə psixiloji hazırlığı bilavasitə onun əsas fəaliyyətinin dəyişilməsi səviyyəsi ilə səciyyələnir.

**Yeddi yaşın böhranı.** Yeddi yaşlı uşaqların davranışı və münasibətlərində yaşa uyğun xüsusiyyətlər özünü göstərir. Üz cizgiləri dəyişir, əzələ qüvvəsi artır, bədən möhkəmlənir, hərəkətlər təkmilləşir, mərkəzi sinir sisteminin rolu artır. Məhz bu yaşda qalxanvari vəzin fəaliyyəti fəallaşır. Yeddiyaşlıların tez-tez dəyişilən əhvalı məhz bu proseslərlə tam əlaqədardır. Yeddiyaşlıların davranış və münasibətlərində əmələ gələn bütün xüsusiyyətləri yalnız endokrin dəyişikliklərlə izah etmək mümkün deyil. İlk baxışdan yeddiyaşlıların davranışında özünəməxsus xüsusiyyət və nyuansların müşahidə olunması qəribə görünmür: uşaq tez-tez ərköyünləşir, əsassız səbəbdən küskünlüyünü bildirir, tərslik edir, göz yaşları tökür. Bu simptomlar təsadüfi deyil. Uşaq şüurlu surətdə hər hansı bir rola girir, daxilən tez-tez vəziyyətə uyğun olmayan mövqe tutur və özünü ona uyğun aparır. Uşağın davranışında qeyri-sabitlik və qeyri-təbiilik, emosiyaların məntiqsizliyi və əhvalının səbəbsiz dəyişilməsi bu zəmində baş verir. Bütün bu mənasız hallar vaxt keçdikcə yox olur, bəs nə qalır? Mövcud vəziyyətin iradəsilə hərəkət etmək qabiliyyəti, bu və ya digər mövqelərin sərbəstliyi.

Yeddiyaşlıların əqli fəaliyyətində hansı xüsusiyyətlər özünü biruzə verir? A.B.Zaparojets məktəbəqədər yaşlı uşaqların təfəkkürünü xarakterizə edərək bildirir ki, uşaq başı üzərində asılı bir mexaniki əşyaya sahib olmağa can atır; adətən, bütün məktəbəqədər yaşlı uşaqlar məsələni sadə yolla həll etməyə çalışırlar; körpələr əşyanı götürmək üçün atılmağa başlayır, onu dartır, hər cür yolla ona sahib olmağa çalışırlar. Məktəbəqədər dövrün sonunda uşağın davranışında artıq əsas yeri iradi hərəkətlər tutmağa başlayır.

Bu mərhələdə məktəbə psixoloji hazırlıq məqsədilə uşaqlarda ali psixi funksiyaların – sərbəst yaddaşın, təfəkkürün inkişafı, nitqin təzahürü üçün əlverişli şəraitin yaradılması vacibdir. Bu, onların məktəbə psixoloji hazırlığında mühüm rol oynayır.

Uşaqlarda məktəb təhsilinə münasibətin və marağın formalaşması onların məktəbə hazırlığının əsas göstəricilərindən sayılır. Əgər uşaq yeni tələblərə asanlıqla qoşulmağı bacarır, inkişaf edib möhkəmlənirsə, deməli o, psixoloji cəhətdən məktəbə hazırdır. Təcrübə göstərir ki, uşaqların böyük bir qismi məktəb təhsilinə psixoloji cəhətdən hazır olmur. Beləəri ilk dərslərdən müxtəlif çətinliklərlə rastlaşırlar. Psixoloji tədqiqatlar bu çətinlikləri 3 qrupa bölməyə imkan verir:

a) birinci qrup çətinliklər müəllimin rol və mövqeyinin uşaqlar tərəfindən başa düşülməməsi ilə əlaqədardır. Müəllim yalnız böyük, bəzilərinin düşündükləri kimi təngəgətirici qəyyum, uşaq azadlığını sıxışdıran diktator deyil, həm də uşaqlarla ünsiyyətdə maraqlı biliklər aşılayan şəxsdir. Əgər uşaqlar müəllimə yalnız ciddi qanun nəzarətçisi kimi yanaşarlarsa, onun tələblərini düzgün başa düşməzlər, onlarda kortəbii reaksiyalar oyanar.

b) ikinci qrup çətinliklər fəaliyyətin kollektiv şəraitdə baş verməsi ilə əlaqədardır. Müəllim sinifdə şagirdlərlə gərgin münasibət şəraitində iş aparır, lakin uşaqların bir qismi bü münasibətə hazır olmur. Elə uşaqlar var ki, yalnız müəllimin ona müraciətindən sonra işə qoşulurlar. Onlar çox vaxt müəllimin izahını, sinifdəkilərin cavabını eşitmirlər. Adətən, belə fikri dağınıq uşaqların valideynləri ev tapşırıqlarının müəllim tərəfindən izah edilmədən verilməsindən şikayətlənirlər. Müəllimlər də öz növbəsində, belə şagirdlərdən narazılığını bildirir, tez-tez onlara geridə qalan tənbəl uşaq kimi baxırlar. Məktəb psixoloqunun işə qarışması, psixoloji müayinəsi və korreksiyası nəticəsində belə uşaqlar kifayət qədər yüksək göstəricilər nümayiş etdirirlər.

c) üçüncü qrup çətinliklər valideynlərin məktəbə münasibətilə şərtləşir. Uşaq təhsildə geri qalır, müəllim şikayətlənir. Valideynlər isə bu situasiyanı birmənalı qarşılayaraq, «məktəb pisdir», «müəllim kobuddur», «riyaziyyat fənni maraqsızdır» nəticəsinə gəlirlər. Bunu görən şagirdlər valideyn mövqeyini asanlıqla qəbul edərək, müəllimə, məktəbə ədavətlə yanaşırlar.

**Məktəbə hazırlığın göstəriciləri.** Məktəb həyatına və təhsilə uşaqların hazırlığı müxtəlif cür izah edilir. Bu hazırlıq çox vaxt uşağın bilik, bacarıq və vərdişlərinin səviyyəsi ilə eyniləşir. Təəssüf ki, müəllimlər özləri də uşağın məktəbə hazırlığını bu cür başa düşürlər. Şübhəsiz, bilik və vərdişlərin əhəmiyyəti böyükdür, lakin məktəbdə müvəffəqiyyətlə təhsil almaq üçün tək bu «yükün» olması kifayət deyildir.

Parta arxasında oturan əksər birincilər oxumaq arzusundarırlar. Onlar həvəs və sevinclə məktəb forması geyinirlər. Təzə çanta, təzə əlifba, dəftər, qələm - bütün bunlar uşaqlar üçün romantik dünyadır. Bu sirli, cazibəli dünyaya daxil olan uşaq ona layiq olmağa çalışır. Bu ilhamlı marağı hərtərəfli qorumaq, saxlamaq və inkişaf etdirmək vacibdir. Belə ki, bilik yanğısı, oxumaq arzusu məktəbə psixoloji hazırlığın tərkib hissəsi olsa da, yenə də biliyə cəlb edilmə prosesində və vərdişlərin mənimsənilməsində aşkara çıxan çətinlikləri inkar etmir və aradan qaldırmır. Məktəbə psixoloji hazırlıq geniş anlayış, kompleks problemdir. Müasir məktəb bilik, bacarıq, vərdişlərlə bərabər, digər keyfiyyətlər də tələb edir. Bu baxımdan uşaqlarda təfəkkür və qavramanın inkişaf səviyyəsinin rolunu xüsusi qeyd etmək lazımdır. Şagirdlər hər şeylə maraqlanmaqla, onları dərk etməklə yanaşı, davranışlarını, şüurlu fəaliyyətləri ilə idarə etməyi bacarmalı, sinif kollektivinə «yazılmaq» üçün ünsiyyət bacarğına yiyələnməlidirlər.

**Uşaqların məktəbə psixoloji hazırlığının müəyyən edilməsi.** Məktəbə qəbul zamanı uşaqların hazırlıq dərəcəsini yoxlamaq üçün psixoloji-pedaqoji yoxlama aparılır, uşaq müayinədən keçərkən müvafiq sinifdə, dərs deyəcək müəllim mütləq iştirak edir. Pedaqoji-psixoloji müayinədə aşağıdakı cəhətlərin və parametrlərin aşkar edilməsinə və aydınlaşdırılmasına xüsusi diqqət yetirilir: uşağın məktəbə münasibəti, bilik ehtiyatı, nitq və təfəkkürünün, hafizə və təxəyyülünün inkişaf səviyyəsi, xırda və geniş hərəkətlərin motorikası.

Uşağın məktəbə münasibətini aydınlaşdırmaq və onun bilik ehtiyatını müəyyən etmək üçün, təxminən belə suallar üzrə müsahibənin aparılması məsləhət görülür:

-Adın nədir?
 Neçə yaşın var?
-Bəs ata və ananın adı nədir?
-Harada yaşayırsan, şəhərin (kəndin, qəsəbənin) adı nədir?
-Hansı ev heyvanlarını tanıyırsan?
-Bəs hansı vəhşi heyvanları tanıyırsan?
- İlin hansı fsəlində ağaclar yarpaqlayır?

–Yağışdan sonra torpaq necə olur?
–Gündüz gecədən nə ilə fərqlənir?
–Məktəbə getmək istəyirsənmi?
–Məktəbdə ən maraqlı olan nədir?

Nitq və təfəkkürün inkişaf səviyyəsini müəyyən etmək üçün xüsusi tapşırıqlardan istifadə olunur.

Stolun üstünə dörd şəkil qoyulur: oğlan oyanır, əl-üzünü yuyur, səhər yeməyini yeyir, məktəbə gedir. Müəllim uşağa şəkilləri ardıcıl düzməyi və öz düzülüşünü izah etməyi təklif edir. Hərəkətlərin (əlin, qolun, barmaqların) inkişaf səviyyəsini yoxlamaq məqsədilə xüsusi tapşırıqlardan istifadə olunur. Tapşırığı izah edərək, müəllim uşağa deyir: «Təsəvvür elə ki, sən sürücüsən. Sən bu evə getməlisən. Maşın bu yolla hərəkət etməlidir». Karandaşı kağızdan ayırmadan maşının marşrutunu çəkməlisən». «Əgər ayırsan, deməli, sənin maşının hardasa yol üzərindən qalxıb uçan təyyarə kimi görünəcək. Belə olmasın deyə, səliqəli sürmək lazımdır».

I siniflə məşğul olan müəllim psixoloji müayinələrin nəticələrini nəzərə alır. Əgər uşaqda məktəbə müsbət münasibət hələ yoxdursa, tədris prosesində ona daha çox diqqət vermək lazımdır. Onunla ünsiyyəti məktəbəqədər yaş dövrünə xas olan formalarda qurmaq, emosianal təsir yollarından istifadə edərək, cəzalandırmaya əl atmamaq tövsiyə edilir. Bir sözlə, elə ab-hava yaratmaq lazımdır ki, uşaq tədricən öz sinif yolDaşlarından nümunə götürərək, yeni vəzifəsini, şagird rolunu düzgün dərk etsin, müvafiq davranış və məktəb rejiminin tələblərini anlaya bilsin.

## AİLƏDƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TEMPERAMENT XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

**Ülviyyə Əfəndiyeva,**
Təhsil Problemləri İnstitutunun dissertantı

Anadan olan ilk gündən uşaqlar bir-birindən müxtəlif xüsusiyyətləri ilə fərqlənirlər. Bəziləri narahatlıq hiss edən kimi qışqırır, ağlayır, başqası sakitcə aclığa dözür, digəri isə sanki narahatlığı hiss etmir. Analar bütün günü öz körpələrinin xarakterlərini müqayisə edir, başqa tanış uşaqları xatırlayırlar: «Mənimkinin xasiyyəti yaxşıdır – şən, diribaş, ünsiyyətlidir»; «Bizimki çox narahtdır, aktivdir».

Bu körpələr sutka ərzində yalnız bir neçə saat oyaq qalsalar da, valideynlər onların fərdi xüsusiyyətlərini öyrənir, müşahidə edirlər.

Bir çox hallarda öz övladının hər bir hərəkəti valideyn üçün aydın olduğu halda, bəzən uşaq sanki öyrənilməsi mümkün olmayan bir varlığa çevrilir. Ailə tərbiyəsində səhvlərə yol verməmək və uşağın gələcəkdə daha dolğun inkişaf etməsi üçün hər bir valideyn öz övladının fərdi xüsusiyyətlərini yaxşı bilməli, tərbiyə prosesində həmin xüsusiyyətləri nəzərə almağı bacarmalıdır.

Məktəbəqədər yaşlı uşaqların fərdi-psixoloji xüsusiyyətləri arasında temperamentin xüsusi yeri vardır. Temperament fəaliyyət və ünsiyyət prosesində insan davranışının dinamik və emosional cəhətini xarakterizə edən fərdi-psixoloji xüsusiyyətlərin

məcmusudur. Uşağın hansı temperament tipinə mənsub olduğunu onun fəaliyyətini, davranışını, xarici təsirlərə göstərdiyi reaksiyalarını təhlil edərkən bilmək olar. Ali sinir fəaliyyəti tipi uşağın fəaliyyətinin məzmununu deyil, onun necə fəaliyyət göstərməsini müəyyən edir.

Həyatının ilk günlərindən uşaqlar bir-birindən müxtəlif xüsusiyyətləri ilə fərqlənirlər. Bəziləri həddindən artıq şəndir, digəri isə heç bir səbəb olmadan ağlamağa başlayır, biri təkbaşına oynaya bilmir, başqasını isə yaşıdına qoşmaq çox çətindir, biri oyuncağını həvəslə yoldaşına verir, o birisi isə başqasının oyuncağa əl vurmasına icazə vermir. Temperament uşağın necə sevinməsində və kədərlənməsində müxtəlif hadisələrə münasibətində özünü göstərir.

İ.P.Pavlova görə temperament ali sinir fəaliyyəti tipinin insanın rəftar və fəaliyyətində təzahürüdür. Belə ki, insanın ali sinir fəaliyyətinin hansı tipə mənsub olmasından asılı olaraq ona uyğun temperament tipi mövcud olur. Zirək tip sanqvinikə,coşğun xolerikə, sakit tip fleqmatikə, zəif tip isə melanxolikə aiddir.

Temperamentin tiplərinin mütləq dəyişməzliyini düşünmək düzgün deyildir. Onlar həyat şəraiti və tərbiyənin təsiri altında nisbətən dəyişə bilər.

Sanqvinik temperament tipinə mənsub olan uşaqlarda ali sinir fəaliyyətinin zirək tipi üstünlük təşkil edir. Onun əsas sinir prosesləri qüvvətli, müvazinətli, cəld olur. Sanqivinklərdə hisslər sürətlə yaranır, qüvvətli, davamlı olur. Belə uşaqlarda bir hiss başqa bir hissi asanlıqla əvəz edə bilir. Sevinən, gülən uşaq, bir azdan ağlayır, yenidən şən əhval-ruhiyyə keçirir. Sanqvinik uşaqlar ətrafdakı cisim və hadisələrin heç birinə laqeyd qalmırlar. Onlar yeni şəraitə tez uyğunlaşırlar, hər şeylə maraqlanırlar. Bu tipə mənsub olan uşaqlar başqa uşaqlarla tez ünsiyyətə girirlər, asanlıqla dost tapırlar. Tez yatır, asanlıqla yuxudan oyanırlar, çətinlik çəkmədən oyundan məşğələyə keçirlər. Bu da onların sinir sisteminin plastikliyi ilə əlaqədardır. Bu xüsusiyyət onların həyatında müsbət əhəmiyyət kəsb edir, bəzən isə mənfi cəhətdən özünü göstərir:uşaq bir oyuncaqla axıra qədər oynamır, oyunu sona qədər davam etdirmir. Sanqvinik temperamentli uşaqlar hamı ilə dostluq edir, amma dostluqları davamlı olmur. Belə uşaqlarda psixi fəaliyyət surətlə cərəyan etdiyindən sanki həmişə harasa tələsirlər. Bəzən tələsdiklərinə görə yerinə yetirdikləri işlərdə səhvlərə yol verirlər.

Sanqvinik temperamentli uşaqlara münasibətdə həmişə ciddilik, tələbkarlıq göstərmək, onların hərəkətlərinə nəzarət etmək lazımdır. Valideyn bu uşaqların qaydaları pozmasına laqeydlik göstərdikdə lazımi adətləri möhkəmləndirmək çətin olur. Səliqəlilik, təmizkarlıq kimi xüsusiyyətlər sanqviniklərdə başqa tiplərə nisbətən çətinlikə formalaşır. Sanqvinik yeknəsəklikdən tez yorulur. Bir işdə cəlbedicilik olmadıqla, o bunu yarımçıq qoyub başqasına keçmək istəyir. O, ağacın gövdəsini, bir neçə budağı və yarpaqlarını çəkdikdən sonra yorulur: «Bəsdir, indi gəmi çəkəcəyəm». Buna oxşar hadisələrdə valideyn çalışmalıdır ki, uşaq gördüyü işi axıra kimi etsin. Bir fəaliyyəti o birisi ilə tez-tez dəyişməyə yol vermək olmaz. Hər bir işi yarımçıq qoymaq, heç nə əldə etməmək möhkəmlənib xarakterin mənfi xüsusiyyətinə çevrilə bilər.

Bu xüsusiyyətlərin nəzərə alınması gələcək məktəblinin təlim fəaliyyətində qarşılaşdığı çətinliklərə kömək etmiş olar. Tərbiyə işi düzgün təşkil edildikdə sanqvinik temperamentli uşaqlarda diribaşlıq, mehribanlıq, qayğıkeşlik, cəldlik kimi müsbət keyfiyyətlər daha tez kök sala bilər.

Xolerik – temperamentli uşaqlar sinir sisteminin coşğun tipinə mənsub olurlar. Onlarda əsas sinir prosesləri qüvvətli, lakin müvazinətsizdir. Xolerik temperamentli uşaqlar mütəhərrik, çevik olur, hər işə ehtirasla girişir, onu axıra kimi dava etdirirlər. Bu cür uşaqlar mütəhərrik oyunları çox sevirlər. Belə oyunları təşkil edir və baş rolu özlərinə götürürlər. Xolerik temperamentli uşaqlar oyunda özünü həddindən artıq coşğun, impulsiv, aqressiv aparırlar, qaydalara çətinliklə tabe olur, oyuncaqlara görə dalaşır və hətta hirsləndikdə öz üzərində nəzarəti itirirlər.Valideynlər belə uşaqların bu xüsusiyyətlərini nəzərdə qaçırmamalıdır. Onların könüllərinə toxunanda dərhal əsəbləşir, hövsələdən çıxırlar. Buna görə də valideynlərdən xolerik temperamentli uşağa qarşı böyük həssaslıq tələb olunur. Bu cür uşaqlarla ehtiyatla hərəkət etmək, onları əsəbiləşdirməkdən çəkinmək lazımdır.

Xolerik temperamentli uşaqlarda oyuna, qaçmağa, atılıb düşməyə meyl çox olur. Bu zaman bir çox valideynlər onların fəallığının qarşısını almağa çalışırlar: «Qaçma», «Bir də hasarın üstünə çıxsan səni həyətə buraxmayacağam!».Onları tez-tez cəzalandırırlar. Bunlar isə uşağın əsəbiləşməsinə,ağlamasına səbəb olur. Onda kobudluq kimi keyfiyyətin möhkəmlənməsi ilə nəticələnir. Xolerik temperamentli uşaqlar tez özündən çıxırlar, onları sakitləşdirmək, yatmağa göndərmək çox çətin olur. Belə uşaqlara heç vaxt güc tətbiq etmək olmaz (qışqırmaq, döymək, qorxutmaq). Bu zaman uşaq daha çox qıcıqlanar. Uşaqla sakit, tələbkarcasına danışmaq lazımdır.

Xolerik uşaqların xüsusi rejimə ehtiyacları vardır. Sinir sistemini qıcıqlandıran hər bir şeyi, xüsusilə, günün ikinci yarısında azaltmaq lazımdır. Tez qıcıqlanan uşaqalara onun diqqətliliyini inkişaf etdirən bütün fəaliyyət növləri (stolüstü oyunlar, yapma, rəsm, quraşdırma və s.) zəruridir

Xolerik uşaqlara ünsiyyət qaydalarını yerinə yetirmək çox çətindir: sakit danışmaq, öz növbəsini gözləmək, başqalarının arzusunu nəzərə almaq. Bütün bunları valideynlər səbirlə öyrətməli və çalışmalıdırlar ki, xolerik temperamentli uşaqlarda özünü göstərən mənfi xüsusiyyətlər aradan qalxsın.

Fleqmatik temperament tipinin özünəməxsus xüsusiyyətləri vardır. Bu cür uşaqlarda sinir sisteminin sakit tipi üstünlük təşkil edir.

Fleqmatik temperamentli uşaqların davranışları ahəstə, sakit olur. Körpəlik dövründə az ağlayır, çox yatır, özlərinə diqqəti çox cəlb etmirlər. Belə uşaqların xarici qıcıqlara qarşı reaksiyaları aydın xarakter daşımır: gülüşləri sakitdir, yavaşca və az ağlayırlar, artıq hərəkətləri və jestləri yoxdur. Sinir proseslərinin az mütəhərrik olması nitqinin tempində, ətrafdakılara qarşı reaksiyasında özünü büruzə verir. Bu uşaqlar pauza ilə danışırlar, suallara birdən-birə cavab vermirlər, işi ləng yerinə yetirirlər, lakin onları fəaliyyətə gətirdikdə bu və ya digər istiqamətdə inamla irəliləyirlər.

Fleqmatiklər yenilyi çətinliklə qavrayırlar,yeni şəraitə gec uyğunlaşırlar, lakin öyrəşdikləri şəraitdə davranış qaydalarını düzgün yerinə yetirirlər, tanış işin öhdəsindən asanlıqla gəlirlər.Bu xüsusiyyətlər fleqmatikin müsbət xüsusiyyətlərindəndir, lakin hərəkətlərinin aşağı sürətdə olması, az fəallıq ona mane olur.

Bəzi valideynlər bu cür uşaqların ləng, sakit olmasından şikayətlənir, onlara müəyyən bir iş tapşırmaqdan çəkinirlər. Qışqırmaq, təhrik etmək, hədələmək heç bir fleqmatiki cəld etməmişdir, əksinə bu güclü qıcıqlandırıcılar belə uşaqalara ləngidici təsir göstərir.

Valideynlərin fleqmatik uşaqlarla münasibətdə buraxdıqları səhvlərdən biri uşağı güc tələb edən hər bir işdən çəkindirmək və ya tez onun köməyinə gəlməkdir. Bu zaman uşaq heç vaxt hərəkətli olmayacaq və onda öz gücünə inamsızlıq hissi inkişaf edəcək. Valideynlər belə uşaqları fəaliyyətə təhrik etməlidirlər. Fleqmatiklər üçün canlanma, çəldlik, daha çox hərəkət tələb edən oyun və əmək növləri faydalıdır. Bu zaman həmin uşaqlarda tədricən fəallıq və gümrahlıq artır.

Yeni şəraitə uyğunlaşa bilmək bacarığını inkişaf etdirmək üçün fleqmatikləri tez-tez qonaq aparmaq, onlara adamlarla ünsiyyətə girməklə bağlı tapşırıqları vermək faydalıdır. Fleqmatik bir işə başlayıbsa onu tək buraxmaq olmaz, yoxsa gördüyü iş uzun sürəcək. Onlara yalnız işə başlamaq deyil, onu qurtarmaq da çətindir. Uşaqlara qabaqcadan gördükləri işi tez qurtarmağın zəruriliyi barəsində xəbərdarlıq etmək lazımdır.

Yaxşı olar ki, fleqmatik tipə mənsub olan uşaqlar hərəkətli, zirək uşaqlarla dostluq etsinlər. Bu yolla onlarda olan süstlük, əzginlik, tənbəllik kimi keyfiyyətləri aradan qaldırmaq mümkündür.

Melanxolik temperamentli uşaqlar. Sinir sisteminin zəif tipinə mənsub olan melanxoliklər yüksək həssaslığı ilə seçilirlər. Bu uşaqlarda psixi proseslərin cərəyanı zəif sürətlə, ləng gedir, lakin çox dərin və qüvvətli olur. Melanxoliklərin zəif qıcıqlandırıcılara qarşı reaksiyaları çox tez və güclü olur, onlar tez yorulurlar. Belə uşaqlar söhbətə gec qoşulur, öz bacarıqlarını nümayiş etdirmir, qeyri-fəal olur, hərəkət tələb etməyən sakit fəaliyyəti xoşlayırdlar. Melanxoliklər təklikdə oynayır, ünsiyyətə təşəbbüs göstərmir, səs-küylü, şən yaşıdlarından kənarda gəzirlər. Onların hissləri dərin və qüvvətli olur, lakin bu hissləri üzə vermirlər. Bu uşaqlar tez inciyirlər. Ehtiyatsızlıqla deyilən hər bir söz və ya hər bir hərəkət onların qəlbinə tez dəyir və uzun müddət yadlarında qalır. Ona görə də valideyn onlarla ehtiyatla rəftar etməli, qəlblərinə dəyəcək, hərəkətlərə və sözlərlə yol verməməyə çalışmalıdırlar, lakin təəssüf ki, bir çox valideynlər bu cür uşaqların həmin xüsusiyyətlərini nəzər almırlar. Valideynlər melanxolik uşaqlara düzgün yanaşmadıqda onlarda özlərinə qarşı nifrət hissi yarana bilər.

Bu cür uşaqlar öz sirlərini, hisslərini başqalarına bildirmirlər.Bəzən valideynlər uşağı hər bir xırda hərəkətin üstündə incidir, onları cəzalandırırlar. Təcrübə göstərir ki, melanxolik uşağa bu cür yanaşmaq adətən arzuolunmayan nəticə verir. Özünə qarşı inamsız olan, sirlərini başqalarından gizlətməyə meyl edən melanxolik .temperametli uşaq qorxunun təsiri ilə daha da qapalı olmağa başlayır.

Melanxoliklər öz güclərinə inamsız olduğundan rastlaşdıqları çətinliklər onlarda qorxu yaradır. Təşəbbüskarlıq, qətiyyət nümayiş etdirə bilmirlər. Ona görə də valideynlər bu cür uşaqlarda öz güclərinə inam tərbiyə etməlidirlər. Uşaqlara bu və ya digər tapşırığı verdikdən sonra onun icrasını qiymətləndirmək, başqa uşaqlara nümunə göstərmək, yeri gəldikdə gördüyü işə görə tərifləmək melanxoliklər üçün çox vacibdir.

Beləliklə, temperament tiplərinin qısa xarakteristikasından, demək olar ki, «pis» və ya «yaxşı» temperament yoxdur. Hər bir temperamentin öz pozitiv və neqativ əlamətləri vardır.

Ailədə uşağın tipoloji xüsusiyyətlərinin diaqnostikası.

Uşaqda özünü göstərən mənfi keyfiyyətləri vaxtında korreksiya etmək üçün valideynlər öz uşaqlarının temperamentlərini anadan olan ilk günlərdən müşahidə etməli.

öyrənməlidirlər. Temperament xüsusiyyətləri müxtəlif yaş mərhələlərində müxtəlif formada təzahür edir, uşağın fəallığı, ləngliyi yaşlılardan fərqlənir. Onun hər bir yaş dövrü üzrə xüsusiyyətlərini bilməklə temperament tipini müəyyənləşdirmək mümkündür.

Həyatının ilk aylarından uşaqda anadangəlmə keyfiyyət olan həyəcanlılıq özünü göstərir. Bu, əvvəlcə körpənin yeni, tanış olmayan şeyləri gördükdə yüksək dərəcədə qıcıqlanması ilə müşahidə olunur. Bu zaman o yeni gördüyü hər bir şeyə qarşı qorxu, həyəcan hissi keçirir. Həddindən artıq yüksək həyəcanlılıq sonralar gərginlik yaradır, məktəbdə məsələlərin, təlim tapşırıqlarının yerinə yetirilməsinə mənfi təsir göstərir. Həmişə həyəcan keçirmək, müvəffəqiyyətsizliyi gözləmək fəallığı azaldır, təşəbbüskarlığı və hər şeyi öyrənmək həvəsini ləngidir, lakin həyəcanlılıq həmişə pis cəhət kimi qəbul edilməməlidir. Müəyyən, optimal səviyyədə o hər bir insanda olmalıdır. Əgər uşaqa bu xüsusiyyət aşağı səviyyədədirsə, bu cür uşağı heç vaxt nəzarətdən kənarda qoymaq olmaz. O heç nədən qorxmur, əlinə keçən hər bir əşyanı tədqiq edir, özünün müvəffəqiyyətsizliyindən heç bir nəticə çıxarmır.

İkinci ilin əvvəlində valideynlər uşaqda impulsivlik kimi fərdi xüsusiyyəti müşahidə edirlər. Bir ailədə bu parametrə görə bir-birindən fərqlənən uşaqlar böyüyə bilər. Valideynin söylədiklərindən: «Böyük uşaq həmişə mənimlə razılaşırdı, əgər nə isə onun xoşuna gəlmirdisə, yenə də səbrlə gözləyirdi. Kiçik uşaq isə ona tez diqqət yetirməyi tələb edir, əks halda inciyir, özünə qapılır. Maraqlı bir əşya və ya hadisə görən kimi hər şey yadından çıxır». İmpulsivliyi vaxtında korreksiya etmək daha məqsədəuyğundur. Uşaq özünü ələ aldıqda, istəklərini ətrafdakıların tələbatları ilə uyğunlaşdırdıqda, yalnız öz maraqları ilə deyil, başqalarının da maraqları ilə hesablaşdıqda onu həvəsləndirmək, tərifləmək yaxşı nəticə verər.

İki yaş yarımdan sonra uşaqlarda valideynləri çox narahat edən xüsusiyyət – aqressivlik özünü göstərir. Uşaq bilərəkdən başqasına ziyan vurmaq istəyir, yaşıdları ilə dalaşır. Aqressiya verbal (sözlü) olduqda o, başqasına pis sözlər deyir, onu təhqir edir. Aşağı və ya yüksək deyil, orta səviyyəli aqressivlik daha məqsədəuyğundur. Valideynlər çalışmalıdırlar ki, uşaq vaxtında kollekivdə davranış normaları ilə tanış olsun, yaşıdlarla münaqişələri həll edərkən aqressivlik göstərməsin. Uşaqlarda aqressivliyin heç olmamasını arzulamaq isə passiv, təşəbbüsü olmayan, özünü və başqalarını müdafiə edə bilməyən insanın tərbiyə olunması deməkdir.

Temperament xüsusiyyətlərinin diaqnostikası zamanı belə bir cəhəti də nəzərdən qaçırmaq olmaz ki, sinir sisteminin xassələri məktəbəqədər dövrdə uşağı əhatə edən mühitin, ailə atmosferinin təsiri altında olur. Təbiətinə görə cəld, zirək uşaqlar yeknəsək həyat sürsələr, müsbət emosiyalardan kənar olsalar, onlar şən sanqvinik kimi deyil, özünə inamı olmayan, qorxaq, cəsarətsiz, daha çox melanxolikləri xatırladan insan kimi böyüyərlər. Əksinə, ailədə psixoloji iqlimin əlverişli olması, yaxınların ruhlandırıcı qiymətləri əvvəl yüksək həyəcanlılıq, qorxaqlıq, cəsarətsizlik göstərən uşaqlarda özünə inamın yaranmasına, sakit, təmkinli olmalarına kömək edir.

Beləliklə, bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, valideynlərin öz övladlarının fərdi-tipoloji imkanlarını bilmələri, onunla hesablaşmaq, pozitiv cəhətlərin inkişafına əlverişli şərait yaratmaq, neqativ cəhətləri aradan qaldırmaq hər bir ailənin borcudur. Bu, uşağın hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşması üçün zəruridir.

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN MƏKTƏBƏ ADAPTASİYASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Hökümə Əliyeva,**
Təhsil Problemləri İnstitutunun elmi işçisi

Ümumi və psixi inkişaf, eləcə də şəxsiyyətin formalaşdırılmasında kiçik məktəb yaşı dövrü xüsusi əhəmiyyətə malikdir. Məktəbəqədər və yeniyetməlik yaş dövrləri arasındakı mərhələni əhatə edən kiçik məktəb yaşı dövrü sadəcə bir yaş dövründən digərinə keçid yox, yeni fəaliyyət formasına, yeni mühitə keçid olmaqla mühüm əhəmiyyət kəsb edir.

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə başlamaları onların psixika, maraq və motivlərində, qarşılıqlı münasibətlər sistemində bir sıra dəyişikliklərin baş verməsini zəruri edir. Psixoloq və pedaqoqlar (V.S.Viqotski, V.A.Suxomlinski, V.V.Davıdov, Ş.A.Amonaşvili, Y.Ş.Kərimov və b.) əsaslandırmışlar ki, məktəb həyatına uyğunlaşmaq – adaptasiya olunmaq xeyli fiziki və psixi gərginlik tələb edir və heç də bütün şagirdlər bu prossesi asanlıqla keçmirlər.

V.A.Suxomlinski göstərir ki, bu mərhələnin ağrılı və ya ağrısız, asan və ya çətin keçilməsində sinif müəlliminin iş üsulu, pedaqoji ustalığı, şəxsi keyfiyyətləri əsaslı təsir göstərir. Avtoritar üslublu, şagirdlərə qarşı ifrat və yersiz tələbkar olan müəllimlər şagirddə «qorxu, vahimə» yaradır, onun məktəb həyatı barədə xoş arzularını «puça çıxarır». Təlim fəaliyyəti, məktəbin qayda-qanunlarının mənimsənilməsi onsuz da çətindir. Bir çox pedaqoq və psixoloqlar bunu hətta «birinci il böhranı» kimi səciyyələndirirlər.

I sinif şagirdlərinin məktəbə adaptasiyasını çətinləşdirən amillər içərisində müəllimlərin uşağın bilik səviyyəsini, yaş xüsusiyyətini nəzərə almadan onlarla «öz səviyyəsində, qəliz terminlərlə» danışmaları xüsusi yer tutur. Bu, uşaqlarda özünə inamı azaldır. Bunun tam əksi olan bir cəhət isə bəzi müəllimin dərsi çox sadələşdirərək, uşağı düşünməyə «məcbur» etməməsidir. Müəllim uşaqların «səviyyəsinə enir», təlim fəaliyyətinin çox asan olduğunu göstərir, lakin unudur ki, fikirləşmək, axtarıb tapmaq «zövqündən, sevincindən» uzaq düşən uşağın tədricən məktəbə, dərsə olan marağı da azalır.

Kiçikyaşlı məktəblilərin məktəbə adaptasiyasına mənfi təsir göstərən amillərdən biri də «məktəb dezadaptasiyası»dır. Bu terminlə, təlimdə meydana çıxan çətinliklərin, qaydaların pozulması, sinif yoldaşları ilə mübahisələrin yaranması və bu kimi hallar qeyd olunur. Məktəb dezadaptasiyası davamiyyətə və şagirdlərin nizam-intizamına ola bilsin ki, mənfi təsir göstərməsin, ancaq şagirdlərin subyektiv hisslərində və psixogen pozulmalarında özünü göstərsin. V.Y.Kaqanın qeydlərində məktəb dezadaptasiya hadisələrinin daha məzmunlu açıqlaması verilir. Burada uşağın məktəbə gəlişinə qədər yarana bilən dezadaptasiya hallarının oliqofrenik, psixi xəstəliklərin, uşağın fiziki qüsurları və əlbəttə ki, nevrotik pozuntuları ilə bağlı məsələlər aid edilir. Uşaqlarda yalnız psixogen reaksiyaya səbəb olan – problemlərin və streslərin (davranış prosesində) qeyri - adekvat reaksiyası deyil, ətrafdakılarla mübahisənin yaranması oxumağa marağın qəflətən aşağı düşməsi, uşaq neqativizmi, həyəcanın artması, təlim fəaliyyətində vərdişlərin azalması və s. bu kimi hallar da öz əksini tapır.

Bir çox müəlliflər, məsələn, K.V.Bordin, V.N. Petrunek, L.N. Taran, M.Kleyn və b. məktəb dezadaptasiyanın valideynlər tərəfindən lazımı qaydada göstərilməyən tərbiyəvi təsirdən, müəyyən dərəcədə uşaqlarla soyuq münasibətdən və emosional dayaqsızlıqdan, hədsiz qəyyumluqdan yarandığını göstərirlər. Uşaqların məktəb həyatına, aparıcı təlim fəaliyyətinə qoşulmalarının özü də inkişaf baxımından iki mərhələdən keçir. D.B. Elkonin bu barədə yazır: «Bir tərəfdən uşaqlıq illərinin inkişafında belə hallar olur ki, məsələnin vacibliyinin dərk olunması və motivlərin yaranması, insanlar arasındakı münasibətlər və bunun əsasında motivləşmiş tələbatlar sferası, digər tərəfdən bu dövrdə müstəsna olaraq ictimai əşyalarla davranma hərəkətlərinin mənimsənilməsi və bunun əsasında isə uşaqların intellektual dərketmə gücünün formalaşması, onların texniki əməliyyat imkanlarının formalaşması baş versin». Əgər kiçikyaşlı məktəbli təlim fəaliyyətinin əməliyyat tərəfini müəyyən qədər mənimsəyirsə və bu kimi vərdişlərə yiyələnməklə məktəbdə psixogen dezadaptasiyaya gətirib çıxarırsa, yeniyetməlik dövründə təlim fəaliyyətinin aparıcı tərəfi motivləşmiş tələbatlardır. Buna görə də bir çox hallarda məktəb dezadaptasiyası yeniyetməlik dövründə təzahür edirsə, bu da təlim müvəffəqiyyətinə mənfi təsir göstərir.

Bir çox psixoloqlar (L.S. Slavina, İ.N.Vinokurov, Y.L.Kolominski, L.N.Vinokurov, V.N. Myasişev və b.) hesab edirlər ki, kiçikyaşlı məktəblilərin təlimdə geriləmələrinin, məktəbə adaptasiya oluna bilməmələri bəzən sinir-psixi pozuntular üzündən yaranır. V.N.Myasişevin nevroz haqqında fikirlərinə istinadən demək olar ki, psixogen reaksiyalar və pozuntular «şəxsiyyətin həlledici, qeyri-rasional, qeyri-məhsuldar, uğursuz təsəvvürləri ilə reallıqda onun üçün əhəmiyyətli olan ətrafdakıların və onun özünün özü ilə təzadlarıdır». Q.N. Misko qeyd edir ki, tədris proqramını yerinə yetirməyən və nizam-intizama əməl etməyən şagirdlərin 6,6% psixiatrın köməyinə ehtiyacı olanlardır.

V.Y.Kaqan hesab edir ki, bir çox hallarda uşaq yüklənmiş dərs saatına qurban verilir ki,bu da müəllim tərəfindən buraxılmış səhv, valideyn tərəfindən isə səhlənkarlıq kimi qəbul edilməlidir. Uşağın şəxsi mövqeyi, onun imkanları, xarici reallığa və çətinliklərə münasibəti – bunların hamısı kompleks şəkildə məktəbə adaptasiya olunmağa təsir göstərir. L.S.Viqotski yazırdı: «Uşağın inkişafı mühiti yaşantılarla təyin olunur». O, «mühitin aşkar göstəriciləri» ilə bağlı araşdırmaları rədd etmir, qeyd edir ki, uşaq sosial situasiyanın bir hissəsidir, uşağın mühitə və mühitin ona təsiri onun mühiti yaşantılarının və uşağın özünün bu aləmdə fəaliyyəti, mühitin gücünün istiqamətləndirici əhəmiyyət kəsb etməsi ondan asılıdır. Əgər uşağın bioloji meylliyi baxımından onun məktəb dezadaptasiyası məsələsinə toxunsaq, onda gərək uşağın təlim-tərbiyə ilə bağlı qarşısına çıxan çətinlikləri, təlimə münasibətini də nəzərdən qaçırmayaq.

Kiçikyaşlı məktəblilərin sosiallaşması, psixi inkişafı prinsipcə çox fərqlidir. Ona görə də məktəb dezadaptasiyası hallarında yaşdan danışarkən ilk növbədə şagirdlərin sosiallaşmasına da diqqət yetirmək lazımdır.

Kiçikyaşlı məktəblilərin təlimdə qrup fəaliyyətində uğur qazanmaları, onlarda təlim vərdişlərinin əmələ gəlməsi valideynlərdən də asılıdır. V.A.Suxomlinski yazır: «Çox vaxt şagirdin bilik əldə etmələrini onun oxuya bilməməsində görürlər. Təlimdə rəhbərlik, bilik və vərdişlərin yerli-yerində elmi qaydalarla bölünməsi orta təhsil almağa möhkəm təməl yaradır və uşağı yaxşı oxumağa sövq edir». K.V.Bardin isə konkret misallarla göstərir ki, «Uşaqlar tədris materialları üzərində işlədikdə və valideynləri bu

prosesə diqqət yetirmədikdə tədricən onun təlimə marağı azalır, o, təlimdə geri qalır, məktəbdən yayınır».

L.İ. Bojoviç, N.Q.Morozova və L.S. Slavinaya görə onların üzərində tədqiqat apardıqları şagirdlər arasında elələri də var ki, onlar hələ təlimə münasibətlərində məktəbəqədər yaşlı uşaqların xüsusiyyətlərini saxlayırlar. Onlar üçün ön planda təlim fəaliyyəti deyil, oyun vaxtı əylənə bildikləri xarici atributlardır.

Kiçikyaşlı məktəblilərin məktəbə adaptasiya oluna bilməmələrinə onların sərbəst davrana, diqqətlərini idarə edə bilməmələri də təsir göstərir. N.İ.Muraçkovskiyə görə, onlar üçün xarakterik olan «təhsil abuliyası»dır. Bu elə bir haldır ki, təlim fəaliyyəti uşaqların özlərinin təşəbbüsü ilə yerinə yetirilmir, ancaq onlara ətrafdakıların stimullaşdırıcı təsiri nəticəsində həyata keçirilir. Məktəb tələblərinə adaptasiya oluna bilməmək, qəbul olunmuş normalara uyğun davranışın özünütəşkil və idarə olunması ailədəki tərbiyənin düzgün qurulmamasının nəticəsidir. Bu da bəzi uşaqlarda psixofizioloji xüsusiyyətlərin pozulmasına onlarla bağlı həyəcanın artmasına, diqqətin yayılmasına, emosionallığın yaranmasına gətirib çıxara bilər. Ailədə belə uşaqlara münasibət üslubunun əsas xətti zahiri qadağaların və normaların olmamasıdır. Bunlar uşaq tərəfindən özünü idarəetmə üslubuna çevirməli, yaxud yalnız kənardan «qəbul olunmuş» nəzrarət olmalıdır. Birinci halda ailəyə aid olan odur ki, uşaq tam öz ixtiyarına buraxılır, yaxud ailədə «uşağa pərəstiş» hökmranlıq edir. Belə ailədə xarici təsirlər yox dərəcəsindədir ki, bu da uşağın davranışında öz əksini tapır.

Kiçikyaşlı məktəblilərin məktəbə adaptasiyasına, onların məktəb həyatına uyğunlaşa bəlməmələrinə bəzən onların temperament tipinin nəzərə alınmaması da təsir göstərir. Belə ki, sanqvinik və xoleriklər yeni mühitə tez alışa, yaşıdları və müəllimlərlə tez dil tapa bildikləri halda, melanxoliklər üçün kifayət qədər çox vaxt lazım gəlir. Nə fiziki status, nə inkişaf səviyyəsi, nə də temperament tipi özlüyündə məktəbə dezadaptasiyaya gətirib çıxarmır. Belə uşaqlarda dezadaptasiyanın yaranma səbəbi onlara yanaşmanın düzgün qurulmamasında, yaxud böyüklərin onların fərdi xüsusiyyətlərinə məhəl qoymamalarındandır. Bəzi psixoloqların fikrincə, uşağın «xəstəliyinə pərəstiş» hökm sürən və yaxud «isti ocaqda» böyüyən uşaqlar dərs vaxtı tez yorulur, çətinliklərə qatlaşa bilmirlər.

Kiçik məktəblilərin məktəbə adaptasiyası həm də sosial situasiya ilə bağlıdır. Onların yeni, aparıcı fəaliyyət formalarının mənimsənilməsi ilə qarşıya qoyduqları tələblər arasında fərqin olmaması məsələsi də unudulmamalıdır. Məktəbə adaptasiya prosesində şagird şüurlu sürətdə anlamalıdır ki, bu çətinliyin öhdəsindən məhz o özü gəlməlidir. Eyni zamanda, əgər valideyn uşağın pis qiymətlərinə mənfi münasibət bəsləmirsə, müəllim də şagirdin müntəzəm «iki» və yaxud «üç» almasına əhəmiyyət vermirsə, şagird bu prosesin «zövqündən» özünü məhrum etməyə cəhd göstərməyəcəkdir. Yox, əgər böyüklər onları tənbeh etsə, öz narazılığını bildirərlərsə, bu zaman uşaqlar məktəb uğursuzluqlarını daha dərindən yaşayarlar. Əgər münasibət müsbətdirsə, onda onlarda dezadaptasiyanın aradan qaldırılmasına təkan verəcəkdir.

Beləliklə, kiçikyaşlı məktəblilərin məktəbə adaptasiyası mühüm psixoloji problemdir və uşağın təlim-tərbiyə sahəsində uğur qazanması onun həllindən asılıdır.

# İNTELLEKTUAL ÇATIŞMAZLIĞI OLAN UŞAQLARDA KOMMUNİKATİV BACARIQLARIN FORMALAŞDIRILMASI

**Səadət Cavadova,**
Təhsil Problemləri İnstitutunun böyük elmi işçisi

İntellektual çatışmazlığı olan kiçikyaşlı uşaqlar normal inkişaf edən həmyaşıdlarından daha çox ünsiyyət çətinliyi keçirirlər. Bu, bir sıra səbəblərlə, ən başlıcası isə, həmin kateqoriyadan olan uşaqların nitq inkişafının çox aşağı səviyyədə olması ilə izah edilir. Qeyd edək ki, əqli çatışmazlığı olan uşağın nitqi gec əmələ gəlib, ləng formalaşmaqla yanaşı, həm də bütün komponentlərinin spesifik çatışmazlıqları ilə xarakterizə olunur. Fonematik səviyyədən tutmuş, semantik səviyyəyə kimi, daha sonra isə sərbəst nəqletmə səviyyəsində olan çatışmazlıqlar, kommunikativ funksiyanı keyfiyyətcə təmin etmir, tam, dolğun ünsiyyət vərdişlərinin formalaşmasına mane olur. Bu isə, öz növbəsində, bütün fəaliyyət növlərinin ləngiməsinə gətirib çıxarır. Nitq təşəbbüsünün olmaması və nitqi – fikri fəaliyyət vasitələrinin, nitqin nəzarətedici rolunun çatışmazlıqları əqli çatışmazlığı olan uşaqlarda nitq neqativizminin, qaraqabaqlığın, və tənhalığa meylliliyin inkişafına rəvac verir. Belə uşaqların nitqi stereotip və ştamplarla, eyni nitq konstuksiyaları ilə zəngin olur.

Məlumdur ki, nitq inkişafı təfəkkürün inkişafı ilə sıx əlaqədardır. İdrak fəaliyyətinin çatışmazlıqları, ünsiyyət situasiyasının təhlilini, artıq mənimsənilmiş nitq təcrübəsindən istifadə etməyi, bu təcrübənin yeni kommunikasiya şəraitində tətbiqini çətinləşdirir.

Əqli çatışmazlığı olan uşaqlarda ünsiyyət tələbatının olmaması, həmçinin, ətrafda baş verənləri dərk etmədiyi, başa düşməliyi üçün, ətraf mühitdə baş verənlərə biganəliyik göstərirlər.

Ünsiyyət nöqsanlarının səbəblərindən biri də bu uşaqların emosional – iradi sisteminin çatışmazlıqlarıdır. İntellektual çatışmazlığı olan uşaqların emosional sistemi kifayət qədər diferenisallaşmadığı üçün belə uşaqların emosional vəziyyəti qeyristabil olur, əhval-ruhiyyəsi tez-tez dəyişir. Bu isə, öz növbəsində, ətrafdakılarla sosial kontraktın bütün növlərinə mane olur.

Müxtəlif dərəcəli əqli çatışmazlığı olan uşaqlar üzərində aparılan müşahidələr göstərir ki, bu uşaqların ünsiyyətinin bir sıra xarakter xüsusiyyətləri mövcuddur:

- İstər böyüklər, istərsə də həmyaşıdları ilə münasibətlərində sərbəstlik dərəcəsi olduqca aşağıdır, yəni bu uşaqlar sərbəst hərəkət edə bilmirlər.
- Hər – hansı münaqişəli vəziyyətin həllində özlərini təcavüzkar kimi aparırlar.
- Baş verən hər hansı xoşagəlməz hadisədə ətrafdakıları günahlandırmağa meylli olub, öz günahlarını qətiyyən görmürlər, başqa sözlə, özlərinə tənqidi yanaşmırlar.

Sadaladığımız bu xüsusiyyətlər uşağın ailədə və ya internatda tərbiyə almasından asılı olmayaraq, yardımçı məktəblərin I- II sinif şagirdlərinin demək olar ki, hamısı üçün xarakterikdir. Müşahidələr göstərir ki, II sinfin sonundan başlayaraq vəziyyət yaxşılığa doğru dəyişir. Uşaqlar hərəkətlərində, münasibətlərində daha sərbəst olur, konflikt vəziyyətlərdə təcavüzkarlıq azalır, öz hərəkətlərinə tənqidi yanaşma artır, nə üçün məhz bu cür hərəkət etdiklərini izah etməyə çalışırlar, lakin bu göstəricilər psixi inkişafında ləngiməsi olan uşaqlarla müqayisədə çox aşağıdır.

Ünsiyyət çatışmazlıqları bütövlükdə uşaqların sosial adaptasiyası ilə bağlı problemlərin əmələ gəlməsinə və dərinləşməsinə səbəb olur. Onlar üçün istər şəxsi ünsiyyət əlaqələrinin, istərsə də işgüzar əlaqələrin qurulması, özünə arxayınlıq hissinin olmaması üzündən çətinlik törədir, onlar özlərindən və ətrafdakılardan narazı olurlar. Bu vəziyyət uzun müddət davam edirsə, müxtəlif zəmində münaqişələrin əmələ gəlməsinə səbəb olur və insanın fəaliyyəti çətinləşərək onu əhatə edən insanlarla münasibətini ağırlaşdırır.

Əqli çatışmazlığı olan uşaqlar, normal intellektual imkanları olan yaşıdlarının inkişaf etdiyi qanunlar üzrə inkişaf edirlər. Hər iki kateqoriyadan olan uşaqların, yəni əqli çatışmazlığı olan, həm də əqli inkişafı normal olanların həyatı və sosial təcrübəsi ictimai münasibətlərin və əlaqələrin təsiri altında qurulur. Odur ki, bu uşaqlarda nitqin formalaşmasını da ünsiyyət və kommunikasiya vərdişlərinin inKişafı baxımından qiymətləndirmək lazımdır. Yəni uşağın nitqi onun yaşadığı və fəaliyyətdə olduğu mühitdə, ətrafındakılarla ünsiyyət zamanı formalaşır və inkişaf edir.

Yalnız ünsiyyət zamanı uşaq, özünü ifadə etmək imkanı qazanır və bu ifadə olunma formasına görə də onun kommunikativ bacarığından, şəxsi keyfiyyətlərindən danışmaq olar. Əqli çatışmazlığı olan uşaq üçün ünsiyyət prosesində iştirak etməkdən daha vacib, bu ünsiyyətin baş verdiyi şəraiti, situasiyanı dərk etməkdir. Bu kateqoriyadan olan uşaqlar, çox vaxt, dərketmə qabiliyyətinin aşağı olduğundan, bu situasiyanı sərbəst qavramaq imkanından məhrum olurlar.

Ünsiyyət şəraitinin, situasiyanın yaradılması və uşağa başa salınması, anladılması istiqamətində əsaslı iş görülməlidir. Bu isə, öz növbəsində, dilin normalarının, əsaslarının mənimsənilməsi hesabına mümkün ola bilər. Deməli, uşaqda ünsiyyət vərdişləri aşılamaq, öz fikrini düzgün ifadə etmək bacarığı formalaşdırmaqdan ötrü, ilk növbədə, ona dil normalarını, şifahi nitq qaydalarını öyrətmək lazımdır.

Beləliklə, intellektual çatışmazlığı olan uşaqların kommunikativ bacarıq və vərdişlərini formalaşdırmaq üçün, onlara ünsiyyət texnologiyalarını öyrətmək lazımdır. Bu kateqoriyadan olan uşaqların təhsil aldığı yardımçı məktəblər üçün yenicə tərtib olunmuş «Ana dili» proqramında bu vacib məsələlərə geniş yer verilir. «Oxu və nitq inkişafı» kursunun məqsədi nitq aktını təşkil edən bütün komponentlərin korreksiyası əsasında danışıq nitqinin mənimsənilməsi prosesidir. Bunun üçün uşaqda olan şifahi nitq təcrübəsini öyrənmək, ümumiləşdirmək, şifahi nitqin keyfiyyətini müəyyənləşdirən: səslərin düzgün tələffüzü, nitqin sürəti, ritmi, intonasiyası, ifadəliliyi və s. yaxşılaşdırılması üzərində iş aparmaq, ümumi nitq, ünsiyyət və kommunikasiya mədəniyyətini artırmaq lazımdır.

Yardımçı məktəblərdə şifahi nitq təliminin başlıca fərqi dil ümumiləşdirmələri və nitq qanunauyğunluqları əsasında nitqin semantik tutumunun əsas götürülməsidir. Ünsiyyət hansı mövzu ətrafında qurulacaqsa, söhbət nədən gedəcəksə, o anlayışların, sözlərin mənası uşağa tam açıqlanmalı və aydınlaşdırılmalıdır. Şifahi nitq və ünsiyyət təliminin əsası uşağa tanış situasiyaların yaradılması üzərində qurulmalıdır. Nitq inkişafı dərslərində müəllimin müraciət etdiyi mövzular ətrafda baş verənlərlə sıx əlaqəlidir: «Küçə və biz», «Nəqliyyatda», «Kukla teatrında», «Parkda gəzinti», «Mağazada», «Uşaqlarla oyun», və s. Mövzunun müxtəlif istiqamətlərdə genişləndirilməsi nitqdən təkcə bilik və məlumat qazanmaq vasitəsi kimi deyil, həm də şifahi nitq fəaliyyətinin öyrənilməsi obyekti kimi baxmağa imkan verir. Əqli çatışmazlığı olan uşaqların nitq fəaliyyəti motivasiyasının çox aşağı olduğunu nəzərə alsaq, deyə bilərik

ki, bu cür yanaşma zamanı onlar qazandıqları nitq vərdişlərindən bilavasitə mənimsənilən kimi, təkcə məktəbdə deyil, tanış olan məişət şəraitində, gündəlik həyatda istifadə etmək imkanı qazanır.

Nitq inkişafı dərslərində vaxtın çox hissəsi xüsusi nitq situasiyaları şəraitində fəal nitq praktikasının formalaşdırılmasına və inkişafına ayrılır. Dərsin təşkilində oyun formalarından geniş istifadə etmək uşaqlarda bu sahədə olan təcrübəyə əsaslanaraq ünsiyyətdə nitq konstruksiyaları obrazlarının və hərəkətlərinin yaradılması və tərbiyələndirilməsi ən effektli yol kimi qiymətləndirilə bilər. Bunu onunla izah etmək olar ki, məhz oyun elementləri uşaqların diqqətini nitqə, onun emosional komponentlərinə, məzmununun adekvat qavranmasına cəlb etməyə imkan verir.

Nitq inkişafı dərslərinin hamısı, mövzu istiqamətindən asılı olmayaraq, spesifik korreksiyaedici funksiyasını yerinə yetirir, yəni bu dərslər – tələffüz, lüğət ehtiyatı, cümlə quruluşu çatışmazlıqlarının aradan qaldırılması istiqamətində qurulur. Bundan əlavə, nitqin yeni sözlər, ifadələr, davamlı nitq konstruksiyaları ilə zənginləşdirilməsi üzrə xüsusi iş görülür. Təfəkkür, xahiş, salamlaşma bildirən kommunikativ hərəkətlərin əsasını təşkil edən qeyri – nitqi «siqnal» vasitələri (jest, mimika) formalaşdırılır, onların adekvat istifadəsi üçün zəmin yaradılır və s.

İntellektual çatışmazlığı olan şagirdlərin şifahi nitqi öz monotonluğu, yeknəsəqliyi, ifadəsizliyi ilə seçilir. Odur ki, müəllim nitqin ifadəliliyinin artırılması istiqamətində planlı şəkildə iş görməlidir. Bu iş,nitqin gücü, sürəti, ton və melodikası kimi xüsusiyyətlərinin mərhələli formalaşdırılmasını nəzərdə tutur. Bununla da şifahi nitqin ekspressiv xüsusiyyətləri gücləndirilmiş və inkişaf etdirilmiş olur.

Dinamik oyun uşağı, nəinki nitqə, onun ahənginə ifadəliliyinə diqqəti artırmağa, hətta ünsiyyət zamanı öz hərəkətlərini tənzimləməyə, ünsiyyət qaydalarına riayət etməyə sövq edir. Bura nitq etiketi qaydaları (müsahibinə hörmət etmək, onu dinləmək, sözünü kəsməmək, söhbəti aşağı tonda, qışqırmadan aparmaq və s.) daxildir. Şagirdlərin nitq fəaliyyətini inkişaf etdirmək üçün «Nitq inkişafı» dərslərində «Ünsiyyət mədəniyyəti», «İnsanın həyatında nitqin rolu» və s. mövzuda söhbətlər aparılmalı, uşaqların şifahi nitqi fəallaşdırılmalıdır.

Müxtəlif praktik tapşırıqları yerinə yetirərkən, yarış və ya oyun zamanı şagirdlər bir-birini başa düşmək, məlumatı ötürmək üçün, düzgün qurulmuş nitqin əhəmiyyətini başa düşməyə başlayırlar. Düzgün qurulmuş nitq vasitəsilə uşaq düzgün məlumat alır və bu, tapşırığın yerinə yetirilməsini asanlaşdırır, əksinə, nitq düzgün qurulmayıbsa, alınan məlumatın başa düşülməsində də çatışmazlıq yaranır. Yerinə yetirilən tapşırığın da, öz növbəsində, düzgün yerinə yetirilməsi çətinləşir.

Şifahi nitqin formalaşdırılması və fəallaşdırılması üzrə iş «Nitq inkişafı» dərslərində müxtəlif mövzularda dialoqların təşkil olunması, rollar üzrə, səhnələşdirilmiş oyun – dərslərin keçirilməsi, uşaqların ünsiyyət bacarıq və vərdişlərinin artırılmasına, bu təcrübədən sonralar sərbəst həyatda istifadə olunmasına kömək edir. Kommunikativ biliklərdən istifadə uşaqların ünsiyyət mədəniyyətini cilalayır. Tədricən şagirdlər nitqlərindəki səhvləri düzgün qiymətləndirməyi öyrənir, onları sərbəst düzəltməyə çalışır, fikirlərini düzgün ifadə etməyi bacarırlar.

Bununla da yardımçı məktəblərdə «Nitq inkişafı» dərslərinin əsas funksiyası – intellektual çatışmazlığı olan uşaqların kommunikativ bacarıq və vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsi rolu yerinə yetirilmiş olur.

# MƏKTƏBLİLƏRİN SAĞLAMLIĞININ MÜHAFİZƏSİNDƏ QİDALANMANIN ROLU

**İsmayılova Zöhrə,**
Azərbaycan Tibb Universitetinin uşaq və yeniyetmələr gigiyenası kafedrasının assisenti

Uşaqların sağlamlığının möhkəmləndirilməsi və mühafizəsi üzrə profilaktik tədbirlərin hazırlanması və yerinə yetirilməsi səhiyyə xidmətinin ən mühüm sahələrindəndir. Səmərəli qidalanma uşağın sağlamlığını və ahəngdar inkişafını təmin edən ən vacib və təsirli şərtlərdən biridir. Qidalanma beyinin, uşaq idrakının və mərkəzi sinir sisteminin funksional vəziyyətinə xeyli təsir göstərir. Düzgün qidalanma müxtəlif xəstəliklərə qarşı orqanizmin müqavimətini artırır və uşaq ölümü səviyyəsinin aşağı düşməsinə səbəb olur. Uşaqlıq və yeniyetməlik illərində düzgün qidalanma böyük əhəmiyyət kəsb edir, çünki qida maddələrinə olan gündəlik tələbatdan başqa, orqanizmin böyümə və inkişaf proseslərini təmin etmək lazımdır.

Gündəlik qida rasionu yaşdan, cinsdən, yaşayış yerinin coğrafi-iqlim şəraitindən, fəaliyyətin səciyyəsindən və fiziki yüklənmə səviyyəsindən asılı olaraq tarazlaşdırılmalıdır. Qidalanma o vaxt səmərəli hesab oluna bilər ki, kəmiyyət və keyfiyyətcə kifayətləndirici olsun, həmçinin enerji itkisini təmin etsin, çünki böyüyən orqanizm qida maddələrinin həm çatışmazlığına, həm də artıqlığına həssasdır.

Uşaqların qidalanmalarının səmərəliliyi problemi yalnız tibbi yox, həm də sosial mahiyyətlidir, belə ki səmərəli qidalanma müxtəlif xəstəliklərin profilaktikasında güclü amildir və insanın sonrakı inkişafını təmin edir.

1993-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi «Əhalinin səmərəli qidalanması millətin sağlamlığının əsasıdır» tezisi, müxtəlif ölkələrdə müalicəsinə külli miqdarda vəsait sərf olunan alimentar xəstəliklərin geniş yayılması ilə əlaqədar xüsusi əhəmiyyət kəsb edir. Belə vəziyyət Azərbaycana da aiddir. Burada da anemiya, endemik zob, alçaqboyluluq, vitamin çatışmazlıqlarının kliniki mikro əlamətləri geniş yayılmışdır.

Azərbaycan iqtisadiyyatındakı iqtisadi böhran respublikanın əhalisinin, xüsusilə qida çatışmazlığına olduqca həssas olan uşaqların ərzaq təminatına mənfi təsir göstərmişdir. İqtisadi böhran və müharibənin ağır nəticələri əhalinin, ilk növbədə uşaqların qidalanma vəziyyətini pisləşdirmiş, alimentar amillə əlaqədar müvafiq xəstəliklərin profilaktika və müalicəsini çətinləşdirmişdir.

Uşağın qida rasionu kalorisinə görə sərf olunan enerjiyə adekvat olmazsa, əsas qida maddələrin (zülal, yağ, karbohidrat) tarazlaşması pozularsa, vitaminin və mineral maddələrin miqdarının fizioloji normadan cüzi kənara çıxma halları olarsa, belə vəziyyət pozulmalara gətirib çıxara bilər. Bir qədər ciddi kənara çıxmalar müxtəlif növ mədə-bağırsaq, böyrək xəstəlikləri, allergiyalar, maddələr mübadiləsinin pozulmasına səbəb olur.

Uşaqların Dünya Assambleyası qidada üç mikronutriyent (dəmir, yod, A vitamini) çatışmazlığını qlobal sosial-dünya problemi kimi müəyyənləşdirmişdir. Göstərilən 3 mikronutriyentin defisiti nəticəsində yüksək ölüm, xəstəliklərin artması, əqli zəiflik, iş qabiliyyətinin azalması, fiziki və sinir psixi inkişafın ləngiməsi qeyd olunur. Bu, əhalinin bütün təbəqələrini əhatə etdiyinə görə sosial əhəmiyyətli problem sayılır.

Yod defisiti – qlobal problem olaraq millətin intellektual və fiziki potensialını aşağı salır. Orqanizmin yoda olan tələbatının 90 %-dən çoxunun qida məhsulları tərkibinə daxil olması hesabına ödənilir. Yer kürəsinin əhalisinin 200-300 milyon nəfəri endemik zobla xəstədir. Zob yod defisiti şəraitində insanın bütün yaş dövrlərində, ən çox pupertat dövründə formalaşır, yeniyetmələrdə reproduktiv sistemin vəziyyəti pisləşir, antropometrik göstəricilər regional standartlardan aşağı olur. Məktəblilər təhsildə çətinlik çəkir, proqram materialını çətin mənimsəyirlər.

Dəmir çatışmazlığı nəticəsində anemiyalar bar verir. Bu da 90% qidalanma problemi ilə bağlıdır. Yer kürəsi əhalisinin 30% -i anemiyadan əziyyət çəkir. A vitamini çatışmazlığı nəticəsində hər il 250 mindən 500 minə qədər uşaq görməsini qismən və tamam itirir. 190 milyon uşaq A vitamini çatışmazlığından əziyyət çəkir.

Qidada mikronutriyentlərin çatışmazlığı – yod defisiti xəstəliklərin, endemik zobun (yod defisiti), anemiya (dəmir defisiti), infeksiyalara həssalıq (vitamin defisiti), dərketmə xüsusiyyətində, davranış və hərəkətlərdə dəyişikliklər (yod, sink, dəmir), iştahasızlıq (sink defisiti), böyümənin dayanması (sink və yod defisiti), xroniki xəstəliklərin artma riski ilə nəticələnir.

Qidanın kimyəvi tərkibinin koloriliyi orqanizmdə, hemostazın sabit saxlanmasında çox mühüm rol oynayır. Qidalanmanın və onun rejiminin pozulması uşaqlarda ən çox fiziki inkişafın pozulmasında əks olunur. Bir çox müəlliflər qidalanma vəziyyəti ilə fiziki inkişaf, sağlamlıq vəziyyəti arasında korelyasion asılılıq olduğunu sübut etmişlər. Qidalanma nə qədər tarazlaşmış olarsa, harmonik fiziki inkişaflı uşaqların sayı bir o qədər çox olar.

Müxtəlif yaş dövrlərində maddələr mübadiləsi dəyişir. Uşaqların böyümə və inkişaf dövründə plastik və struktur proseslər təmin olunduğundan çox intensivliyi və çox enerji sərfi ilə səciyyələnir, ona görə də uşaqların qidalanmasının təşkilinə xüsusi yanaşmanın vacibliyini tələb edir. Orqanizmdə plastik proseslərin tə'min olunması və enerji funksiyası ən çox tarazlaşmış qidalanma zamanı tam yerinə yetirilir, bu vaxt zülalların, yağların və karbohidratların səmərəli nisbəti məktəb yaşlı uşaqlarda 1 -1,4 olmalıdır, ona görə də onların qidalanmaları düzgün təşkil olunmalıdır. Qida rasionu orqanizm tərəfindən yaxşı mənimsənilən ərzaqlarla təmin olunmalı, tarazlaşdırılmalı, enerji itkisini tam ödəməlidir.

Qidanın yaxşı mənimsənilməsi üçün rejimlə qidalanmanın əhəmiyyəti böyükdür. Maddələr mübadiləsini artıran, sinir sisteminə oyadıcı təsir göstərən zülallarla zəngin ərzaqların günün birinci yarısında qəbulu məsləhətdir.

İl ərzində uşaq və yeniyetmələr xüsusiyyətinə görə müxtəlif əqli və ya fiziki işlə məşğuldur. Gərgin əqli iş zamanı zülallara olan tələbat artdığından, belə hallarda rasiona zülallarla zəngin bioloji dəyərli ərzaqlar daxil edilməlidir.

Məktəblilər tədrislə əlaqədar 4-6 saat məktəbdə olurlar. Qida qəbulunda uzunmüddətli fasilə onların əhval-ruhiyyəsinə, iş qabiliyyətinə, həmçinin orqanizmin həzm funksiyasının vəziyyətinə qeyri-əlverişli təsir göstərir. Ona görə də məktəblilərin birinci və ikinci növbədə oxumalarını nəzərə alaraq qidalanma rejimi düzgün təşkil olunmalıdır. Şagirdlərin ev şəraitində və məktəbdə qidalanma rejimi tövsiyə olunmuş qida qəbulları arasındakı fasilələri (3 saatdan az olmayaraq və 4-4,5 saatdan çox olmayaraq) nəzərə almaqla qurulmalıdır. Birinci növbədə oxuyanlar üçün evdə səhər yeməyi $7^{30}$-da (rasionun 25%), ikinci səhər yeməyi saat – $11^{00}$-$12^{00}$-də (rasionun 15-20%), nahar (rasionun 35-40%) məktəbdən qayıtdıqda saat – $15^{00}$-$16^{00}$-da, şam yeməyi (rasionun 20%) saat $20^{00}$-da tövsiyə olunur. İkinci növbədə oxuyanlar üçün isə müvafiq olaraq birinci səhər yeməyi saat $8^{00}$-də, nahar məktəbə getməzdən əvvəl saat – ($12^{00}$-$13^{00}$-də), məktəbdə saat $16^{00}$-da və evdə ($19^{00}$-$20^{00}$) şam yeməyi təşkil olunur.

Yuxarıda göstərilənləri nəzərə alaraq apardığımız müayinələrin məqsədi böyük məktəb yaşlı şagirdlərin qidalanmasını öyrənməkdir.

Faktiki qidalanma Rusiya Federasiyası Tibb Elmlər Akademiyasının Qidalanma İnstiutunun və yerli mütəxəssislərin qüvvədə olan tövsiyələrinə əsalanaraq sorğu anketləri vasitəsilə araşdırılmış, əsas qida maddələrinin miqdarı, enerji dəyəri, qida inqridiyentləri xüsusi kimyəvi tərkib cədvəllərindən istifadə etməklə təhlil olunmuşdur.

Təhlilin nəticələri məktəblilərin sutkalıq rasionunun kəmiyyət və keyfiyyətcə tarazlaşmış olmamasını göstərir. Rasionda ən çox çörək, bulka, qənnadı məmulatları, ən az isə ət, süd məhsulları, yumurta, meyvə, tərəvəz verilir. Ərzaq yığımında zülallar (75%-dir), yağlar (83 %-dir), karbohidratlar (92 %-dir), kalorilik (83 %-dir) normadan aşağıdır.

Məktəblilərin qidalanma vərdişlərinin təhlili göstərir ki, rasionda makro və mikroelementlər, həmçinin vitamin çatışmır. Məktəblilər gündəlik yalnız 30-40% ət məhsulları , 20-28 % süd məhsulları, 10-20 % balıq məhsulları, 15-20 % meyvə-tərəvəz məhsulları qəbul edirlər.

Beləliklə, sutkalıq rasionda qida inqridientlərinin çatışmazlığı, uşaqların sağlamlıq, vəziyyətinə təsir göstərməklə qida statusunu pisləşdirə bilər, çünki böyüyən orqanizm qida maddələrinin çatışmazlığına olduqca həssasdır, bu isə bir çox sağlamlaşdırıcı tədbirlərin vaxtında aparılmasını bir problem kimi qarşıda qoyur. Əgər yaşlılar üçün səmərəli qidalanma sağlamlıq uzunömürlülük, yüksək iş qabiliyyətidirsə, inkişafda olan uşaqlar üçün isə normal inkişaf və həyatın özüdür.

# İDARƏETMƏDƏ YENİ YANAŞMALAR

**Adilə Məmmədova,**
Təhsil Problemləri İnsitutunun elmi işçisi

205 nömrəli körpələr evi-uşaq bağçası Bakı şəhərinin qabaqcıl yaradıcı müəssisələrindən biridir. Tərbiyə ocağında 120 uşağın hərtərəfli inkişafı, sağlamlığı, məktəbə hazırlanması üçün lazımi şərait yaradılmışdır.

Müəssisəyə 20 illik pedaqoji staja malik, öz peşəsini sevən qabaqcıl təhsil işçisi Səidə Həsənova rəhbərlik edir. Əmək fəaliyyətinə başladığı ilk illərdən özünü fəal, yaradıcı bir pedaqoq kimi göstərərək uşaqları sevmiş, onlarla normal ünsiyyətə xüsusi səy göstərmişdir. Uşaq müəssəsinə rəhbərlik etdiyi müddətdə bu xarakter xüsusiyyətini tabeliyində olan tərbiyəçilərə də təlqin etməyə çalışmışdır.



Bağçada uşaqların tərbiyəsi ilə 12 tərbiyəçi məşğul olur. Pedaqoji kollektiv daim öz üzərində işləyir, biliklərini müntəzəm təkmilləşdirir, fəaliyyətərində yeni metodlardan bacarıqla istifadə edirlər. Bağçada müasir idarəetmənin tətbiqi, təhsilin keyfiyyəti, uşaqların hərtərəfli inkişafı, məktəb təliminə hazırlanmaları, onların sağlamlığının qorunması ön plana çəkilmişdir.

Pedaqoji kollektivdə işgüzar ab-hava hökm sürür. Tərbiyəçilər iş planlarını müasir tələblərə uyğun qurmağa, yeni yaradıcılıq axtarışları aparmağa, müəssisənin funksional rejimdən inkişafetdirici rejimə keçməsinə çalışırlar. Müasir yanaşmalar baxımından məktəbəqədər təhsil müəssisələrinin fəaliyyət göstərməsinin, inkişafının mühüm amillərindən biri uşaq bağçasında fəaliyyətin məqsəd-

yönlü təşkil olunmasıdır. Bu baxımdan innovasiyaların, müasir təlim texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Tərbiyəçilər müasir təlim texnologiyalarının tətbiqi ilə əlaqədar keçirilən seminarlarda, treninqlərdə, metodbirləşmə iclaslarında iştirak edir, təcrübə mübadiləsi apararaq hər hansı yeniliyi öz işlərində tətbiq edirlər. Uşaqların təlim-tərbiyəsində təhsilin humanistləşdirilməsi differensiallaşdırılması, fərdiləşdirilməsi təhsil işçilərində yeni pedaqoji təfəkkürün formalaşdırılması, uşaqların təlim-tərbiyə proseslərinin bərabər hüquqlu subyekti kimi qəbul olunması əsas götürülür.

Təlim prosesində, əsasən, uşaqların meyl, maraq və potensial imkanları nəzərə alınır. Tərbiyəçi-uşaq münasibətlərini pedaqoji əməkdaşlıq şəraitində qurmağa çalışırlar. Yeni interaktiv metodların, müasir təlim texnologiyalarının tətbiqinə üstünlük verirlir. Belə ki, tərbiyəçilər məşğələlərdə «əqli hücum», «cütlər və qruplar», «söz assosiasiyası» metodlarından geniş istifadə edirlər. Bunun vasitəslə konkret problemlərin həlli və uşaqlara verilən hər hansı bir suala cavabın axtarılması təşkil olunur. «Əqli hücum» yeni mövzunun izahından əlavə çalışmaların yerinə yetirilməsi zamanı tətbiq olunur. Onlar həmçinin uşaqlarda tənqidi və yaradıcı təfəkkürün, fəal fikir mübadiləsinin təşkilinə xüsusi diqqət yetirirlər. Bağçada tərbiyə alan uşaqların təlim-tərbiyə prosesinin qiymətləndirilməsi yeni mexanizmlərə uyğun aparılır. Belə ki, məşğələ prosesində tərbiyəçinin təşkilati fəaliyyəti onun apardığı təlim-tərbiyəvi işlər, uşaqların fəaliyyəti 7 parametr üzrə qiymətləndirilir və keyfiyyət faizi çıxarılır.

Bağçada istedadlı uşaqlar vaxtında aşkara çıxarılır və onların inkişafı üçün əlverişli şərait yaradılır. Bu məqsədlə valideynlərin arzusuna və uşaqların marağına görə ingilis dili, təsviri fəaliyyət, şahmat dərnəkləri fəaliyyət göstərir. Uşaqlar təsviri fəaliyyət dərnəklərində molbert üzərində natura, dekorativ süjet və əşya üzrə gözəl şəkillər çəkirlər. Müəssisənin uşaqlarından bir neçəsi asfalt üzərində rəsm müsabiqəsində fərqləndiklərinə, 2003-cü ildə Rəsm Qalereyasında uşaq rəsmləri sərgisində müvəffəqiyyətlə iştirak etdiklərinə görə Bakı şəhər Baş Təhsil İdarəsinin fəxri fərmanı və diplomlarına layiq görülmüşlər.

Bağçada keçirilən tədbirlərdə, bayram şənliklərində uşaqlar ingilis dilində şeir söyləyir, nəğmə oxuyur səhnələşdirilmiş tamaşalar göstərirlər.

Müəssisə uşaqlarda məktəb həyatına maraq oyatmaq, onlarda oxumaq həvəsini artırmaq üçün böyük işlər görür. Bağçanın yetirmələri rayonun 138 və 95 nömrəli ümumtəhsil məktəblərində təhsil alırlar. Uşaq bağçasının bu məktəblərlə xüsusi əlaqə planı var. Məktəbə hazırlıq qrupunun tərbiyəçiləri I sinifdə dərslərdə olur, pedaqoji şurada, ümumi tədbirlərdə iştirak edirlər. Məktəbin ibtidai sinif şagirdləri öz kiçik dostları qarşısında maraqlı çıxışlar edirlər. Məktəbəhazırlıq qrupunun uşaqları məktəblə yaxından tanış olur, tezliklə şagirdlərlə ünsiyyətə girirlər. Bağçanın məzunlarının əksəriyyəti məktəbdə «4» və «5» qiymətlərlə oxuyurlar.

Pedaqoji kollektiv uşaq bağçasının illik planında nəzərdə tutulmuş pedaqoji şuraların, açıq məşğələlərin, müsabiqələrin, seminar-praktikumların, qabaqcıl təc-

rübənin öyrənilməsinin, ekskursiyaların, valideyn iclaslarının keçirilməsinin iştirakçısı olur.

Tərbiyəçilərə metodik kömək göstərilməsi və ixtisasının artırılması üçün bağçada bədii və metodik ədəbiyyatlarla, tərbiyəçilər tərəfindən hazırlanmış əyani vəsaitlərlə, təlimin texniki vasitələri ilə təchiz edilmiş metodik kabinet fəaliyyət göstərir. Burada materiallar proqramın bölmələrinə, eləcə də uşaqların yaş səviyyəsinə uyğun yerləşdirilmişdir. Metodbirləşmədəki «Bizim pedaqoji şura», «Yenilikləri öyrənirik», «Tərbiyəçilərə kömək» stendləri tərbiyəçiləri vaxtında təlimatlandırır, işlərini daha səmərəli qurmağa kömək edir. Bağçada pedaqoji şuralar müntəzəm olaraq maraqlı və məzmunlu keçirilir. Şurada «Uşaq bağçasında tərbiyə və təlim proqramı»nın bölmələri üzrə aparılan işin nəticələri barədə vaxtaşırı tərbiyəçilərin hesabatları dinlənilir.

Müəssisənin pedaqoji kollektivi valideynlərlə sıx əlaqə saxlayır. Valideynlərin maariflənməsi və tərbiyəçilərin yaxın köməkçisinə çevrilməsi üçün yaş qrupları həmçinin bağça üzrə ümumi valideyn iclasları keçirilir, ailə tərbiyəsinin aktual problemlərinə dair fərdi söhbətlər aparılır, onlar üçün «Açıq qapı» günləri təşkil edilir. Valideynlər bağçada keçirilən bütün tədbirlərdə (sahənin yaşıllaşdırılması, oyunlar üçün atributların hazırlanması, sərgi və ekskursiyaların təşkili, yay sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi və s.) yaxından iştirak edirlər.

Pedaqoji kollektiv Bakı şəhər Baş Təhsil İdarəsinin məktəbəqədər tərbiyə sahəsində keçirdiyi müsabiqələrdə iştirak edir.

Məktəbəqədər tərbiyə müəssisəsi, onun tərbiyəçiləri dəfələrlə rayon icra hakimiyyətinin, Bakı şəhər Baş Təhsil İdarəsinin, Xətai rayon təhsil şöbəsinin müxtəlif diplomları, fəxri fərmanları ilə təltif edilmişdir. Tərbiyəçi Zəminə Hüseynova uzun illər səmərəli pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin fəxri fərmanı ilə, Fatma Nurəliyeva Bakı şəhər BTİ tərəfindən «Təhsil sistemində müasir yanaşmaların təşəkkülü ili» çərçivəsində keçirilən müsabiqədə xüsusi fərqləndiyinə görə «İlin tərbiyəçisi», Sevinc Nəcəfova «İlin musiqi rəhbəri» adına layiq görülmüşlər. Rəhilə Məmmədovanın qrup otağına I dərəcəli diplom verilmişdir. 2004 və 2005-ci ildə Bakı şəhər İcra Hakimiyyətinin Milli parkda keçirdiyi «Gül bayramı» sərgisində bağçanın tərbiyəçiləri Vəfa Qurbanova və Sevda Rzayeva Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən pul və fəxri fərmanla mükafatlandırılmışlar.

Bağçanın müdiri S. Həsənovanın fəal ictimai fəaliyyəti, gənc nəslin təlim-tərbiyəsindəki uğurlarına görə və beynəlxalq müəllim günü münasibətilə Təhsil İşçilərinin Azad Həmkarlar İttifaqının Azərbaycan Respublikası Komitəsi tərəfindən fəxri fərmanla təltif edilmişdir. Onun rəhbərlik etdiyi müəssisə 2004-2005-ci tədris ilində Bakı şəhər BTİ tərəfindən «Təhsil sistemində müasir yanaşmaların təşəkkülü ili» çərçivəsində keçirilən «Yaradıcı fəaliyyəti ilə fərqlənən ən yaxşı təlim-tərbiyə müəssisəsi» müsabiqəsində I dərəcəli diplomla təltif olunmuşdur.

205 nömrəli körpələr evi-uşaq bağçasının yaradıcı kollektivi daim axtarışda olmaqla, kiçik fidanların tərbiyəsində yüksək nailiyyətlər əldə etmək üçün əzmlə çalışır. Bu şərəfli işdə onlara daha böyük müvəffəqiyyətlər arzulayırıq.

# MƏSULİYYƏT HİSSİ OLANDA

**Şəfiqə Əhmədova,**
Ucar RTŞ-nın metodisti



Haqqında söhbət açmaq istədiyim insan ömrümün 26 ilini kiçikyaşlı məktəblilərin təlimi, tərbiyəsi və həyata hazırlanmasına sərf etmiş Ucar şəhər 1 nömrəli orta məktəbin ibtidai sinif müəllimi Rəna Mirzəliyevadır. Daim gənclik həvəsi ilə, yorulmadan çalışan Rəna müəllimin ömür yoluna nəzər salarkən, arxada qoyduğu illəri vərəqləyərkən hədər getməyən bir ömrün şahidi olursan. Söz düşəndə özü belə deyir: «Uşaqlara sərf etdiyim ömrə heyfsilənmirəm. Ona görə heyfsilənmirəm ki, bu ömür insan yetişdirilməsi kimi şərəfli bir işə sərf edilib. Fidan balaların necə böyüdüklərini, necə inkişaf etdiklərini izləmək mənə çox xoşdur. Onlarsız həyatımı təsəvvür etmirəm».

R.Mirzəliyeva hazırda III sinifdə dərs deyir. Sinfində 24 şagird təhsil alır. Bütün şagirdlər fəaldır. Dərsdə müasir təlim metodlarının tətbiqinə daha çox üstünlük verir. Qruplarla iş zamanı uşaqları üç qrupa bölür: qüvvətli, orta və zəif səviyyəli. Qruplara ad verilir, həmin səviyyələrə uyğun tapşırıqlar, kartoçkalar tərtib edilir. Nəticədə bütün uşaqlar fəal olurlar.

R. Mirzəliyeva öz fəaliyyəti haqqında deyir: «Təhsil islahatının prinsiplərini əsas tutaraq təlimdə şagirdlərin müstəqilliyini və yaradıcı fəallığını gücləndirməyə çalışıram. Bilirəm ki, müstəqil iş üçün tapşırqlar düzgün seçilməli, şagirdlərə müstəqil işin səmərəli priyomları öyrədilməlidir. Onlarda gördükləri işə şüurlu münasibət yaratmağa çalışıram. Təlim prosesində özünənəzarətdən, özünü qiymətləndirmədən istifadə edirəm. Özünüqiymətləndirmə işində qrup rəhbərləri şagirdlərə köməkçi olur, sinfin fəal şagirdlərindən biri qruplar üzrə işə nəzarət edir».

R.Mirzəliyeva dərsdə şagirdləri fəallaşdırmaq məqsədilə kiçikölçülü folklor nümunələrindən çox istifadə edir. Sinifdəki uşaqların hamısı tapmaca, bayatı deyir, yarış şəklində atalar sözləri söyləyirlər.

Azərbaycan dili dərsində şagirdləri fəallaşdırmaq üçün müxtəlif yollardan istifadə edir:

–Azərbyacan dili dərsində nə öyrəndiniz?

– Bu gün oyun öyrəndik.

–Mən əşyanın adını deyəcəyəm. Sən isə ona məxsus olan hərəkəti söylə.

it- hürür,
insan- düşünür, işləyir,
bülbül- oxuyur, cəh-cəh vurur və s.

Xüsusi və ümumi isimləri öyrənmisən?

-Öyrənmişəm.

-Elə isə mən ümumi isim deyəcəyəm, sən onu xüsusi isim kimi dəyişib cümlədə işlətməlisən.

– gürcü
– Tbilisi Gürcüstanın paytaxtıdır.
– maral
– Bacım Maral əlaçı şagirddir.
– ulduz
– Balaca Ulduz atası ilə şəhərə getdi.
– polad
– Gəmi modelini Polad hazırladı.
İndi isə mən xüsusi isim deyəcəyəm. siz onu ümumi isimə çevirin.
Lənkəran
– Bu oğlan lənkəranlıdır.
Tovuz
– Qız tovuz quşu kimi rəngbərəng paltar geyinmişdi.
Azərbaycan
–Yarışda azərbaycanlılar qalib gəldilər.
– Bakı
– Fərman bakılı, Fəridə şəkilidir.

Deyilişi ilə yazılışı eyni olan, mənalarına görə fərqlənən sözlər (omonim) deyək. Mən sözü deyim, sən isə cümlədə işlət.

Qaz
– «Mətbəxdən qaz iyi gəlir». «Qaz göldə üzür», «Beli götür arx qaz».
Qurd
–«Sürüdən ayrılan qoyunu qurd yeyər». «Ləklərdəki kələmləri qurd basmışdı».
–Biri- birinə yaxın mənaları bildirən (sinonim ) sözlər deyək.
Cavan– gənc;
Fikir – xəyal;
Könül –ürək;
Vəzifə – qulluq.
–Elə sözlər deyək ki, mənaca bir-birinin əksi (antonimlər) olsun.
– Balaca- böyük;
– Darısqal- geniş;
Qalın- incə;
Qoca- cavan.
–Bir uşaq hansı keyifyyətləri xoşladığını , o biri isə xoşlamadığını deyir:

| | |
|---|---|
| sevirəm | nifrət edirəm |
| qəhrəmanlıq | qorxaqlıq |
| sülh | müharibə |
| dostluq | düşmənçilik |
| yaxşılıq | pislik |

– Sözləri cümlədə işlədin:
«Dünya sülh istəyir». «Rədd olsun müharibə». «Dostluqda möhkəm olmaq lazımdır». «Düşmənçilik yaxşı əlamət deyil». «Çalış ki, həmişə yaxşılıq edəsən». «Pisliyin axırı yoxdur».

Bir-birinin əksi olan sözləri bir cümlədə işlədək:

«Sülh müharibəyə qalib gələcəkdir».
«Dostluq münasibətləri yarananda düşmənçiliyə son qoyulur».
«Yaxşılığa adət edən adamın əlindən pislik gəlməz».
«İnsanlıq insanın, vəhşilik heyvanın əlamətidir».

R.Mirzəliyeva uşaqların rabitəli nitqinin inkişafına xüsusi əhəmiyyət verir. O, tez-tez şagirdlərdən şəkil, müşahidə əsasında, sərbəst mövzularda hekayə qurmağı tələb edir. Uşaqlar müəyyən qədər vərdişlərə yiyələndikdən sonra yazılı ifadə və inşalar üzrə iş aparır. Şagirdlər oxunmuş mətnin məzmununu yadda saxlayıb, yoxlamağı, şəkil üzrə yaradıcı (situasiyanı dəyişmək, əlavələr etməklə) inşalar yazmağı öyrəndikdən sonra sərbəst mövzularda inşa yazırlar. Şagirdlərə dilimizi onun kimi sevdirmək hər adama nəsib olmur. Yaradıcı inşalar uşaqları ədəbi yaradıcılığa yönəldir. Təsadüfi deyildir ki, onun yetirmələrinin bir qismi kiçikhəcmli hekayələr və şeirlər yazırlar. Onun III sinifdə oxuyan şagirdi Quliyeva Türkan Tofiq qızı müəllliminə belə bir şeir həsr etmişdir:

BAYRAMINIZ MÜBARƏK!

*Əziz və sevimli müəlliməm Rəna Mirzəliyevaya ithaf edirəm.*



Bilik günü sizinlə,
Birgə deyib gülürük.
Hamımız sizi doğma,
Ana kimi bilirik.

Bu şeri mən qoşdum ki,
Sizə sevinc bəxş edim.
İstəyirəm həyatda,
Siz gedən yolla gedim.

Çalındı ilk zəngimiz,
Bu bayramı sevirəm.
Əziz Rəna müəllim,
Sizi təbrik edirəm!

R. Mirzəliyeva şagirdlərə proqramın tələblərinə cavab verən biliklərlə yanaşı, həyati bacarıqlar da verir, vərdişlər də aşılayır. Bunun nəticəsidir ki, yuxarı sinif müəllimləri həmişə onun yetirmələrindən razı qaldıqlarını bildirirlər.

Buna səbəb R.Mirzəliyevanın öz işinə məsuliyyətlə yanaşmasıdır. Bu işdə ona uğurlar, yeni nailiyyətlər arzulayırıq.

* * *

## DƏRS İLİNİN İKİNCİ YARISI ÜÇÜN

Dərs ilinin ikinci yarısı üçün proqram materiallarının planlaşdırılması sahəsində müəllimlərə kömək göstərmək məqsədilə aşağıda ayrı-ayrı fənlər üzrə bölgülər təqdim edirik.

Ana dilinin tərkibində həyat bilgisi, yol hərəkəti əlifbası, vergilər, sinifdənxaric oxu, hüsnxət, ümumləşdirici dərslərin verilməsi planlaşdırma işini xeyli çətinləşdirir. Bu səbəbdən dərs ilinin birinci yarısında yol verilmiş bəzi xətalar dərs ilinin ikinci yarısı üçün bölgülərdə aradan qaldırılmışdır.

Keçən nömrədəki planlaşdırmada I sinif üçün musiqi və təsviri incəsənət üzrə bölgü illik verildiyindən burada həmin fənlər nəzərdə tutulmamışdur.

Planlaşdırma zamanı beşgünlük tədris həftəsinə keçilməsi ilə əlaqədar təlimata əsasən («İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnallı, 2004-cü il, №4, səh-3-8) tərtib olunmuş cədvəldə hər bir sinifdə hər bir fənnə verilən saatların yeri müəyyənləşdirilmişdir. Həmin saatların yeri dəyişildikdə böyük dolaşıqlığa yol verilə bilər. Ona görə də planlaşdırma həmin cədvələ uyğun tərtib olunmuşdur.

Planlaşdırma zamanı müəllimlərin işini asanlaşdırmaq məqsədilə hüsnxət təlimi I sinifdə oxu, II sinifdə Azərbaycan dilinin tərkibindən ayrılmış, xüsusi fənn kimi verilmişdir. Bundan məqsəd ona müəllimlərin diqqətini artırmaq, onun tədrisi ardıcıllığını izləmələrini təmin etməkdir.

Sinif jurnalında ona xüsusi səhifənin ayrılması məsləhət görülür.

Həyat bilgisi də ana dilinin tərkib hissəsi kimi tədris edildəndə müəllimlər bir çox çətinliklərlə qarşılaşırlar. Bunu nəzərə alaraq Azərbaycan Respublikası Təhsil Nazirinin imzası ilə yerlərə məktub göndərilmişdir. Məktubda həyat bilgisinin qarşıdakı dərs ilindən I-II siniflərdə xüsusi fənn kimi tədris olunacağı bildirilir. Bunu nəzərə alaraq planlaşdırmada həyat bilgisinin ana dilinin tərkibində deyil, ayrıca vermişik. Sinif jurnalında da ona xüsusi səhifə ayırmaq lazımdır. Belə bir addım müəllimlərin həyat bilgisi üzrə tədrisin gedişini izləmələrinə imkan verir.

Proqramın materiallarının planlaşdırılmasında aşağıda adları qeyd olunan əməkdaşlar iştirak etmişlər: Ana dili (oxu, yazı, hüsnxət) prof. Y.Ş.Kərimov, həyat bilgisi aspirant İ. İskəndərov, təbiətşünaslıq ped. elm. nam. L. Rzayeva, musiqi və nəğmə – prof. V.C. Xəlilov, təsviri incəsənət – Ş.Vəliyeva, fiziki tərbiyə dos. M. Nəsrullayev, əmək təlimi – ped. elm. nam. İ. Mayılov.

Hörmətli müəllimlər! Sizə təqdim olunan bölgülərdə dərsliklərlə metodik göstərişlər arasında cüzi fərqlər ola bilər. Onları özünüz asanlıqla tənzimləyə bilərsiniz.

## I SİNİF
## OXU və YAZI

| | |
|---|---|
| 1 fevral. | Oxu. «Əziz birincilər! Özünüz oxuyun, əziz balalar!» |
| | **QIŞ** |
| 2 fevral. | Oxu. «Qışda», «Qartopu» (M.Seyidzadə). |
| 3 fevral. | Oxu. «Qar» (X.Əlibəyli). |
| | Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi. |

| | |
|---|---|
| 6 fevral. | Oxu. «Qar» (M.Aslan).<br>Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi. |
| 7 fevral. | Oxu. «Dörd arzu» (K.D.Uşinski).<br>Yazı. Mətnin bir hissəsinin üzündən köçürülməsi. |

AİLƏ

| | |
|---|---|
| 8 fevral. | Oxu. «Ana» (İ.Səfərli). |
| 9 fevral. | Oxu. «Hamıdan gözəl». |
| 10 fevral. | Oxu. «Arzulamalar», «Oxşamalar».<br>Yazı. «Oxşamalar»ın üzündən köçürülməsi. |
| 20 fevral. | Oxu. «Ata».<br>Yazı. Mətndən bir neçə cümlənin müəllimin diktəsinə əsasən yazılması. |
| 21 fevral. | Oxu. «Atanın əlləri» (M.Namaz).<br>Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi. |
| 22 fevral. | Oxu. «Ad günü». |
| 23 fevral. | Oxu. «Üç cücə». |
| 24 fevral. | Oxu. «Can gülüm, can, can!» (A.Şaiq).<br>Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi. |
| 27 fevral. | Oxu. «Mən də, mən də», «Saymaca».<br>Yazı. «Saymaca»nın bir bəndinin üzündən köçürülməsi. |
| 28 fevral. | Oxu. «Sağlamlığın şərtləri».<br>Yazı. Beş cümlənin yazı taxtasından köçürülməsi. |
| 1 mart. | Oxu. «Təmizlik» (A.Şaiq), «Zarafat».<br>Yazı. Xəbərdarlıqlı imla. («İmla mətnləri məcmuəsi»nin 22 səhifəsindəki «Doğma dilimiz» mətni üzrə). |
| 2 mart. | Oxu. «Ağıllı məsləhət», «Həkim» (X.Əlibəyli). |
| 3 mart. | Oxu. «Sağlamlıq üçün nə etmək lazımdır?».<br>Yazı. Mətnin beş sətrinin üzündən köçürülməsi. |
| 6 mart. | Oxu. «Ananın bayramı».<br>Yazı. Axırıncı abzasın müəllimin diktəsinə əsasən yazılması. |
| 7 mart. | Oxu. «Anaların bayramı» (H. Ziya).<br>Yazı. Şerin üzündən köçürülməsi |

GÖZƏL YAZ

| | |
|---|---|
| 9 mart. | Oxu. «Yaz günləri» (M.Ə.Sabir). |
| 10 mart. | Oxu. «Gəl bahar» (T.Elçin).<br>Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi. |
| 13 mart. | Oxu. «Gün, çıx, gün, çıx».<br>Yazı. «İmla mətnləri məcmuəsi»nin 22-ci səhifəsindəki «Bizim sinif» mətni üzrə xəbərdarlıqlı imla. |
| 14 mart. | Oxu. «Ayaq izləri».<br>Yazı. «İmla mətnləri məcmuəsi»nin 22-ci səhifəsindəki «Dostlar» mətni üzrə xəbərdarlıqlı imla. |
| 15 mart. | Oxu. «Qaranquş». |
| 16 mart. | Oxu. «Novruz». |
| 17 mart. | Oxu. «Yazda təbiət».<br>Yazı. «İmla mətnləri məcmuəsi»nin 22-ci səhifəsindəki «Qaranquş və sərçə» mətni üzrə izahlı imla. |

3 aprel. Oxu. «Bahar mənəm» (N.Xəzri).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 23-ci səhifəsindəki «Məktəbimiz» mətni üzrə izahlı imla.

4 aprel. Oxu. «Bənövşə, «Qərənfil» (A.Şaiq).
Yazı. «Bənövşə» şerinin üzündən köçürülməsi.

5 aprel. Oxu. «Gənc bağbanlar» (T.Mütəllibov).

## YAXŞI İŞLƏR GÖRƏK

6 aprel. Oxu. «Kərpickəsən qoca və cavan oğlan».

7 aprel. Oxu. «Qoca qadındır» (V. Oseyeva).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 23-cü səhifəsindəki 4-cü bənd üzrə izahlı imla.

10 aprel. Oxu. «Alma və naringi».
Yazı. Mətnin üzündən köçürülməsi.

11 aprel. Oxu. «Kosmonavt olmaq istəyirəm».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 23-ci səhifəsindəki seçmə imlaların 1-2 bəndləri üzrə yazı.

12 aprel. Oxu. «Bip-bipin nəğməsi» (T.Elçinin).

13 aprel. Oxu. «İki yoldaş» (L.Tolstoy).

14 aprel. Oxu. «Göyərçin və qarışqa», «Tülkü və durna».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-cü səhifəsindəki 4-5-ci bəndlər üzrə seçmə imla.

17 aprel. Oxu. «Yolda oynamaq qorxuludur».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-cü səhifəsindəki 1-ci bölmə əsasında lüğət üzrə imla.

18 aprel. Oxu. «Keçi». (A.Şaiq).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-cü səhifəsindəki 2-ci bölmə əsasında lüğət üzrə imla.

19 aprel. Oxu. «Tərs keçilər» (M.Kostyubinski).

20 aprel. Oxu. «Çoban», «Quzum» (M.Araz).

21 aprel. Oxu. «Zınqırov» (L.Tolstoy), «Siçan balası» (T.Elçin).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-cü səhifəsindəki 3-cü bölmə əsasında lüğət üzrə imla.

24 aprel. Oxu. «Uşaq və dovşan» (A.Şaiq).
Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi.

25 aprel. Oxu. «Ceyran» (S.Məmmədzadə).
Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi.

26 aprel. Oxu. «Ovçu oğlan» (Ə.Səmədli).

27 aprel. Oxu. «Cücələr» (A.Səhhət), «Yanıltmaclar» (T.Elçinin).

28 aprel. Oxu. «Durna» (R.Əfəndiyev).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-cü səhifəsindəki görmə imlaların 1-ci bəndi üzrə yazı.

## VƏTƏN

1 may. Oxu. «Ana yurdumuz».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-ci səhifəsindəki görmə imlaların 3-cü bəndi üzrə yazı.

2 may. Oxu. «Ana yurdum» (A.Şaiq).
Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi

3 may. Oxu. «Gerbimiz və bayrağımız».

4 may. Oxu. «Biz Azərbaycan Respublikasının vətəndaşıyıq».

5 may. Oxu. «Üç oğul».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 24-ci səhifəsindəki «Ana dili» mətni üzrə yoxlama imla.

8 may. Oxu. «9 May Qələbə Günüdür».
Yazı. Mətnin bir hissəsinin üzündən köçürülməsi.

10 may. Oxu. «Bakı».

11 may. Oxu. «Qara qızıl».

12 may. Oxu. «Heydər baba».

QIZMAR YAY

15 may. Oxu. «Yay».
Yazı. «İmla mətnləri məcmuəsi»nin 25-ci səhifəsindəki «Tərif» mətni üzrə izahlı imla.

16 may. Oxu. «Günəş» (C. Məmmədzadə).
Yazı. Şerin bir bəndinin üzündən köçürülməsi.

17 may. Oxu. «Sünbülüm» (H. Ziya).

18 may. Oxu. «Ay nə üçün çılpaq gəzir?».

19 may. Oxu. «Təbiəti sevək» (Y.Kərimov).
Yazı. «Sünbülüm» şerinin bir bəndinin yaddaşa əsasən yazılması.

22 may. Oxu. «Respublika günü».
Yazı. Mətnin bir hissəsinin üzündən köçürülməsi.

23 may. Oxu. «Uşaqların bayramı» (X.Əlibəyli).
Yazı. «İmla mətnləri məcmuəsi»nin 25-ci səhifəsindəki «Şəhər bağında» mətni üzrə yoxlama imla.

24 may. Oxu. Şagirdlərin təlim müvəffəqiyyətlərinin yoxlanması və qiymətləndirilməsi.

25 may. Dərs ilinin yekunlaşdırılması və yay tapşırığı.

# HÜSNXƏT

Bölgüdə hər dərs üçün 2 səhifə nəzərdə tutulmuşdur. Sinfin səviyyəsindən, uşaqların xəttindəki kəsirlərdən asılı olaraq tapşırığın xarakterini, həcmini müəyyənləşdirmək mümkündür. Ola bilər ki, hər səhifənin bir hissəsi sinifdə müəllimin rəhbərliyi altında yerinə yetirilsin, qalan hissəsinin yazılması isə evə tapşırılsın. Səhifələrdən biri üzərində sinifdə, digəri üzərində isə evdə işin aparılması da mümkündür.

2 fevral. «Hüsnxət» dərs vəsaitinin 1-ci və 2-ci səhifələri üzrə iş.

9 fevral. «Hüsnxət» dərs vəsaitinin 3-cü və 4-cü səhifələri üzrə iş.

23 fevral. «Hüsnxət» dərs vəsaitinin 5-ci və 6-cı səhifələri üzrə iş.

2 mart. «Hüsnxət» dərs vəsaitinin 7-ci, 8-ci və 9-cu səhifələri üzrə iş.

9 mart. «Hüsnxət» dərs vəsaitinin 10-cu və 11-ci səhifələri üzrə iş.

16 mart. «Hüsnxət» dərs vəsaitinin 12-ci və 13-cü səhifələri üzrə iş.

6 aprel. «Hüsnxət» dərs vəsaitinin 14-cü və 15-ci səhifələri üzrə iş.

13 aprel. «Hüsnxət» dərs vəsaitinin 16-cı və 17-ci səhifələri üzrə iş.

20 aprel. «Hüsnxət» dərs vəsaitinin 18-ci və 19-cu səhifələri üzrə iş.

27 aprel. «Hüsnxət» dərs vəsaitinin 20-ci və 21-ci səhifələri üzrə iş.

| | |
|---|---|
| 4 may. | «Hüsnxət» dərs vəsaitinin 22-ci və 23-cü səhifələri üzrə iş. |
| 11 may. | «Hüsnxət» dərs vəsaitinin 24-cü və 25-ci səhifələri üzrə iş. |
| 18 may. | Rəqəmlərin və misalların yazılması. «Hüsnxət» dərs vəsaitinin 32-ci səhifəsi üzrə iş. |
| 25 may. | Yoxlama imla. «Hüsnxət» dərs vəsaitinin 30-cu səhifəsindəki «Qarışqa və göyərçin» mətni üzrə. |

# HƏYAT BİLGİSİ

Həyat bilgisinə dair materialları oxu üzrə materialların içərisində deyil, ayrıca verməkdən məqsəd bu sahədə təlimin ardıcıllığının və şagirdlərin müvəffəqiyyətlərinin izlənməsini asanlaşdırmaqdır.

Həyat bilgisi üçün sinif jurnalında xüsusi səhifənin ayrılması məsləhət görülür.

## III bölüm. Təbiət hadisələri (davamı)

| | |
|---|---|
| 1 fevral. | «Niyə yağış yağır?» (Dərs vəsaiti, səh. 66-67). «Dolu və qar» (Dərs vəsaiti, səh. 68-70). |
| 8 fevral. | «Qış» (Dərs vəsaiti, səh. 71-73). |
| 22 fevral. | «İldırım və göy qurşağı» (Dərs vəsaiti, səh. 74-76). |
| 1 mart. | «Zəlzələ», «Zəlzələ zamanı nə etməli?» (Dərs vəsaiti, səh. 77-79). |
| 15 mart. | «Çaylar necə əmələ gəlir və hara axıb gedir?» (Dərs vəsaiti, səh. 80-81). |
| 5 aprel. | «Təbiət və ekologiya» (Dərs vəsaiti, səh. 82-83). |
| 12 aprel. | «Yaz. Novruz bayramı» (Dərs vəsaiti, səh. 84-86). |

## IV bölüm. Bilik və insan əməyi

| | |
|---|---|
| 19 aprel. | «Yaşayış məntəqələri». «Kənd və şəhər». (Dərs vəsaiti, səh. 88-89). |
| 26 aprel. | «Yollar və körpülər» (Dərs vəsaiti, səh. 90-91). |
| 3 may. | «Nəqliyyat vasitələri» (Dərs vəsaiti, səh. 92-94). |
| 10 may. | «Elektrik». «Elektrik olmasa nə baş verər?» (Dərs vəsaiti, səh. 95-97). |
| 17 may. | «Bütün peşələr lazımdır» (Dərs vəsaiti, səh. 98-100). |
| 24 may. | «Vətənimizin təbii sərvətləri». «Yay» (Dərs vəsaiti, səh. 101-103). |

# FİZİKİ TƏRBİYƏ

| | |
|---|---|
| 1-ci dərs. | Boyunardı düzülmək. Qolları müxtəlif istiqamətlərdə hərəkət etdirməklə çiyinləri qaldırmaq və endirmək. Kiçik topu yerə vurmaq və iki əllə tutmaq. «Topu al, qaç» oyunu. |
| 2-ci dərs. | Müxtəlif əşyalar tutmuş əlləri yanlara açmaqla gimnastika skamyası üzərində yeriyərkən müvazinəti saxlamaq. |
| 3-cü dərs. | Fırlanan ip üzərindən hoppanmaq. Maneənin üzərindən dırmaşıb aşmaq. Maili qoyulmuş gimnastika skamyasına dırmaşmaq. |
| 4-cü dərs. | Sıraya düzülmək. Musiqinin müşayiəti ilə marş oxuya-oxuya yeriş. Topla oyun. |
| 5-ci dərs. | Tək və sırada sağa, sola və geriyə dönmələr. Bir cərgədən iki, iki cərgədən bir cərgəyə dönmə. «Topu qonşuna ötür» oyunu. |
| 6-cı dərs. | Arxası üstə uzanmış vəziyyətdən bədəni yığaraq dayaqlı oturuşa keçmək, irəliyə və geriyə aşmaq. |
| 7-ci dərs. | Sırada «Bir!, İki!» saya-saya yerimək. Yerində və yeriyə-yeriyə topu baş üstündən arxadakına ötürmək. |

8-ci dərs. Sırada sürəti artırmaq və azaltmaqla yerimək. 35-40 santimetr hündürlüyündə maneə üzərindən tullanmaq.

9-cu dərs. «Yerində addımla marş!» komandasını yerinə yetirmək. Bir-birindən 3-4 metr aralı əyləşmiş iki cərgənin topu bir-birinə diyirlətməsi.

10-cu dərs. Dayaqlı oturuşdan qalxıb əyləşmək. Fırlanan ipin altından qaçaraq keçmək. «Bənövşə» oyunu.

11-ci dərs. Gimnastika skamyası üzərində 20 sm hündürlükdə ipin üstündən addımlayıb keçməklə yeriş. Qaçaraq uzununa tullanmaq.

12-ci dərs. Hündürlüyü 70-80 santimetr maneənin üzərindən aşmaq. 10 santimetr maneəni aşmaqla uzununa tullanmaq.

13-cü dərs. İçərisində 150-200 qram yükün olduğu qutunu başın üstündə saxlamaqla əyləşib, qalxmaq. Həmin vəziyyətdə 5-6 metr qabağa və dal-dala yerimək.

14-cü dərs. Çiyin, baş, gövdə və qıçların müxtəlif hərəkətləri. 30-40 metr məsafəyə iki-iki qaçış üzrə yarış.

15-ci dərs. Çıxış vəziyyətindən yeriş və qaçış. «Tez öz yerinə!» oyunu.

16-cı dərs. Dayaqlı oturuşdan qalxıb əyləşmək. Maili qoyulmuş skamya üzərinə dırmaşmaq. 30-40 metr məsafəyə qrupla qaçış.

17-ci dərs. Pəncələr üstə yeriş. Qaməti düz saxlamaqla qaçış. «Topaldıqaç!» oyunu.

18-ci dərs. Yerişlə qaçışın növbələşdirilməsi. «Durma, qaç!» oyunu.

19-cu dərs. Bir cərgədən üç cərgə düzəltmək. Gimnastika skamyası üzərində əllər yana yerimək. Hər addımda bir qıçı yuxarı qaldıraraq altında əl çalmaq.

20-ci dərs. Yerişi qaçışla növbələşdirməklə 1,5 dəqiqə hərəkət etmək. Yeriyə-yeriyə üç cərgəyə düzülmək. «Bayraqlara doğru marş!» oyunu.

21-ci dərs. 3 metr məsafədən 2 metr hündürlükdə olan lövhədəki səbətə top atmaq. «Kim uzağa atar?» oyunu.

22-ci dərs. Yerindən uzununa tullanmaq. Yerindən və addımlaya-addımlaya topu hədəfə atmaq.

23-cü dərs. Əllərin və qolların hərəkəti ilə yerimək, sürünmək. Qaçaraq uzununa tullanmaq.

24-cü dərs. Qaçaraq ipin üstündən tullanmaq. Dayandığı yerdən və qaçaraq topu uzağa atmaq.

25-ci dərs. Kiçik topu yuxarı atıb, iki əllə tutmaq. Topu yerə vurub iki əllə tutmaq. Hədəfə cisim atmaq.

26-cı dərs. Kiçik topu yerə vurub, tullanaraq tutmaq. 3-4 metr məsafədən topu bir-birinə atıb-tutmaq. «Durma, qaç!» oyunu.

27-ci dərs. 35-40 metr məsafəyə iki-iki qaçmaq. Aşağı sürətdə 200 metr məsafəyə kross qaçışı. «Sıçan-pişik» oyunu.

28-ci dərs. Enişli-yoxuşlu, əyri-döngəli və müxtəlif maneələrin olduğu 100 metrlik məsafəni 5 dəqiqəyə dəf etmək.

29-cu dərs. Sırada topu başı üstündən arxadakına ötürmək. Yerə vurulmuş topu qalxaraq iki əllə tutmaq. «Topu hədəfə at!» oyunu.

30-cu dərs. Qaçaraq hündürlüyə tullanmaq. 100 metr məsafəyə kross qaçışı. «Kim daha iri addımlarla yeriyər?» oyunu.

31-ci dərs. Divara vurulmuş topu iki əllə tutmaq. «Topu qonşuna ötür!». «Sürətlə öz yerinə!» oyunu.

32-ci dərs. Uşaqların dərs ili ərzində öyrəndiklərinin yekunlaşdırılması. Yay kütləvi idman tədbirlərinin məzmunu haqqında məlumatın verilməsi.

# ƏMƏK TƏLİMİ

Əziz müəllimlər!

I sinifdə altıyaşlıları yeknəsəq çalışmalarla yormamaq xatirinə proqram materiallarının tədrisi ardıcıllığında müəyyən dəyişikliklərin aparılması məqsədəuyğun hesab edildi. Adətən, 10 saat ərzində modelləşdirmə və maketləşdirmə başa çatdıqdan sonra uşaqlar 6 saat məişət, kulinariya və özünəxidmət işləri ilə məşğul olur. 10 saat ərzində kənd təsərrüfatı işi yerinə yetirirlər. 6 saat isə tematik variantlı hissə üçün ayrılır. Bu hissə yerində qalmaqla, qalan bölmələrə verilmiş saatların növbələşdirilməsi daha faydalı olar. Uşaqların vaxtaşırı eyni iş növü ilə rastlaşmaları onların təlim həyatını daha maraqlı edər, əməyin müxtəlif sahələri üzrə əldə etdikləri vərdişləri təkrarlamağa imkan taparlar.

Bir növ eksperiment xarakteri daşıyan belə planlaşdırmanın tətbiqi nəticələri haqqında fikirlərinizi jurnala göndərməniz xahiş olunur.

| | |
|---|---|
| 1-ci dərs. | Plastmas kosnstruktordan istifadə etməklə modellərin yığılması və sökülməsi. |
| 2-ci dərs. | Tədris təcrübə sahəsində quru yarpaq və gövdələrin dırmıqla yığılıb yandırılması. |
| 3-cü dərs. | Plastmas konstruktordan evciyin qurulması. |
| 4-cü dərs. | Tədris-təcrübə sahəsində lazım olan alətlər və onlarla işləməyin qaydası ilə tanışlıq. |
| 5-ci dərs. | Məişət özünəxidmət estetikası anlayışı. Sinif mebeli və ayaqqabının quru əski ilə silinməsi. |
| 6-cı dərs. | Nümunəyə əsasən qaldırıcı kranın quraşdırılması. |
| 7-ci dərs. | Güllükdə çiçəklərə və bəzək kollarına qulluq. |
| 8-ci dərs. | Nümunəyə əsasən xidmət maşınlarının quruluşu. |
| 9-cu dərs. | Ərzaq nümunələri və qidalanma ləvazimatları ilə tanışlıq. |
| 10-cu dərs. | Konstruktordan istifadə etməklə körpünün quraşdırılması. |
| 11-ci dərs. | Bəzək bitkilərinin (yasəmən, qızılgül, nərgiz, zanbaq, qərənfil, ətirşah) həyat şəraiti ilə tanışlıq. Onlara qulluq. |
| 12-ci dərs. | Məktəbin bufetində qab-qacağın yığışdırılması, səliqə-sahman yaradılması. |
| 13-cü dərs. | Konstruktordan istifadə etməklə çoxmərtəbəli evin quraşdırılması. |
| 14-cü dərs. | Bitkilərin işığa, istiliyə, suya, gübrəyə, torpağa olan ehtiyacını sübut edən təcrübənin təşkili. |
| 15-ci dərs. | Vertolyot modelinin sökülməsi və yığılması |
| 16-cı dərs. | Örtülü şəraitdə bitkilərin becərilməsi qaydaları üzrə təmrinlər. |
| 17-ci dərs. | Çörəyin, pendirin, kolbasanın, soyulmuş yumurtanın doğranması. |
| 18-ci dərs. | Çiliklərin seçilib kəsilməsi, kökatmaya qoyulması. Bəzi toxumların seçilməsi və səpinə hazırlanması (islağa qoyulması və s.). |
| 19-cu dərs. | Təyyarə modelinin yığılması və sökülməsi. |
| 20-ci dərs. | Sadə buterbrodun hazırlanması. Çay stolunun açılması. |
| 21-ci dərs. | Toxumun səpilməsi üçün ləklərin hazırlanması. |
| 22-ci dərs. | Şagirdlərin arzu etdikləri bir texniki modelin konstruktorla yığılması. |
| 23-cü dərs. | Cib dəsmalının, corabın, salfetin yuyulması, qurudulması və ütülənməsi. |
| 24-cü dərs. | Ləklərə tərəvəz toxumlarının səpilməsi. Etiketlərin yazılması və payaya bənd edilib ləklərə sancılması. |
| 25-ci dərs. | Məktəbin yaxınlığında, mikrorayonun, qəsəbənin ərazisində abadlıq üzrə yüngül işlərdə böyüklərə kömək edilməsi. |

26-cı dərs. İl ərzində şagirdlərin yiyələndikləri bilik, bacarıq və vərdişlərin öyrənilməsi və qiymətləndirilməsi.

## B. TEMATİK VARİANTLI HİSSƏ

### I variant. BİTKİLƏRİN BECƏRİLMƏSİ ÜZRƏ İŞLƏR

1-ci dərs. Bitkilərin becərilməsində istifadə edilən alətlərlə iş zamanı təhlükəsizlik, sanitar-gigiyena qaydalarının gözlənməsi ilə tanışlıq.
2-ci dərs. Otaq bitkiləri və onlara qulluq qaydaları ilə tanışlıq.
3-cü dərs. Eyni vaxtda dibçəklərdə əkilmiş noxud və ya lobyanın qaranlıqda, az işıqlı, çox işıqlı yerdə saxlanmasının nəticələrinin müqayisə edilməsi üçün təcrübə qoyulması.
4-cü dərs. Həmin dibçəklərdə bitkinin böyüməsi üzərində müşahidənin aparılması.
5-ci dərs. Məktəbin tədris-təcrübə sahəsində pomidorun şitillənməsi və becərilməsi.
6-ci dərs. Məktəbin sahəsində məhsul toplanışında iştirak etmək.

### II variant. KOMBİNƏEDİLMİŞ İŞ

1-ci dərs. Kağız, parça, təbii və süni materiallara iş zamanı təhlükəsizlik texnikası və sanitar-gigiyena qaydalarının gözlənilməsi ilə tanışlıq.
2-ci dərs. Parçadan sadə məmulatın hazırlanması.
3-cü dərs. Kağızdan sadə məmulatın hazırlanması.
4-cü dərs. Bitki orqanları və toxumlarından applikasiyaların hazırlanması.
5-ci dərs. Təbiət materialı və istehsalat tullantılarından müxtəlif fiqurların hazırlanması.
6-cı dərs. Təbiət materiallarından istifadə etməklə süjetli fiqurların hazırlanması.

### III variant. ODUNCAQLA İŞ

1-ci dərs. Oduncaqla iş zamanı təhlükəsizlik texnikası və sanitar-gigiyena qaydalarının gözlənməsi ilə tanışlıq.
2-ci dərs. Oduncaq yarımfabrikatlardan mətbəx mebelinin yığılması.
3-cü dərs. Oduncaq yarımfabrikatlardan evcik, körpü, ev quşları üçün yem texnikasının yığılması.
4-cü dərs. Oduncaqlardan lazım olan uzunluqda pəstahların ölçülməsi və kəsilməsi.
5-ci dərs. Pəstahların ölçü uyğunluğunun müəyyənləşdirilməsi və kənarlarının sumbata kağızı ilə cilalanması.
6-cı dərs. Oduncaq hissələrinin mismarla birləşdirilməsi.

### IV variant. TİKMƏ İŞİ

1-ci dərs. Tikmə alətləri və tərtibatları ilə iş zamanı təhlükəsizlik texnikası və sanitar-gigiyena qaydalarının gözlənməsi ilə tanışlıq.
2-ci dərs. Tikiş üçün materiallar, onların çeşidləri ilə tanışlıq.
3-cü dərs. Tikmənin növləri ilə tanışlıq məqsədi ilə muzeyə və ya emalatxanaya ekskursiya.
4-cü dərs. Milli tikmə növləri ilə tanışlıq. Xırda parça kəsiklərindən applikasiyanın hazırlanması.
5-ci dərs. Xırda parça kəsiklərindən personajların, sadə təsvirlərin verilməsi.
6-cı dərs. İl ərzində öyrənilmişlər ətrafında müsahibə. Yay tapşırığı.

# II SİNİF
# OXU

### Xeyirxah işlər görək

11 yanvar. «İnsana məhəbbət».
12 yanvar. «Buyurun əyləşin» (X. Hasilova).
13 yanvar. Sinifdənxaric oxunun yekunlaşdırılması.
16 yanvar. «Əkərik, yeyərlər» («Kəlilə və Dimnə»).
17 yanvar. «Çörək».
18 yanvar. «Uşaqlıq xatirəsi» (T.Bayram).
19 yanvar. «Şəhidlər xiyabanı» (Ə.Naxçıvanlı).
23 yanvar. « Ehtiyatlı olun».
24 yanvar. «Xəsis və xeyirxah» (R.Əfəndiyev).
25 yanvar. «Yalançı çoban».
26 yanvar. «Yoxsul balıqçı».
27 yanvar. Sinifdənxaric oxunun yekunlaşdırılması.
30 yanvar. Bölmə üzrə ümumiləşdirici dərs.
31 yanvar. Yol hərəkəti əlifbası.

### El bilir ki, sən mənimsən

1 fevral. «Bizim ana vətənimiz».
2 fevral. Azərbaycanın ümummilli lideri.
3 fevral. Sinifdənxaric oxunun yekunlaşdırılması.
6 fevral. «Xaricdəki qardaşlarımız və yurddaşlarımız».
7 fevral. «Bakıda».
8 fevral. «Yanardağ» (Ə.Səmədli).
9 fevral. «Neft daşlarında».
10 fevral. Sinifdənxaric oxunun yekunlaşdırılması.
13 fevral. «Kəndlilər»
14 fevral. «Sünbülüm» (H.Ziya).
15 fevral. «Dağlar gözəli».
16 fevral. «Göy göl» (F.Qoca).
17 fevral. Sinifdənxaric oxunun yekunlaşdırılması.
20 fevral. «Kür çayı».
21 fevral. «Sayaçı sözlər».
22 fevral. «Qartal balasının səhvi».
23 fevral. Yol hərəkəti əlifbası.
24 fevral. Sinifdənxaric oxunun yekunlaşdırılması.
27 fevral. «Hamısı mənimdir» ( M.Aslan).
28 fevral. «Sərhəddə söhbət» (M.Günər).
1 mart. «Keçmişdə və indi».
2 mart. «İlk dəfə şəhərdə».
3 mart. Ümumiləşdirici dərs. Sinifdənxaric oxunun yekunlaşdırılması.
6 mart. «Qadınlar bayramı».
7 mart. «Ana» (S. Məmmədov).

### Gəl-gəl, a yaz günləri

9 mart. «Yazda».

| | |
|---|---|
| **10 mart.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **13 mart.** | «Qaranquş» (T.Elçin). |
| **14 mart.** | «İlk bahar» (A.Səhhət). |
| **15 mart.** | «Novruz nəğmələri». |
| **16 mart.** | «Səməni» (A.Şaiq). |
| **17 mart.** | «Sular hara tələsir?» (Ə.Səmədli). |
| **3 aprel.** | «Quşlara daş atmyaın» (M.Gülgün). |
| **4 aprel.** | Yol hərəkəti əlifbası. |
| **5 aprel.** | Ümumiləşdirici dərs. |

**El bilir ki, sən mənimsən (davamı)**

| | |
|---|---|
| **6 aprel.** | «Azərbaycanım mənim» (M.Rahim). |
| **7 aprel.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **10 aprel.** | «Metro». |
| **11 aprel.** | «Ən gərəkli zavod» (B. Ryabkin). |
| **12 aprel.** | «İlk uçuş». |
| **13 aprel.** | «İnsanın köməkçiləri». |
| **14 aprel.** | Bölmə üzrə ümumiləşdirici dərs. Sinifdənxaric oxunun yekunlaşdırılması. |

**Vətən onu qoruyanındır**

| | |
|---|---|
| **17 aprel.** | «Azərbaycanın Milli Ordusu». |
| **18 aprel.** | «Azərbaycan torpağıyam» (Z.Yaqub). |
| **19 aprel.** | «Hərbi xidmətə çağırış». |
| **20 aprel.** | «Vətənin keşiyində». |
| **21 aprel.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **24 aprel.** | Yol hərəkəti əlifbası. |
| **25 aprel.** | «Bədxah qonşular». |
| **26 aprel.** | «Gənc qəhrəman». |
| **27 aprel.** | «İki əsgər». |
| **28 aprel.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **1 may.** | «Top gülləsinin qəlpəsi». |
| **2 may.** | «Göyərçin». |
| **3 may.** | «Sərhədçilərin kiçik dostu». |
| **4 may.** | «Yaylaqların mahnısı». |
| **5 may.** | Bölmə üzrə ümumiləşdirici dərs. Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **8 may.** | Qələbə günü haqqında müsahibə. |
| **10 may.** | Bölmə üzrə ümumiləşdirici dərs. |

**Qızmar yay**

| | |
|---|---|
| **11 may.** | «Yayda». |
| **12 may.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **15 may.** | «Yay gəlib». |
| **16 may.** | «Ətraf aləmi qoruyaq». |
| **17 may.** | «Bulandırma bulağı» ( M.Günər). |
| **18 may.** | «Güllə» (E.Mehdiyev). |
| **19 may.** | Sinifdənxaric oxunun yekunlaşdırılması. |
| **22 may** | «Yaylaqlar» (T.Mahmud). |
| **23 may.** | «Allahın məhəbbəti». |
| **24 may.** | Bölmə üzrə ümumiləşdirici dərs. |

25 may. «Şanlı 28 May».
26 may. Sinifdənxaric oxunun yekunlaşdırılması.
29 may. «Uşaqların müdafiə günü».
30 may. Şagirdlərin təlim müvəffəqiyyətlərinin yoxlanması və qiymətləndirilməsi. və yay tapşırığının verilməsi
31 may. Dərs ilinin yekunlaşdırılması və yay tapşırığının verilməsi.

# AZƏRBAYCAN DİLİ

## ƏLİFBA

1-ci dərs. Çalışma 203-206.

## VURĞU

2-ci dərs. Çalışma 207-210.
3-cü dərs. Çalışma 211-215.

## QOHUM SÖZLƏR

4-cü dərs. Çalışma 216-222.
5-ci dərs. İnşa. Dərsliyin 57-ci səhifəsindəki seriya şəkillər üzrə.

## ƏŞYANIN ADINI BİLDİRƏN SÖZLƏR

6-cı dərs. Çalışma 223-227.
7-ci dərs. İfadə. «İfadə üçün mətnlər məcmuəsi»nin 44-cü səhifəsindəki «Ana məhəbbəti» mətni üzrə. ( İfadə mətnləri 2005-ci ildə çapdan çıxmış kitabdan götürülmüşdür).
8-ci dərs. İnşa. «Qış» mövzusunda.
9-cu dərs. Çalışma 228-231.
10-cu dərs. Çalışma 232-235.
11-ci dərs. Çalışma 236-239.
12-ci dərs. Yoxlama imla. «İmla mətnləri məcmuəsi»nin 41-ci səhifəsindəki xəbərdarlıqlı imla mətninin üçüncüsü üzrə.
13-cü dərs. Çalışma 240-244.
14-cü dərs. Çalışma 245-249.

## SÖZLƏRİN ƏVVƏLİNDƏ BÖYÜK HƏRFİN İ ŞLƏNMƏSİ

15-ci dərs. Çalışma 250-253.
16-cı dərs. İfadə. «İfadə üçün mətnlər məcmuəsi»nin 48-ci səhifəsindəki «Ağaclar» mətni üzrə.
17-ci dərs. Çalışma 254-257.
18-ci dərs. İnşa. 256-cı çalışma üzrə.
19-cü dərs. Çalışma 258-261.
20-ci dərs. Çalışma 262-265.
21-ci dərs. Yoxlama imla. «İmla mətnləri məcmuəsi»nin 75-ci səhfiəsindəki «Azərbaycanlılar» mətni üzrə.

## TƏKİ VƏ CƏMİ BİLDİRƏN SÖZLƏR

22-ci dərs. Çalışma 266-269.
23-cü dərs. İfadə. «İfadə üçün mətnlər» məcmuəsinini 50-ci səhifəsindəki «Bəxşiş» mətni üzrə.
24-cü dərs. Çalışma 270-275.
